- Birbaşa xarici investisiyalar İnkişaf etməkdə olan ölkələrdə xüsusi əhəmiyyətə malikdirlər. Çünki, maliyyə mənbəyi ilə bərabər belə investisiyalar eyni zamanda müasir texnologiyaların və avadanlıqların ölkəyə daxil olmasına şərait yaradır. Kənd təsərrüfatında xarici investisiyalar o zaman əhəmiyyətli olur ki, bu investisiyalar üçün müvafiq investisiya iqlimi yaradılsın. Belə investisiya iqlimi müvafiq sosial,iqtisadi və institusional şəraitdə yarana bilər.
- Dövlət büdcəsi hesabına investisiya mənbələrinin yaranması üçün büdcə gəlirlərinin həcmi müvafiq səviyyədə olmalıdır. İnkişaf etməkdə olan ölkələrdə büdcə xərcləri hesabına investisiyaların maliyyələşdirilməsinin səviyyəsi malik olduğu təbii resurslardan əldə olunan gəlirlərin səviyyəsi ilə birbaşa asılıdır.

Ümumiləşdirilmiş formada təsnifləşdirilmiş investisiyaların maliyyə mənbələri ilk növbədə ölkənin daxili investisiya axınına təsir göstərərək multiplikasiya effekti yaratması onlar arasındakı qarşılıqlı əlaqədən birbaşa asılıdır.

Ədəbiyyat xülasəsi

Əvvəla qeyd edək ki, dünyanın bütün inkişaf etməkdə olan ölkələri kənd təsərrüfatına qoyulan dövlət və birbaşa xarici investisiyaların qıtlığı ilə üzləşirlər [12,s.133-155]. Lakin kənd təsərrüfatı hər bir ölkədə strateji xarakter daşıdığından dövlət və xarici investisiyaların aqrar sahənin iqtisadi artımında, xüsusi ilə də bu artımın innovativ xarakter daşımasında rolu həlledicidir. Bu baxımdan hər iki mənbə kənd təsərrüfatının inkişafında mühüm makroiqtisadi amildirlər. Onlar kənd təsərrüfatında iqtisadi artımın etibarlı yanacaq mənbəyi kimi çıxış edərək, maliyyə və texnoloji resurslara çıxış imkanlarını asanlaşdırırlar [16, s.11-12]. Deməli aqrar sahənin daxilində yığımın minimal səviyyəsi səbəbindən dövlət xərcləri ilə xarici investisiyalar arasında düzgün seçimin və müvafiq nəzarətin təmin olunması kənd təsərrüfatının investisiyalara olan tələbinin maliyyələşdirilməsində əsaslandırıcı rol oynayır [18, s.57-58]. Elmi ədəbiyyatda birmənalı qəbul edilib ki, birbaşa xarici investisiyalar innovasiya “yatağıdır” və aqrar sahənin modernləşdirilməsində, kənd yerlərində geniş yayılmış işsizliyin minimallaşdırılmasında, gəlirlərin sabitləşdirilməsində və son nəticədə yoxsulluğun aradan qaldırılmasında əvəzolunmaz amillərdən biridir [17, s. 22-24]. Ancaq praktika göstərir ki, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində birbaşa xarici investisiyaların səviyyəsi müəyyən səbəblərdən çox aşağıdır. Bu səbəbdən də aqrar sahədə investisiya boşluğunun doldurulması və xarici investisiyaların stimullaşdırılması dövlət xərcləri hesabına reallaşdırıla bilər [11, s.15-17].


Xarici investisiyaların stimullaşdırılmasında yaranan zəruriyyət onunla əlaqədardir ki, qabaqcıl biliklərə və texnoloji üstünlüklərə əsaslanan inkişaf strategiyasının imkanları kənd təsərrüfatı məhsullarının istehsalında çox məhduddur. İnkişaf etməkdə olan ölkələrdə bu reallıq kənd təsərrüfatını geridə qalan sahəyə çevirir və o, nadir hallarda innovasiya siyasətinin mərkəzi nöqtəsi olur

[9, s.1929-1940;15, s.1330-1336]. Hesab edilir ki, iqtisadiyyatın digər sahələrindən fərqli olaraq, kənd təsərrüfatının öz-özlüyündə və ya təkbaşına ixtiralarla məşğul olmaq imkanı çox məhduddur. Onlar əsasən bilik və texnologiyaların digər sektorlardan transferinə üstünlük verirlər [10, s.42;13,s.25]. Belə vəziyyətin yaranmasının müxtəlif səbəbləri vardır: təsərrüfatların kiçik həcmi, gəlirlərin aşağı səviyyəsi, təhsil səviyyəsi, innovasiya mərkəzlərinə coğrafi məsafələrin uzaqlığı, risklərin yüksək dərəcəsi və s. Bununla yanaşı, kənd təsərrüfatını bütövlükdə əhatə edən rəsmi innovasiya mərkəzlərinin formal xarakter daşıması və müvafiq olaraq statistik innovasiya məlumatlarının olmaması bu sahədə aparılan təhlilə maneə törədir [14,s.35].

Kənd təsərrüfatında investisiyaların yayılması nöqteyi-nəzərindən baxdıqda birbaşa xarici investisiyalar bu prosesin “təməl daşını” yarada bilər.

Maliyyə bazarları investisiya mənbəyi kimi

İlk növbədə qeyd edək ki, inkişaf etmiş ölkələrdə ümumilikdə investisiya qoyuluşunun əsas mənbələrindən biri maliyyə bazarlarıdır. Maliyyə bazarlarının inkişaf səviyyəsi ölkənin inkişaf səviyyəsinin əsas barometridir. Bu baxımdan Azərbaycanda maliyyə bazarlarının inkişaf səviyyəsinin, əmanətlərin investisiyaya transformasiyasında rolunun araşdırılması eyni zamanda kənd təsərrüfatında investisiya prosesində maliyyə mənbəyi kimi iştirak etmək imkanlarını araşdırmağa şərait yaradır. Azərbaycanda maliyyə bazarlarında kredit resurslarının təklifi ilə əsasən dövlət və özəl banklar, o cümlədən xarici kapitallı banklar, bank olmayan kredit təşkilatları (BOKT) məşğul olur. Qrafik 2-də 2022-ci ildə bank və BOKT tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının sahələr üzrə strukturu təsvir edilmişdir. Qrafik 2-dən göründüyü kimi iqtisadiyyata qoyulan bank kreditlərinin tərkibində kənd təsərrüfatının payı cəmi 1% təşkil etmişdir. Maraqlı odur ki, sənaye və istehsal sektorunun payı cəmi 2%-ə bərabərdir. Diaqramdan göründüyü kimi banklar və BOKT-ların kredit resursları ilk növbədə ticarət və xidmət sektoru ilə yanaşı ev təsərrüfatlarına yönəldilmişdir və onların birlikdə payı 93% təşkil etmişdir.



Qrafik 2. 2022-ci ildə bank və BOKT tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının sahələr üzrə strukturu, %-lə

Mənbə: Qrafik AR Mərkəzi Bankı məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.


Kredit resurslarının belə bölgüsü onu göstərir ki, istehsal sahəsi, o cümlədən kənd təsərrüfatı banklar üçün elə də böyük maraq doğurmur. Səbəbi isə onunla izah olunur ki, kredit resursları o sahələrə yönəlir, harada ki, kredit risklərinin səviyyəsi çox aşağıdır. Belə qənaətə gələ bilərik ki, investisiya qoyuluşunda əgər kreditləşmənin strukturunda mövcud meyillilik davam edəcəksə, bu

sektor kənd təsərrüfatı üçün maliyyə mənbəyi rolunda çıxış etmək imkanına malik olmayacaqdır. Deməli, maliyyə bazarlarının tərkib hissəsi olan bank sektorunda dövlət tərəfindən aparılan tənzimlənmə mexanizmi elə qurulmalıdır ki, kredit resurslarının istiqamətində əhəmiyyətli dəyişikliyə nail olmaq mümkün olsun.

Qiymətli kağızların ilkin və təkrar bazarlarında isə öz səhmlərini və istiqrazlarını yerləşdirən dövlət və korporativ müəssisələr iştirak edirlər. 2022-ci ildə korporativ müəssisələr tərəfindən Azərbaycanın Bakı Fond Birjasında qiymətli kağızlar (səhm və istiqrazlar) üzrə bağlanılan müqavilələrin sayı 4400, ümumi məbləği isə 2189.7 mln. manat təşkil etmişdir. Amma dövlət qiymətli kağızlarının satışı üzrə müqavilələrin sayı (2506 müqavilə) isə təqribən 2 dəfə az olmasına baxmayaraq məbləği 4 dəfə çox, 8312,8 mln. manat olmaqla ümumi məbləğdə payı 79.2% təşkil etmişdir. Korporatov qiymətli kağızların ilkin və təkrar bazarlarında həyata keçirilən əməliyyatların məbləği bir-birinə bərabərdir (ilkin bazar - 1007,9 mln. manat, təkrar bazar- 1181,9 mln. manat). Dövlət qiymətli kağızları üzrə keçirilən əməliyyatlarda isə ilkin bazar mütləq üstünlük təşkil edərək 7304,0 mln. manata bərabər olmuş, təkrar bazarı isə 1008,8 mln. manat təşkil etmişdir [1]. Diqqətlə fikir versək görərik ki, qiymətli kağızlar bazarının əsas iştirakçısı hazırda dövlətdir. Dövlətin maliyyə bazarlarının tərkib hissəsi olan qiymətli kağızlar bazarında belə aktiv iştirakı iqtisadi nəzəriyyədə məlum olan sıxışdırma effekti yaradır. Sıxışdırma effektinin mahiyyəti ondan ibarətdir ki, dövlətin payı maliyyə bazarlarında artdıqca iqtisadiyyata, o cümlədən, əsas kapitala yönələn investisiyaların məbləği azalır. Azərbaycanda qiymətli kağızlar bazarında dövlətin mütləq üstünlüyü o deməkdir ki, onsuz da məhdud olan maliyyə vəsaitlərinin yığımı iqtisadiyyata, o cümlədən kənd təsərüffatına, investisiya qoyuluşlarına transformasiyası əvəzinə büdcə kəsirinin bağlanmasına yönəlir. Bu Azərbaycanda maliyyə bazarlarının öz klassik funksiyasını yerinə yetirməsinə maneə törədir.

Xarici investisiyalar maliyyə mənbəyi kimi

Kənd təsərrüfatında investisiya qoyuluşunun digər mənbələrndən biri də xarici investisiyalardır. Xarici investisiyaların ümumilikdə Azərbaycan iqtisadiyyatında rolu çox böyük əhəmiyyət kəsb edir. Amma xarici investisiyaların iqtisadiyyatın sahələri üzrə quruluşu qeyri-bərabərdir və qeyri- proporsional formada paylanmışdır [3, s. 748].



Qrafik 5: 2021-ci ildə iqtisadi fəaliyyət növləri üzrə əsas kapitala yönəldilmiş xarici vəsaitlərin strukturu, faizlə

Mənbə: AR DSK məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir

Əsas kapitala investisiya qoyuluşunun quruluşunu nəzərdən keçirdikdə, aydın görünür ki, sənaye sahəsi liderdir və xarici investisiyaların 75%-i bu sahəyə yönəlmişdir. Digər sahələrdə isə xarici investisiyaların payı 1%-25% aralığında dəyişir [3, s.748]. Maraqlı isə odur ki, kənd

təsərrüfatı bu diaqramda yer almamışdır. Bu onunla izah olunur ki Azərbaycanın kənd təsərrüfatı xarici investorlar üçün elə də cəlbedici deyil. Kənd təsərrüfatında xarici investisiya adətən müəyyən layihələr çərçivəsində reallaşdırılır. Bu layihələr çərçivəsində qoyulan investisiyaların əsas məqsədi logistik xidmətlərin dəstəklənməsidir. Məsələn, 2014-2019-cu illər ərzində USAİD (ABŞ-ın Beynəlxalq İnkişaf Agetnliyi) tərəfindən “Kənddən şəhərə” layihəsi çərçivəsində Lənkəran şəhərinin İstisu qəsəbəsində yerləşən “Citrus Valley” fermer təsərrüfatına 5.5 mln. manat vəsait investisiya qoyulmuşdur. Lakin bu investisiya əsas kapitala yönəldilməmişdir, məhsulun daxili və xarici bazarlarda reallaşmasını sürətləndirən vəsait kimi istifadəsi nəzərdə tutulmuşdur [19].

Şübhəsiz ki, Azərbaycan dövləti kənd təsərrüfatında xarici investisiya qoyuluşunu hər zaman dəstəkləyir və onun qarşısında yaranan maneələri aradan qaldırmağa maraqlıdır. Hesab edirik ki, Azərbaycan dövlətinin kənd təsərrüfatı məhsul istehsalçılarını dəstəkləmək məqsədi ilə apardığı aqrar siyasət eyni zamanda xarici investorlara da şamil olunur. Güzəştli vergi siyasəti, müxtəlif məqsədlər üçün verilən subsidiyalar, məhsulların sığortalanması, satınalınma qiymətlərinin tətbiqi və s. həyata keçirilən dövlət siyasətinin stimullaşdırıcı alətləri xarici şirkətlər üçün də keçərlidir. Eyni zamanda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən xarici investorlar cəlb etmək üçün xüsusi platformalar hazırlanmalıdır. Məsələn, Türkiyədə xarici investorlar dövlət proqramları çərçivəsində verilən güzəştlərə əsasən İstanbul, Trabzon, Çanaqqala, Bursa və Antalya regionlarında çox həvəslə fermaları hazır formada satın alırlar. Xarici investorlar içərisində İran körfəzi ətrafı ölkələri Türkiyənin kənd təsərrüfatına qoyulan investisiyaların həcminə görə aparıcı mövqelərdə dayanırlar. Xarici şirkətlərin belə cəlb olunmasında əsas səbəb satışa qoyulan fermer təsərrüfatlarının qiymətinin dövlət tərəfindən sabit saxlanılmasıdır [7].

Yuxarıda apardığımız təhlildən aydındır ki, Azərbaycanda maliyyə bazarları və xarici investorların kənd təsərrüfatında investisiya qoyuluşunda maliyyə mənbəyi kimi rolu demək olar ki, sıfıra bərabərdir. Həmçinin, Azərbaycan üçün xarakterik cəhət odur ki, kənd təsərrüfatı göstərilən hər iki mənbədən tamamilə məhrumdur. Təsərrüfatların kiçik həcmi və müvafiq olaraq miqyas effektinin olmaması fərdi yığımın aşağı səviyyəsinə gətirib çıxardaraq, investisiya mənbəyi kimi istifadə edilməsinə imkan yaratmır.


Kənd təsərrüfatında investisiya qoyuluşunda dövlət xərcləri: üstünlüklər və çatışmazlıqlar

Təəccüblü deyil ki, belə yaranmış vəziyyətdə Azərbaycanın aqrar sektorunda əsas investor rolunda dövlət çıxış edir. Bu səbəbdən də aqrar sahədə dövlət maliyyələşdirilməsi digər mənbələrlə müqayisədə mütləq üstünlük təşkil edir.

Ümumilikdə 2021-ci ildə kənd təsərrüfatı xərcləri ÜDM-in 1,0 faizini, dövlət büdcəsi xərclərinin isə 3,3 faizini təşkil etmişdir. Son 5 ildə (2017-2021-ci illər) kənd təsərrüfatı xərcləri 404,2 milyon manat və ya 1,8 dəfə artmışdır [2, s.16] .

Dövlət büdcəsindən kənd təsərrüfatına ayrılmış vəsaitlərin sahələr üzrə təsnifatı çox böyük maraq doğurur.

İqtisadi təsnifata uyğun olaraq bu xərclər bölməsindən əməyin ödənişinə 121,9 milyon manat, malların (işlərin və xidmətlərin) satın alınmasına 242,7 milyon manat, subsidiyalara və sosial ödənişlərə 484,1 milyon manat (2020-ci illə müqayisədə 79,0 milyon manat və ya 19,5 faiz çox), qeyri-maliyyə aktivlərinin alınmasına (ötürücü qurğuların, maşın və avadanlıqların alınması, qurğuların əsaslı təmiri və s.) 61,7 milyon manat məbləğində vəsait yönəldilmişdir. Qrafik 7-də 2021-ci ildə dövlət büdcəsinin icrasına dair tərtib olunmuş hesabata əsasən kənd təsərrüfatı bölmələri üzrə icra edilmiş xərclərin payı faiz ilə ifadədə verilmişdir. Qrafikdən göründüyü kimi ən böyük paya 53% ilə subsidiyalar və sosial ödənişlər malikdirlər. Büdcə xərclərinin içərisində investisiya xərcləri qeyri-maliyyə aktivlərinin (maşın və avadanlıqlar, ötürücü qurğular, eləcə də qurğuların əsaslı təmiri) alınmasıdır. Təəssüf ki, qeyri-maliyyə aktivlərinin alınmasına yönələn investisiya xərcləri cəmi 7% təşkil etmişdir. Bu isə o deməkdir ki, baxmayaraq ki büdcə xərclərinin tərkibində kənd təsərrüfatı xərcləri öz əksini tapsa da, investisiya mənbəyi kimi elə də böyük rola malik deyil.



Qrafik 7: 2021-ci ildə dövlət büdcəsindən kənd təsərrüfatında bölmələr üzrə xərclərin icrasının strukturu, faizlə

Mənbə: AR Maliyyə Nazirliyinin 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatı əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) dövlətin kənd təsərrüfatına dəstək tədbirlərinin təsnifləşdirilməsinə müvafiq olaraq tədbirlər “sarı səbət”,“yaşıl səbət” və “mavi səbət” qruplarına ayrılır. Tədbirlərin bu səbətlərə ayrılması meyarı dövlət dəstəyinin məhsulların istehsalını və ticarətin təhrif edib və ya etməməsidir.

“Sarı səbət”-ə məhsulun qiymətinə və maya dəyərinə birbaşa və dolayı formada təsir göstərən tədbirlər sistemi aiddir. “Sarı səbət”-ə dövlət dəstəyinin səmərəsi az olan və reallığı təhrif edən tədbirlər daxildir. Belə tədbirlər qrupuna kənd təsərrüfatının subsidiyalaşdırılması, qiymət dəstəyi, götürülən kreditin faiz dərəcəsini kompensasiya etmək üçün subsidiyalaşdırılması, elektrik enerjisinə, yanacaq və motor yağlarına görə verilən kompensasiyalar və s. aiddir.

“Yaşıl səbət”-ə kənd təsərrüfatı məhsul istehsalı və ticarətində mövcud olan reallığı təhrif etməyən tədbirlər sistemi aiddir və bu tədbirlər məhdudiyyətsiz olaraq istifadə oluna bilərlər. Bu səbətə daxil olan tədbirlər qrupuna sahənin institusional inkişafını dəstəkləyən tədbirlər, məsələn kənd təsərrüfatı infrastrukturunun tikintisi, elmi tədqiqatların aparılması, innovativ texnologiyaların tətbiqi, kənd təsərrüfatına zərərvericilər ilə mübarizə, fermerlərə dəymiş zərərə ödənişlər (sığortalanma) və s. aiddir.

“Mavi səbət”-ə isə bitkiçilikdə məhsulun ifrat dərəcədə artmasının qarşısını almaq üçün əkin sahələrinin məhdudlaşdırılmasına, heyvandarlıqda isə heyvan sayının məhdudlaşdırılmasına yönələn tədbirlər daxildir. Belə tədbirlər sisteminə məhsulun həcmini məhdudlaşdırmaq məqsədi ilə subsidiyalaşdırma, məhsul istehsalına kvotaların tətbiqi və s. aiddir. ABŞ-da siderat bitkilərin (torpağı azot və üzvi maddələrlə zənginləşdirən, torpaqqoruyucu funksiyaya malik olan) əkilməsi vasitəsi ilə buğda istehsalının azaldılmasının subsidiyalaşdırılması buna misal ola bilər [8].

Hərçənd, Azərbaycan ÜTT-nin üzvü deyil, amma onun qəbul etdiyi dövlət dəstəyi tədbirlər sisteminin təsnifləşdirilməsini ölkəmizin reallığına tətbiq edə bilərik. “Mavi səbət” Azərbaycanın kənd təsərrüfatı üçün aktual deyil, çünki aqrar siyasətin və onun tərkib hissəsi olan dövlət dəstəyinin məqsədi kənd təsərrüfatında ümumi məhsul istehsalının artırılması və özünütəminetmə səviyyəsinin yaradılmasıdır. Bu səbəbdən də Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının məhdudlaşdırılması siyasəti həyata keçirilmir. Ancaq kənd təsərrüfatının dövlət dəstəyi tədbirlərini “sarı və yaşıl səbət”lər üzrə təsnifləşdirsək çox maraqlı bir vəziyyət yaranır. Belə ki,

subsidiyalar və sosial ödənişlər, məhsul və xidmətlərin satın alınması və əməyin ödənişinə yönələn xərclər dövlət büdcəsindən kənd təsərrüfatına ayrılan xərclərin 93%-ni təşkil edir. Qeyri-maliyyə aktivlərinin yaradılmasına yönələn birbaşa investisiyalar isə cəmi 7%-ə bərabərdir. Aparılan təsnifləşdirmədən belə nəticə çıxara bilərik ki, dövlət büdcəsindən kənd təsərrüfatına dəstək məqsədi ilə tədbirlərin görülməsinə ayrılan vəsaitin 93%-ı “sarı səbət” tədbirlər qrupuna yönəlmişdir. “Sarı səbət” qrupuna aid olan tədbirlər isə ÜTT-nin təsnifləşdirilməsinə görə iqtisadi cəhətdən səmərəsi az olan tədbirləri əhatə edir. Kənd təsərrüfatında investisiya qoyuluşu vasitəsi ilə sahənin intensivləşdirilməsinə, yəni keyfiyyətcə dəyişməsinə nail olmaq üçün ilk növbədə “yaşıl səbət” qrupuna aid olan tədbirlər dövlətin apardığı aqrar siyasətdə ön plana çəkilməlidir.

Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsalı sahəsində aparılan vergi tətilləri siyasətini də “sarı səbət”-ə aid etmək olar. Çünki vergi istənilən iqtisadi subyekt üçün ilk növbədə onun istehsal xərclərinin tərkib hissəsidir. Vergi tətilləri siyasətinin məqsədi kənd təsərrüfatı istehsalçılarının xərclərini azaltmaqla gəlirlərini artırmaq və son nəticədə onu investisiyaya yönəltməkdir. Lakin reallıq ondan ibarətdir ki, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın kənd təsərrüfatında istehsal olunan məhsulun 90%-i kiçik təsərrüfatlarda istehsal olunur. Kiçik təsərrüfatların ən böyük problemi müsbət miqyas effektinə nail olmağın mümkünsüzlüyüdür. Miqyas effekti əsasən təsərrüfatın həcmindən asılı olaraq yaranır. Müsbət miqyas effekti təsərrüfatın həcmi böyüdükcə orta istehsal xərclərinin azalması nəticəsində yaranır. Belə prosesə isə kiçik təsərrüfatlar çərçivəsində nail olmaq qeyri-mümkündür. Nəticədə vergi güzəştləri investisiya mənbəyinə çevrilmək əvəzinə əmanət formasında “təhlükəsizlik yastığı” kimi istifadə olunaraq qara gün üçün bəslənilir. Qısa desək, vergi güzəştləri reallığı təhrif edərək, investisiya mənbəyi əvəzinə özünüsığortalama mexanizminə çevrilib. Digər tərəfdən isə vergi güzəştlərinin mənfi tərəfi ondan ibarətdir ki, təsərrüfatlar vergi ödəmədiklərinə görə fəaliyyətləri barədə rəsmi dövlət orqanlarına heç bir hesabat təqdim etmirlər. Kiçik fermer təsərrüfatları üçün isə vergi hesabatlarının olmaması onların maliyyə savadsızlığı ilə nəticələnir və bu səbəbdən də bir çox hallarda aqrar sahədə aparılan dövlət siyasətinin mahiyyətini anlamaqda çətinlik çəkirlər. Vergi tətillərinin yaratdığı başqa bir problem isə kiçik təsərrüfatlar haqqında real statistik materialların olmamasından irəli gəlir və bu da yaranan real vəziyyəti elmi cəhətdən təhlil etməkdə çətinliklər yaradır. Hesab edirik ki, “vergi tətilləri” siyasəti “sarı səbət”in tədbirlər qrupuna aid olduğu üçün onun iqtisadi səmərəliliyi elə də böyük deyil. Klassik nəzəriyyənin əsas müddəalarından biri odur ki, vergi təkcə büdcə gəlirlərini təmin edən alət deyil, eyni zamanda iqtisadiyyatı tənzimləyən mexanizmdir. Bu nöqteyi-nəzərdən “vergi tətilləri” nəinki büdcə gəlirlərini təmin etmək funksiyasını yerinə yetirmir, həm də iqtisadiyyatı tənzimləyən mexanizm kimi öz mahiyyətini itirir. Fikrimizcə, kənd təsərrüfatında aparılan vergi siyasətini “sarı səbət”-dən “yaşıl səbət”-ə keçirmək lazımdır. Bunun üçün “vergi tətilləri” siyasətini “vergi güzəştləri” siyasəti ilə əvəz etmək lazımdır. Təklif etdiyimiz vergi güzəştləri siyasətinin əsas məqsədi kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlər ilə bağlı davranışını dəyişməkdir. Bunun üçün ilk növbədə ölkədə tətbiq olunan bütün vergilər kənd təsərrüfatı istehsalçılarına da şamil olunmalıdır. Lakin təsərrüfat subyektlərinin istehlak tələbatlarını ödəmək üçün mənfəətin əvvəlcədən təyin olunmuş müəyyən miqdarı vergidən azad olunur. Təyin olunmuş azadolma məbləğindən yerdə qalan mənfəətin bir hissəsi və ya hamısı investisiya qoyuluşuna sərf olunursa, həmin hissə də vergidən tamamilə azad olunur. Bu siyasətin uğurlu olması üçün güzəştli vergi siyasəti gömrük vergiləri ilə əlaqələndirilməlidir. Çünki, əvvəldə qeyd edildiyi kimi, kənd təsərrüfatı innovasiyaları yaradan yox, qəbul edən sahədir. Müasir innovativ texnologiyalar əsasən inkişaf etmiş ölkələrdə yaradıldığı və istehsal olunduğuna görə onların Azərbaycanın kənd təsərrüfatında tətbiqi idxalın hesabına baş verir. Əlbəttə, bu, nəzəri cəhətdən irəli sürülən fikirdir. Onun konkret formada praktiki tətbiqi müəyyən tədqiqatlar tələb edir. Kənd təsərrüfatında aparılan belə vergi siyasəti eyni zamanda təsərrüfatları hesabatlar hazırlamağa və rəsmi orqanlara təqdim etməyə məcbur edəcək. Bu onların maliyyə savadlılığını artırmaqla bərabər, eyni zamanda kənd təsərrüfatında yaranmış real vəziyyəti elmi cəhətdən təhlil etmək üçün zəruri olan statistik baza yaradacaqdır. Fikrimizcə, belə vergi siyasəti kənd təsərrüfatında investisiyanın stimullaşdırılmasında

çox böyük əhəmiyyət kəsb edə bilər, çünki belə vergi siyasətində vergini ancaq "tənbəllər" ödəyəcək.

Nəticə

İnnovasiya yönümlü investisiya qoyuluşunun mənbələrinin və genişləndirilməsi istiqamətlərinin təhlilindən ümumiləşdirilmiş formada aşağıdaki nəticələrə gələ bilərik:

- Hazırda maliyyə bazarları Azərbaycanda çox zəif inkişaf etmişdir və bunun nəticəsi olaraq kənd təsərrüfatında investisiya mənbəyi kimi istifadə olunma imkanları çox məhduddur. Lakin dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, maliyyə bazarları kənd təsərrüfatında investisiya qoyuluşunun mühüm mənbələrindən biridir. Maliyyə bazarlarının inkişafı eyni zamanda investisiya mənbələrinin şaxələndirilməsi deməkdir;
- Xarici investisiya maliyyə mənbəyi kimi, demək olar ki, Azərbaycanın kənd təsərrüfatında heç bir rolu yoxdur. Bu hal ilk növbədə sahənin yüksək riskli və gəlirlərinin aşağı səviyyəsi ilə izah olunur. Qeyd edək ki, belə vəziyyət təkcə Azərbaycan üçün xarakterik deyil, demək olar ki, inkişaf etməkdə olan bütün ölkələr üçün səciyyəvi hal daşıyır. Bu istiqamətdə əhəmiyyətli dəyişikliklərə nail olmaq üçün xarici investorlar üçün elə bir münbit investisiya şəraiti yaradılmalıdır ki, onlara olunan təkliflərdən imtina edə bilməsinlər;
- Dövlət büdcəsi vasitəsi ilə həyata keçirilən xərclərin tərkibində birbaşa investisiyaların payı çox azdır. Dövlət xərclərinin böyük hissəsinin "sarı səbət" tədbirlər qrupuna ayrılması səbəbindən, bu xərclər ilk növbədə məhsulun qiymətinin və istehsal xərclərinin dəstəklənməsinə yönəlir və müvafiq olaraq fermerlərin gəlirlərinin tənzimlənməsi məqsədi güdür. İqtisadi nöqteyi-nəzərdən belə xərclərin iqtisadi səmərəliliyi minimaldır;
- İnvestisiya qoyuluşunun maliyyə mənbələrinin genişləndirilməsi üçün "vergi tətilləri" siyasətindən "güzəştli vergi" siyasətinə keçilməsi zəruridir.

Fikrimizcə, tədqiqatdan əldə olunan nəticələrin həyata keçirilməsi ölkənin kənd təsərrüfatında innovasiya prosesinin dinamikasına və investisiya qoyuluşlarının mənbələrinin genişləndirilməsinə müsbət təsir göstərə bilər.

ƏDƏBİYYAT

1. 2022-ci il üzrə qiymətli kağızlar bazarının əsas göstəriciləri. AR Mərkəzi Bankı. Kapital Bazarı statistik hesabatları.2023. https://www.cbar.az/page-190/capital-market
2. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat.2022
3. Azərbaycanın Statistik Göstəriciləri. 2022. Statistik məcmuə / tər. ed. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, −Bakı: Rəsmi nəşr, −2022. −748 s.
4. Azərbaycanın Kənd Təsərrüfatı. 2022. Statistik məcmuə / tər. ed. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, −Bakı: Rəsmi nəşr, −2022. −774 s.
5. Statistik Bülleten.2022. Statistika departamenti. / tər. ed. Azərbaycan Respublikası Mərkəzi Bankı, −Bakı, −2022. −93 s.
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/agriculture/
7. Цена на фермы в Турции в 2022 году. Информация об инвестициях в сельское хозяйство Турции/ imtilak. net/13.01.2022/ https://www.imtilak.net/ru/amp/turkey/articles/prices-farms-turkey-opportunities-agricultural-investment-tourism
8. Agriculture Orientation Index for Government Expenditures. URL: https://sdg.tracking-progress.org/indicator/2-a-1-agriculture-orientation-indexfor-government-expenditures-2/ 09.03.2021
9. Andrade, C. M. et al. (2020) Increased circulation time of Plasmodium falciparum underlies persistent asymptomatic infection in the dry season. Nature Medicine, 26, pp. 1929-1940. (doi: 10.1038/s41591-020-1084-0)

10. Clancy, M.S. et.al. (2019). The Roots of Agricultural Innovation: Evidence from Patents. University of Chicago Press (2019).
11. De Abreu, E. (2017), Examining the Influence of Foreign Direct Investment on Economic Growth in South Africa. Doctoral Dissertation. University of Pretoria. Available from: https://repository.up.ac.za/ handle/2263/59811 [Last accessed on 2017 July 10])
12. Fani, D.C.R., Chioma, A.G., Henrietta, U.U., Ngo, N.V., Odularu, G.,Emmanuel, O.N. (2020), Maximizing agricultural growth policy space through public expenditures and foreign direct investment in Cameroon (1985-2016). In: Nutrition, Sustainable Agriculture and Climate Change in Africa: Issues and Innovative Strategies. Berlin: Springer Nature. P.133-155
13. Garcia-Alvarez-Coque, J.-M. et.al. (2012). Territory and innovation behaviour in agri-food firms: Does rurality matter? Journal of “New Medit” 12(3). P.25
14. Gamito, T.M., Madureira, L. Shedding light on rural innovation: Introducing and applying a comprehensive indicator system (2019). Regional Science Policy & Practice. https://doi.org/10.1111/rsp3.12167
15. Knudson, W. Entrepreneurship and innovation in the Agri-Food System. American Journal Agricultural Economics. 86 (Number 5, 2004): 1330-1336. URL: https://www.jstor.org/stable/3697949
16. Lowder, S., Carisma, B., Skoet, J. (2012), Who Invests in Agriculture and How Much. Rome: FAO
17. Masamba, K. (2017), An Analysis of the Impact of Foreign Direct Investment on the Banking Sector in South Africa. Doctoral Dissertation. University of Cape Town
18. Mbiakop W.D. et al., (2023), The Impact of Public Agricultural Spending on Foreign Direct Investment Inflows in Agriculture in South Africa: An ARDL Analysis,76
19. “USAID invested $5.5 M in Azerbaijani agriculture”16.12.2019 URL: https://en.azvision.az/news/116920/news.html

Махаррам Джалал оглы Гусейнов
доктор экономических наук, профессор, Азербайджанский Государственный Аграрный Университет
m.huseynov@adau.edu.az

Эльчин Ариф оглы Салахов
д.ф.э.н., доц. Азербайджанский Государственный Аграрный Университет
elchin.salahov@adau.edu.az

Нияз Низами оглы Мамедов
д.ф.э.н., доц. (и.а.о.), Азербайджанский Государственный Аграрный Университет
niaz.mammadov.30161@adau.edu.az

Гульчин Мардан кызы Тахирова
Acc., Азербайджанский Государственный Аграрный Университет
gulchin.tahirova@adau.edu.az

Роль финансовых источников инвестиций в сельское хозяйство и направления их расширения

Цель исследования- исследование текущего состояния источников финансирования инвестиционных вложений в аграрный сектор, определение направлений их расширения и проблем, возникающих в этом направлении.

Методология – факты, собранные авторами из разных источников, были сгруппированы по их однородным характеристикам, и был проведен конкретный анализ этих данных с использованием разных методов.

Значимость исследования- достаточные источники инвестиций могут сыграть ключевую роль в обеспечении экономической и продовольственной безопасности в аграрном секторе, конкурентоспособности производства и увеличении доходов сельхозпроизводителей.

Результаты исследования - Результаты, полученные в результате исследования, могут оказать положительное влияние на динамику инновационного процесса в сельском хозяйстве страны и расширение источников инвестиционных вложений.

Оргинальность и научная новизна исследования - В этом исследовании были проанализированы источники инвестициционных вложений в сельское хозяйство в их взаимосвязи, и были выдвинуты конкретные предложения путем исследования существующих проблем. Научная инновация – это изучение иностранных инвестиций как играющего ведущую роль в освоении новых технологий, направляющего государственные расходы на инвестиции, и вовлекающего в этот процесс финансовые рынки, помимо его роли как источника финансов.

Ключевые слова: иностранные инвестиции, государственные расходы, финансовые рынки, инновация, финансовые источники

Maharram Jalal Huseynov
Doctor of Economic Sciences, Professor,
Azerbaijani State Agrarian University
m.huseynov@adau.edu.az

Elchin Arif Salakhov
Doctor of Philology, Associate Professor
Azerbaijani State Agrarian University
elchin.salahov@adau.edu.az

Niyaz Nizami Mamedov
Doctor of Philology, Associate Professor (acting a.o.),
Azerbaijan State Agrarian University
niaz.mammadov.30161@adau.edu.az

Gulchin Mardan Takhirova
Ass., Azerbaijan State
Agrarian University
gulchin.tahirova@adau.edu.az

The role and expansıon dırectıons of fınancıal sources for ınvestments ın agrıculture

Summary

Research Objective - The aim of the research is to investigate the current status of financial sources for investments in the agricultural sector, identify directions for their expansion, and determine the problems arising in this direction.

Methodology - Facts collected by various authors from different sources were grouped according to homogeneous characteristics, and these data were analyzed through various methods.

Significance of the Research - Adequate investment sources can play a key role in ensuring economic and food security, facilitating competitive production, and increasing the income of agricultural producers.

Research Results - The results obtained from the research can have a positive impact on the dynamics of the innovation process in the country's agricultural sector and the expansion of investment sources.

Originality and Scientific Innovation of the Research - In this research, the sources of investment in agriculture were analyzed in mutual relation, and specific solutions were proposed by investigating existing problems. Scientific innovation includes the study of the leading role of foreign investments as a financial source, their contribution to the adoption of new technologies, the direction of budget expenditures towards investment, and the attraction of financial markets to this process.

Key words: foreign investment, government expenditures, financial markets, innovation, financial sources.

UOT: 338.43

Elnurə Bünyat qızı MƏMMƏDOVA
iqtisad elmləri doktoru
Azərbaycan Kooperasiya Universiteti
E-mail: mammadova-e@list.ru
ORCID: https://orcid.org/0000-0003-2721-5733
10.30546/4.71.73001.2024.03

KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ KEYFİYYƏTİNƏ VƏ ƏTRAF MÜHİTİN SAĞLAMLAŞDIRILMASINA İNVESTİSİYALAR VƏ ONLARIN NƏTİCƏLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - Kənd təsərrüfatı məhsullarının istehsalında ekoloji cəhətdən təmiz növlərdən istifadə edilməsi üzrə aqrar siyasət prioritetlərini daxil etmək, maliyyə və təbii ehtiyatlardan səmərəli istifadə etməklə ətraf mühiti səmərəli şəkildə qorumaq və sağlamlaşdırmaq,kənd təsərrüfatı məhsullarının və qida məhsullarının keyfiyyətinin etiketlənməsi kimi aktual problemlər aqrar siyasət qarşısında əsas vəzifə kimi müəyyən edilmişdir. Tədqiqatın məqsədi Azərbaycanda kənd təsərrüfatı məhsullarının keyfıyyətinə və ətraf mühitin sağlamlaşdırılmasına investisiyaların əsaslandırılması və onların nəticələrinin qiymətləndirilməsidir.

Tədqiqatın metodologiyası - Tədqiqatda analiz, sintaktik təhlil, anket sorğusu, ümumiləşdirmə və s. metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Azərbaycanda kənd təsərrüfatı məhsullarının keyfıyyətınə və ətraf mühitin sağlamlaşdırılmasına investisiyaların əsaslandırılması və onların nəticələrinin qiymətləndirilməsi son nəticədə ölkədə fermerlərin qarşısında təhlükəsiz kənd təsərrüfatı məhsullarının istehsalı vasitəsilə ətraf mühitin, istehlakçıların sağlamlığının və qidalanmasının qorunması vəzifəsinin yerinə yetirilməsinə imkan verər.

Tədqiqatın nəticələri - ölkədə kənd təsərrüfatı məhsullarının keyfıyyətınə və ətraf mühitin sağlamlaşdırılmasına investisiya qoyuluşlarının iqtisadi cəhətdən əsaslandırılması və nəticə qiymətləndirilməsi üzrə fəaliyyətlər vasitəsilə əkinçiliyin faydaları haqqında məlumatlılığı artırmağa və bu sahədə fermerlər arasında konkret proqramları və əməkdaşlığı təşviq etməyə çalışacaqlar. Bu təcrübənin ölkəmizdə tətbiqi kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açacaqdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Tədqiqatda Azərbaycanın baxış bucağından "ətraf mühitin sağlamlaşdırılması" paradiqması təhlil edilir, kənd təsərrüfatı məhsullarının keyfıyyətinə və ətraf mühitin sağlamlaşdırılmasına investisiya qoyuluşlarına olan tələblərin nə dərəcədə ödənildiyi aşkara çıxarılır və imkanlar araşdırılır,problemlərin həlli ilə bağlı əsaslandırılmış təkliflər irəli sürülür.

Açar sözlər: Azərbaycan, aqrar siyasət, ətraf mühitin sağlamlaşdırılması, məhsulların keyfiyyəti, investisiya qoyuluşları.

Giriş

Ümumiyyətlə belə hesab olunur ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan kənd təsərrüfatının inkişafının yeni dövrünə qədəm qoymuşdur. Hazırda ölkənin ümumi kənd təsərrüfatı siyasətinin əsas istiqaməti aşağıdakı aspektlərə diqqət yetirməklə reallaşdırılan islahatlardan ibarətdir:

1) Kənd təsərrüfatı məhsullarının istehsalında ekoloji cəhətdən təmiz növlərin daxil edilməsi üzrə aqrar siyasət prioritetlərini daxil etmək;

2) Maliyyə və təbii ehtiyatlardan səmərəli istifadə etməklə ətraf mühiti səmərəli şəkildə qorumaq və sağlamlaşdırmaq;

3) Kənd təsərrüfatı məhsullarının və qida məhsullarının keyfiyyətinin etiketlənməsi. Bundan əlavə, ölkəmizdə fermerlərin qarşısında təhlükəsiz kənd təsərrüfatı məhsullarının istehsalı vasitəsilə ətraf mühitin və istehlakçıların sağlamlığının və qidalanmasının qorunması vəzifəsi durur.

Ekoloji əkinçilik modellərinin inkişafının ümumi kontekstində, üzvi əkinçilik sosial məsuliyyətli və iqtisadi istehsal üsullarını təşviq etdiyi üçün davamlı kənd təsərrüfatı formasını təmsil edir.Üzvi əkinçilik bitkilərin, heyvanların və landşaftların təbii səmərəliliyinə diqqət göstərir.Buna görə də, Avropa Birliyi ölkələrində kənd təsərrüfatı və məşğulluq üçün “kənd təsərrüfatı məhsullarının keyfiyyəti” və “ətraf mühitin mühafizəsi”nin birləşməsinin vacibliyini nəzərə alaraq, bu sahəyə töhfə verməyə qərar verdi [3, s.4]. Bu problem Avropa Birliyi ölkələri ilə bərabər respublikamız üçün də aktualdır.

Tədqiqat qabaqcıl, keyfiyyətli, sertifikatlaşdırılmış və daha sağlam kənd təsərrüfatı məhsulları istehsal etmək üçün ekoloji təhsil və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarının istehsal təcrübələri üçün mövcud müddəaları müəyyən etməlidir. Daha sonra o, fermerdən istehlakçıya təchizat zəncirinin bütün iştirakçıları üçün ekoloji problemlər üzrə yeni bacarıqları müəyyən etmək məqsədi daşıyır.Bu çərçivədə kənd təsərrüfatında istehsal sahələrinin və emalın ətraf mühitə, xüsusilə də təbii sərvətlərə ziyan vurmasının qarşısını almaq üçün müəyyən investisiya tədbirləri həyata keçirilir.

Bundan əlavə, ətraf mühitin mühafizəsi və kəndlərin saxlanması tələblərinə cavab verən kənd təsərrüfatı istehsalı üsullarının tətbiqinə xüsusi diqqət yetirilir. Artıq respublikada ekoloji əkinçilik və zərərvericilərə və xəstəliklərə qarşı kompleks mübarizə tədbirləri həyata keçirilir.Lakin yeni ekoloji sağlamlıq siyasətlərinin uğurla həyata keçirilməsi üçün insan elementi nəzərə alınmazsa, tədbirlər, təlimatlar və qaydalar kimi yanaşma da kifayət olmaya bilər.

Çünki kənd təsərrüfatının davamlılığını həyat keyfiyyətinin vacib hissəsinə çevirən fermerlərin özləri və onların dəyərləridir. Ətraf mühitin sağlamlaşdırılması üzrə təhsil yeni perspektivlərin və dəyərlərin formalaşmasında ən mühüm prosesdir. Bundan əlavə, təbliğat və təlimlər kənd əhalisi, xüsusən də gələcək fermerlər arasında ekoloji şüurun inkişafına və formalaşmasına kömək edir.

Kənd təsərrüfatı məhsullarının keyfiyyəti və ətraf mühitin sağlamlaşdırılması məsələləri

Ətraf mühitin sağlamlaşdırılması üzrə ekoloji maarifləndirmə yalnız əlavə elm sahəsi deyildir. Bu, fərd inkişaf etdikcə və təkmilləşdikcə ekoloji şüurun inkişaf etdirilməsi məqsədi daşıyan yeni təhsil və öyrənmə fəlsəfəsidir. Ətraf mühitin sağlamlaşdırılması üzrə tipik təhsil proseslərinə yeni strategiyaların daxil edilməsini tələb edən ekoloji təhsilin xüsusiyyətləri təbii, sosial mühitdə ekoloji terminologiya və məzmunun yayılması ilə məhdudlaşmamalıdır.Aydındır ki, yuxarıda qeyd olunanların kənd əhalisi arasında biliklərin yayılması və ömürboyu öyrənmə ilə bağlı tədris metodları, məktəb və müəssisələrin təşkili, eləcə də bütün müvafiq qruplar və ya qurumlar üçün təhsil və təlimə investisiyalar üçün təsirləri vardır. Kənd sakinləri, xüsusilə fermerlər gündəlik fəaliyyətləri ilə landşaftı formalaşdırır və ətraf mühitin qorunmasında mühüm rol oynayırlar.Bundan əlavə, istehlakçılar aqrokimyəvi qalıqları olan məhsulların istehlakı ilə bağlı potensial sağlamlıq risklərindən daha çox xəbərdar olurlar. Buna görə də, onların ekoloji bilikləri, münasibətləri və davranışları daha davamlı təcrübə və istiqamətlərə doğru irəliləmək cəhdlərinə böyük təsir göstərə bilər.

Kənd təsərrüfatı sektorunun yeni çağırışları, təkamül, innovasiya və beynəlxalq səviyyədə yeni texnologiyalar nəzərə alınmaqla, kənd təsərrüfatı ticarətinin balansı ekoloji məhsulların becərilməsi və istehsalıdır. Ekoloji sertifikatlı məhsullar beynəlxalq bazarda Azərbaycan Respublikasının kənd təsərrüfatının rəqabət qabiliyyətini artıra bilər.Bundan əlavə, üzvi əkinlər üçün torpaqların münbitliyinin artırılması və əkin sahələrinin daha da genişləndirilməsi kənd yerlərinin kompleks inkişafını və ətraf mühitin sağlamlaşdırılmasını reallaşdıra bilər. Eyni zamanda, artıq istehlakçıların kənd təsərrüfatında kimyəvi maddələri olmayan sağlam məhsullara üstünlük verməsi fermerləri orqanik məhsullar istehsal etməyə məcbur edib.Tədqiqatda da əsas məqsəd ölkədə mövcud ekoloji nəzarət strukturlarını və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı təcrübələrini araşdırmaqla ətraf mühitin sağlamlaşdırılması yollarının müəyyən edilməsidir.

Daha sonra o, zərərli aqrokimyəvi maddələrdən istifadə etmədən (yəni, ekoloji əkinçilik vasitəsilə) alternativ kənd təsərrüfatı məhsullarının istehsalında ekoloji problemlərlə bağlı yeni bilik, bacarıq və istehsal texnologiyalarını əldə etməyin ən mütərəqqi yollarını müəyyən etmək məqsədi daşıyır.

Azərbaycan xalqı min illərdir ki, bu torpağı becərsə də, artıq 20-ci əsrə qədər istifadə olunan üsullar dəyişməlidir, çünki torpaqlar az məhsuldar olaraq qalır. İkinci Dünya müharibəsinin sonundan sonra bir çox ölkələrin kənd təsərrüfatında kimyəvi maddələrin (insektisid və insektisidlərin) geniş yayılması bitki və heyvan növlərinin təkmilləşdirilməsi, müasir texnologiya və süni suvarma sistemlərinin yaranması ilə nəticələndi. Bu dövrdə artıq kənd təsərrüfatına qoyulan investisiyalar ilbəil artmışdır.

Beləliklə, kənd təsərrüfatı məhsullarının əhəmiyyətli dərəcədə artması ilə yanaşı, mədəni bitkilərin və becərilən heyvanların məhsuldarlığı da artmışdır. Bu fenomen "yaşıl inqilab" adlanır. Bununla belə, hesablanır ki, məhsuldarlığı ikiqat artırmaq üçün tələb olunan kənd təsərrüfatı kimyəvi maddələrinin miqdarını çıxarmaq lazımdır. Respublikada xüsusi əkinçilik texnikası ənənəvidir və bu əkinçilik forması ənənəvi əkinçilik adlanır. Ənənəvi kənd təsərrüfatından fərqli olaraq, hazırda ətraf mühitin sağlamlaşdırılması üçün əsas məsələlərdən biri də ölkəmizdə canlı kənd təsərrüfatının qurulması hesab olunur.Onun inkişafına kömək etmək üçün kənd təsərrüfatının digər formaları böyümə prosesində kənd təsərrüfatı kimyəvi maddələrinin istifadəsini azaltmağı hədəfləyir,istehsal prosesində də bu nəzərə alınmalıdır.

Müstəqilliyimiz bərpa edilməmişdən əvvəl Azərbaycan Respublikasının kənd təsərrüfatında ərzaq və lif məhsuldarlığı, yeni texnologiyalara, mexanikləşdirməyə, kimyəvi maddələrdən istifadəyə investisiyaların artması, ixtisaslaşmaya və istehsalın artırılmasına üstünlük verən dövlət siyasəti sayəsində məhsullar istehsalı artmışdır. Bu dəyişikliklər daha az istehsalçıya və ən çox qida istehsal etmək üçün daha az əmək tələb olunmasına imkan verdi.Bu dəyişikliklər əkinçilikdə çoxlu müsbət təsirlər göstərmiş və bir çox riskləri azaltsa da, həm də əhəmiyyətli investisiya xərcləri ilə üzləşmişdir. Bunlardan ən diqqətəlayiq olanları torpağın üst qatının məhsuldarlığının azalması və münbitliyinin tükənməsi, qrunt sularının çirklənməsi və torpaq səviyyəsinə qədər qalxması, ailə təsərrüfatlarının tənəzzülü, kənd təsərrüfatı işçilərinin həyat və iş şəraitinə davamlı etinasızlıq, istehsal xərclərinin artması və kəndin iqtisadi və sosial vəziyyətinin pisləşməsidir.

Son zamanlar bu sosial problemlərə töhfə verən təcrübələrin təşviqində aqrobiznesin rolunu şübhə altına alan hərəkat artmaqdadır. Bu gün bu permakultura hərəkatı əsas kənd təsərrüfatında artan dəstək qazanır. Ölkəmizdə permakultura bir çox ekoloji və sosial problemləri həll edir. Eyni zamanda, o, istehsalçıları, işçiləri, istehlakçıları, siyasətçiləri cəlb edir və bir çox başqaları üçün innovativ və iqtisadi cəhətdən əlverişli imkanlar təqdim edir. Kənd təsərrüfatının davamlı inkişafı prinsipi ondan ibarətdir ki, biz gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarına xələl gətirmədən indiki dövrün ehtiyaclarını ödəməliyik. Buna görə də təbii və insan resurslarının idarə edilməsi çox vacibdir. İnsan resurslarının idarə edilməsi işçilərin iş və yaşayış şəraiti, kənd icmalarının ehtiyacları, indi və gələcəkdə istehlakçıların sağlamlığı və təhlükəsizliyi kimi sosial məsuliyyətlərin nəzərə alınmasını əhatə edir. Sistemli investisiya yanaşması kənd təsərrüfatının davamlılığını başa düşmək üçün çox vacibdir. Sistem ailə təsərrüfatlardan tutmuş yerli və qlobal kənd təsərrüfatı sistemlərinin təsirinə məruz qalan yerli ekosistemlərə və icmalara qədər geniş şəkildə başa düşülür. Sistemə diqqət kənd təsərrüfatı təcrübələrinin insana və ətraf mühitə təsirlərinə daha geniş, hərtərəfli baxmağa imkan verir. Sistem yanaşmaları bizə kənd təsərrüfatı və ətraf mühitin digər aspektləri arasında qarşılıqlı əlaqəni öyrənmək üçün alətlər təqdim edir. Sistemli yanaşma kənd təsərrüfatının planlaşdırılmasını da əhatə edir. Bunun üçün təkcə müxtəlif araşdırmalar deyil, həm də fermerlər, kənd təsərrüfatı işçiləri, istehlakçılar, siyasətçilər və s. onların təcrübələrinin nəticələri verilməlidir.

Respublikamızın permakulturaya keçidi bir prosesdir. Fermerlər üçün permakulturaya keçid çox vaxt bir sıra kiçik, lakin real addımlar tələb edir. Ailənin keçmişi və şəxsi məqsədləri iştirakçıların keçidlərinin sürətinə və həcminə təsir göstərir. Hər bir kiçik qərarın təsir göstərə biləcəyini və bütün sistemin permakultura kontinuumu boyunca irəliləməsinə kömək edə biləcəyini dərk etmək vacibdir. Ölkəmizin kənd təsərrüfatında iqtisadi inkişafın təmin olunmasında və dayanıqlı inkişafda irəli getməyin açarı növbəti addımı atmağa hazır olmaqdır. Nəhayət, qeyd etmək vacibdir ki, ətraf mühiti qoruyarkən və sağlamlaşdırarkən permakulturanın məqsədlərinə nail olmaq

fermerlər, işçilər, siyasətçilər, tədqiqatçılar, pərakəndə satıcılar və istehlakçılar da daxil olmaqla sistemin bütün iştirakçılarının məsuliyyətidir. Hər bir qrupun öz rolu var və permakultura cəmiyyətinin gücləndirilməsinə unikal töhfə verir. Üzvi əkinçilik permakulturanın ümumi çərçivəsindəki bir formasıdır. Onun əsas yanaşması qarışıq təsərrüfatları mümkün qədər qapalı sistem daxilində idarə etməkdir. Sahə şəraiti tərifinə görə fərdi xüsusiyyətlər olduğundan, təsərrüfat ayrıca vahid hesab edilə bilər.Üzvi əkinçiliyin əsas prinsipi kimyəvi cəhətdən intensiv deyil, biointensiv olmasıdır. Bu, ekoloji, sosial və iqtisadi cəhətdən faydalı olan qida və lif istehsalına kömək edir. Məqsəd bitkilərin, heyvanların və landşaftların təbii imkanlarına hörmət edərək kənd təsərrüfatının və ətraf mühitin bütün aspektlərinin keyfiyyətini optimallaşdırmaqdır. Ekoloji əkinçilik kimyəvi bitki mühafizə vasitələrinin istifadəsini aradan qaldıraraq xarici xərcləri əhəmiyyətli dərəcədə azaldır. Bunun əvəzinə təbiətə məhsuldarlığı və xəstəliklərə qarşı müqaviməti artırmağa imkan verir. Ekoloji kənd təsərrüfatı yerli sosial-iqtisadi, geo-iqlim və mədəni şəraitdə həyata keçirilən ümumi qəbul edilmiş prinsiplərə əməl edir [2, s. 5].

Ekoloji əkinçiliyin əsas üstünlükləri ümumiyyətlə aşağıdakıları əhatə edir:

a) Belə məhsulların bazar qiyməti daha yüksəkdir;

b) onun istehsal üsulları torpaqdan istifadənin daha az intensivləşdirilməsini nəzərdə tutur;

c) Kənd təsərrüfatı məhsullarının tələb və təklifi arasında daha yaxşı tarazlığa nail olmaq;

d) Ətraf mühitin daha yaxşı qorunması.

Digər fayda ondan ibarətdir ki, üzvi təsərrüfatlar adi təsərrüfatlardan daha çox əmək tutumludur və buna görə də kəndlərdə məşğulluğu təşviq etməli və əks halda intensiv və qlobal rəqabətin öhdəsindən gələ bilməyəcəyik. Bunun üçün kiçik təsərrüfatlar dəstəklənməlidir.

Ekoloji əkinçiliyin başqa bir aspekti üzvi əkinçilikdən fərqli bir başlanğıc nöqtəsi olan biodinamik əkinçilikdir. Əksinə, biodinamik əkinçilik də ətraf mühitə böyük diqqət yetirir.

1) BMT-nin FAO təşkilatı (Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı), IFOAM, Beynəlxalq Üzvi Kənd Təsərrüfatı və Heyvan Rifahı Hərəkatları Federasiyası kimi beynəlxalq təşkilatlar ümumi dünya qlobal ərzaq qıtlığının yaranmaması üçün aktiv fəaliyyət göstərirlər. Antroposofik Hərəkatdan ilhamlanan xüsusi bir perspektiv də vardır. Bu təsərrüfat növü üçün “holizm” anlayışı vacibdir. Təsərrüfatlara və təsərrüfat hissələrinə digər sistemlərlə və bütövlükdə torpaqla bağlı mürəkkəb “canlı sistem” kimi baxılır. Biodinamik fermerlər təsərrüfatın həyat dövrünü ətraf mühitlə uyğunlaşdırmaq üçün xüsusi üsullardan istifadə edirlər.Hər iki növ ekstremal növlərdir. Praktikada fərdi fermerlər müxtəlif ənənəvi üsullardan istifadə edə bilərlər. Lakin institusional baxımdan bu fərqin müəyyən əhəmiyyəti vardır [2, s. 32].

Azərbaycanda kənd təsərrüfatı yeni dövrün başlanğıcındadır. Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatının bütün sahələrini öz fəaliyyətinə inteqrasiya etməklə aqrar siyasətin parametrlərini müəyyən edir. Bu müddət ərzində Azərbaycanda kənd təsərrüfatı aşağıdakıları təmin etmək üçün əlaqə infrastrukturunu tələb edir:

a) Kənd təsərrüfatının inkişafı;

b) Kənd yerlərinin yenidən qurulması;

c) Kənd təsərrüfatının beynəlxalq rəqabət mühitində rəqabət qabiliyyəti;

d) Keyfiyyətli, ənənəvi və ekoloji təmiz kənd təsərrüfatı məhsullarına keçid;

e) Alternativ məşğulluq formaları (birgə fəaliyyət);

f) Su ehtiyatlarının, meşələrin, balıqçılıq təsərrüfatının və ətraf mühitin idarə edilməsi.

Bu parametrlər Azərbaycanın əsas kənd təsərrüfatı siyasətində nəzərə alınmalıdır və bu gələcəkdə bütün sektorun inkişafına müsbət təsir göstərəcəkdir. Buna görə də kənd təsərrüfatı siyasətinin təkmilləşdirilməsi və kənd təsərrüfatı islahatı böyük siyasi əhəmiyyət kəsb etməklə kənd yerlərinin hərtərəfli inkişafına kömək etmək və gücləndirmək üçün yeni struktur, institusional çərçivələrin işlənib hazırlanmasını tələb edir. Kənd təsərrüfatında islahatlar əsasən aşağıdakı aspektlərdə aparılır:

a) ekoloji mülahizələri kənd təsərrüfatı siyasətinə inteqrasiya etmək;

b) Resurslardan və təbii ehtiyatlardan səmərəli istifadə etməklə ətraf mühiti təmin etmək;

c) Kənd əhalisi ətraf mühitin və ərzağın keşikçisinə çevrilsin, bununla da kənd təsərrüfatı məhsullarının və qida keyfiyyətinin artırılması.

Ölkənin tədqiqatı orqanik əkinçilik sektoru ilə bağlı yeganə məlumatları toplayır. Ekoloji təmiz təsərrüfatlarda işçi qüvvəsi demək olar ki, tamamilə fermerlər və onların ailə üzvləri tərəfindən təmin edilir. Nəzərə alsaq ki, üzvi əkin sahələri iri miqyaslı təsərrüfatların yalnız kiçik bir hissəsini təşkil edir, ölkədə ekoloji əkinçilik də çox az əmək tələb edir. Ekoloji əkinçilik sektorunda məşğulluq yalnız istehsal və böyümə prosesi ilə bağlı ola bilməz. Bütün üzvi təchizat zəncirləri ixtisaslı işçilər tələb edir.Bir çox hallarda ekoloji cəhətdən təmiz istehsal üsullarından istifadə etməklə emal və marketinqin yeni formaları yaradılır. Bu, məhsulun keyfiyyətini fərqləndirmək və istehlakçılarla tam fərqli ünsiyyət üçün çox vacibdir. Kənd təsərrüfatı istehsalının üzvi istehsal üsullarına çevrilməsi əmək standartlarını müəyyən dərəcədə yaxşılaşdıracaqdır.Baxmayaraq ki, bəzi sahələrdə hələ də daha çox əl əməyi tələb olunur.

Kənd təsərrüfatının peşə hazırlığı üzrə işçi qrupu yaradılıb. Kənd təsərrüfatı işləri proqramı aşağıdakı fəaliyyətlərə diqqət yetirir:

- iş;
- sağlamlıq və təhlükəsizlik;
- sertifikatlaşdırma;
- iş üsulu;
- çərçivə sazişi;
- investisiya layihələrinin hazırlanması;
- digər.

Bu layihədə sosial tərəfdaşların fəaliyyəti aşağıdakı məsələlərə yönəlib:

a) Kənd təsərrüfatı strukturu və texnoloji dəyişikliklər;

b) “Avropa kənd təsərrüfatı modeli” nin müzakirəsi;

c) işçi seçimi və uyğunlaşma ehtiyaclarının, yeni bacarıqların və təlim metodlarının dəyişdirilməsi ehtiyacı;

d) Qloballaşma və kənd təsərrüfatı istehsalının genişlənməsi;

e) Kənd təsərrüfatı əmək bazarları və sosial siyasət üçün yeni prioritetlər.

Bu istiqamətdə kənd təsərrüfatı sahəsində aparılan islahatlar ətraf mühitin mühafizəsinin aktuallığını və hədəflərin sayını artırmışdır. Respublikanın kənd təsərrüfatı istehsalçıları üçün bu, struktur cəhətdən çətin olan sahələrin müvafiq rayonlardan kənarda iqtisadi, sosial inkişafa və insan resurslarının inkişafına çevrilməsi ilə nəticələnir. Məsələn, Qarabağa və Şərqi Zəngəzur iqtisadi rayonuna digər kənd yerlərindən işçilərin cəlb edilməsidir. Tarixi dədə-baba torpaqlarından didərgin düşmüş olan köçkünlərin öz torpaqlarına qayıdışı başlamışdır.

Qeyri-dövlət maliyyə nəzarəti dövlət və ya qeyri-dövlət qurumları tərəfindən maliyyə fəaliyyətinin monitorinqi və tənzimlənməsinə aiddir. Bu qurumlara özəl auditorlar, maliyyə institutları və müstəqil tənzimləyici orqanlar daxil ola bilər.

Qeyri-dövlət maliyyə nəzarətinin əsas məqsədi maliyyə sahəsində dövlət qurumlarının nəzarətindən asılı olmayan müstəqil təşkilatlar vasitəsilə maliyyə sistemində şəffaflıq və dəqiqlik yaratmaq, qanun və qaydalara əməl etməyə çalışmaqdır. Bu təşkilatlar maliyyə institutlarının və şirkətlərin, bankların və digər maliyyə qurumlarının nəzarətdə saxlanılması və mövcud risklərin müəyyən edilməsində mühüm rol oynayır.

Qeyri-dövlət maliyyə nəzarətinin əhəmiyyəti, maliyyə sisteminə inamın artırılmasında mühüm rol oynayır. Müstəqil qurumların nəzarəti və idarə olunması sayəsində maliyyələşmə prosesləri insanlar, banklar, şirkətlər və digər maliyyə qurumları arasında məsafə qoymadan daha sürətli və təhlükəsiz olur.

İqtisadiyyatda şəffaflığın və hesabatlılığın təşviqində qeyri-dövlət maliyyə nəzarətinin rolu

Nəzarət mühüm idarəetmə funksiyası və ya aləti kimi çıxış edir, çünki o, müvafiq əsaslandırma sistemlərinin köməyi ilə hərəkətlərin gözlənilən nəticələrə uyğun olmasını təmin edir. Bu proses həmçinin təklif olunan qaydalara vaxtında və sərfəli şəkildə cavab vermək üçün istənilən mənfi hallara düzəliş etmək imkanını da əhatə edir.

Nəzərə alınmalı olan ən vacib məsələlərdən biri, nəzarəti əldə etmək üçün mütləq hər şeyi planlaşdırmaq lazımdır, yəni planlaşdırmadan nəzarəti əldə etmək mümkün deyil. Nəzarətdə idarəetmə funksiyası şirkətin məqsəd və məqsədlərinə nail olunmasını təmin etmək üçün işçilərin fəaliyyətini qiymətləndirmək və korrektə etmək üçün məsuliyyət daşıyır. Nəzarət prosesi istehsal prosesi ilə müəyyən edilir. Bu proses təkcə yuxarı rəhbərliklə əlaqəli deyil, bütün idarəetmə səviyyələrində aparılmalıdır.

Nəzarət bütün məsələlərin təsdiq edilmiş məqsədlərə, təlimatlara və müəyyən edilmiş standartlara uyğun olmasını təmin etməlidir. Nəzarət faktiki fəaliyyətin standart göstəricilərdən uzaqlaşma dərəcəsini ölçür, bu cür çatışmazlıqların səbəbini müəyyənləşdirir və düzəliş tədbirlərinin görülməsinə kömək edir.

Nəzarət və idarəetmənin əsas funksiyaları arasındakı əlaqəni aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Planlaşdırma funksiyası. Planlaşdırma nəzarətdir və idarəetmə fəaliyyətinin cəmləşdiyi bütün spektri əhatə edir. Nəzarət əsasən müəyyən məqsədlərə və standartlara malik olmaq deməkdir. Qərarvermə prosesi bu məqsədlərə nail olur. Nəzarət xüsusi planlara, məqsədlərə və ya siyasətlərə əsaslanır. Beləliklə, planlaşdırma sizə nəzarət və səlahiyyət verir. Beləliklə, planlaşdırma və nəzarət arasında əlaqə var.

2. Əsas fəaliyyət. Nəzarət standartlar və faktiki nəticələr arasında müəyyən edilə bilən uyğunsuzluqları düzəltmək üçün görülə biləcək istənilən fəaliyyətə böyük diqqət yetirir. İdarəetmə prosesinin icra olunması qərar qəbuletmə prosesi ilə müəyyən edilmiş təşkilati məqsədlərə nail olmağa kömək edir. Bunun üçün müxtəlif üsul və texnikalar tələb olunur.

3. Əsas nümayəndəlik: Nümayəndə heyəti nəzarətin həyata keçirilməsi üçün vacibdir, çünki nəzarət mexanizmləri icra məsuliyyətinə malik olan, lakin fəaliyyət göstərmək səlahiyyətinə malik olan menecerlər üçün istifadə olunur. Təşkilatın lideri missiya vasitəsilə güc və səlahiyyət qazanır.

Nəzarəti üç kateqoriyaya bölmək olar: ilkin, cari və yekun. Bu nəzarət növlərinin hər biri təşkilatin fəaliyyətində müvəffəqiyyətin təmin edilməsində mühüm rol oynayır.

İlkin nəzarət layihə və ya tapşırığın icrasından əvvəl görülən tədbirlərə aiddir. Məqsəd və vəzifələri öncədən müəyyən edir. Bu növ monitorinq həm də layihənin icrası zamanı yarana biləcək problemlərin və maneələrin müəyyən edilməsinə və onların həlli istiqamətində addımların atılmasına kömək edir.

Cari nəzarət layihənin və ya tapşırığın icrası zamanı monitorinq və qiymətləndirməni əhatə edir. Hər şeyin plana uyğun olaraq, məqsəd və vəzifələrin yerinə yetirilməsini təmin edir. Cari nəzarətə məlumatların toplanması, təhlili və zəruri hallarda düzəlişin edilməsi daxildir. Bu tip nəzarət plandan kənara çıxmaları müəyyən etməyə və layihənin düzgünlüyünü təmin etmək üçün düzəlişlər etməyə kömək edir.

Yekun nəzarət son mərhələdir və layihənin və ya fəaliyyətin vəziyyətini ölçür. Bu, faktiki nəticələri planlaşdırılan məqsədlərlə müqayisə etməyi və layihənin uğurlu olub-olmadığını müəyyən edir. Yekun nəzarətin təkmilləşdirilməsi lazım olan sahələri müəyyənləşdirməyə kömək edir. O, həmçinin gələcək layihələr üçün dəyərli fikirlər təqdim edir.

Buna görə də ilkin, cari və yekun nəzarət layihə və ya fəaliyyətin uğurunu təmin edən əsas idarəetmə komponentləridir. İlkin nəzarətə əsas yaradır, cari nəzarət hər şeyin plana uyğun getməsini təmin edir. Yekun nəzarət irəliləyişi qiymətləndirir və gələcək fəaliyyət üçün tövsiyələr verir. Beləliklə, təşkilatlar məqsədlərinə çatmaq üçün güclü monitorinq sisteminə malik olmalıdırlar.

Bir çox şirkətlər, o cümlədən dövlət müəssisələri və korporasiyalar maliyyə nəzarətindən istifadə edirlər. Bununla belə, bəzi şirkətlər hökumət tərəfindən yaradılmayan və tənzimlənməyən qeyri-dövlət maliyyə nəzarəti sistemlərini tətbiq edirlər. Bu növ nəzarətə normativlərə uyğunluq, təhlükəsizlik və xərc səmərəliliyi daxildir. Dövlət xərclərində şəffaflığın, hesabatlılığın və səmərəliliyin təmin edilməsində dövlət maliyyə nəzarəti əhəmiyyətlidir [1, s.108]. Qeyri-dövlət maliyyə nəzarəti müxtəlif formalarda olur.

Birincisi, belə nəzarət yüksək dəqiqlik və kəmiyyət tələb edir. Bu tip monitorinq bütün maliyyə əməliyyatlarının tam şəffaflığını tələb edir.

İkincisi, bu tip nəzarət düzgün maliyyə göstəricilərini təmin edir. Qeyri-hökumət maliyyə nəzarəti orqanları maliyyə səhvlərinin qarşısını almaq üçün tədbirlər görür.

Üçüncüsü, qeyri-dövlət maliyyə nəzarəti maliyyə əməliyyatlarının təhlükəsizliyini təmin edir. Bu növ nəzarət maliyyə əməliyyatlarının bütün mərhələlərində təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini tələb edir.

Nəhayət, qeyri-dövlət maliyyə nəzarəti maliyyələşdirməyə cavabdeh olan təşkilatın müstəqilliyinə istinad edir, çünki onlar hökumət tərəfindən idarə olunmur. Bu müstəqillik maliyyə hesabatlarının düzgünlüyünə imkan verir.

Tənzimləyici orqanlar və hüquq-mühafizə orqanları arasında daha yaxşı əməkdaşlıq maliyyə nəzarətinin effektivliyini artırmağa və maliyyə fırıldaqları, həmçinin də korrupsiya risklərini azaltmağa kömək edəcək [2, s. 58].

Effektiv və təhlükəsiz maliyyə əməliyyatlarını təmin etmək üçün qeyri-dövlət maliyyə nəzarəti vacibdir. Bu nəzarət forması qanunvericiliyə riayət olunmasının yoxlanılması, səmərəliliyin artırılması və maliyyə əməliyyatlarının təhlükəsizliyinə təminat verilməsi üçün dəyərli vasitədir.

1. Şəffaflığın olmaması: Qeyri-dövlət maliyyə nəzarətinin əsas problemlərindən biri şəffaflığın olmamasıdır. Bu, maliyyə pozuntularını, korrupsiya və pozuntuları aşkar edib aradan qaldırmağı çətinləşdirir.
2. Qeyri-kafi resurslar: Qeyri-dövlət maliyyə nəzarəti agentlikləri öz vəzifələrini səmərəli şəkildə yerinə yetirmək üçün çox vaxt maliyyə, işçi heyəti və təlim kimi zəruri resurslardan məhrumdurlar. Bu, onların öhdəliklərini yerinə yetirməsini və qaydaların icrasını çətinləşdirə bilər.
3. Məhdud yurisdiksiya: Qeyri-dövlət maliyyə nəzarəti agentlikləri çox vaxt məhdud yurisdiksiyaya malikdirlər ki, bu da onların məsuliyyət sahələrindən kənarda baş verən maliyyə pozuntularının aradan qaldırılmasını çətinləşdirə bilər.
4. Siyasi müdaxilə: Qeyri-dövlət maliyyə nəzarəti agentlikləri siyasi müdaxilə ilə üzləşə bilər ki, bu da onların effektivliyinə ziyan vura bilər. Bu, siyasətçilər məqsədlərinə çatmaq üçün agentlik əməliyyatlarına təsir göstərməyə və ya müdaxilə etməyə çalışdıqda baş verə bilər.
5. Məhdud hesabatlılıq: Qeyri-dövlət maliyyə nəzarəti agentliklərində hesabatlılıq mexanizmləri olmaya bilər ki, bu da onların öz hərəkətlərinə görə məsuliyyət daşımasını çətinləşdirə bilər. Bu, öz vəzifələrini səmərəli şəkildə yerinə yetirmək qabiliyyətinə inamsızlığa səbəb ola bilər.
6. Qeyri-adekvat qanunvericilik bazası: Qeyri-dövlət maliyyə nəzarəti agentlikləri qeyri-adekvat qanunvericilik bazası olan mühitdə fəaliyyət göstərə bilər ki, bu da qaydaların icrasını çətinləşdirə və maliyyə pozuntularına görə fiziki şəxsləri və təşkilatları məsuliyyətə cəlb edə bilər.
7. Müstəqilliyin olmaması: Qeyri-dövlət maliyyə nəzarəti agentliklərində müstəqillik olmaya bilər ki, bu da onların repressiya və ya kənar qüvvələrin təsirindən qorxmadan fəaliyyətini çətinləşdirə bilər.

Bütövlükdə, bu çağırışlar maliyyə pozuntularını aradan qaldırmaq və maliyyə sabitliyini və dürüstlüyünü təşviq etmək üçün müvafiq resurslara, yurisdiksiyaya, şəffaflığa, hesabatlılığa, müstəqilliyə və hüquqi bazaya malik daha güclü və effektiv qeyri-dövlət maliyyə nəzarəti mexanizmlərinə ehtiyac olduğunu vurğulayır.

Müasir iqtisadiyyatda qeyri-dövlət maliyyə nəzarətinin çətinlikləri və məhdudiyyətləri

Qeyri-dövlət maliyyə nəzarəti və ya daha çox məlum olduğu kimi “qeyri-rəsmi maliyyə” ciddi problem yaradır. Bu, bəzən qanunsuzluq və ya vergidən yayınma ilə bağlı olan sahədir. Hər hansı

qeyri-rəsmi maliyyələşdirmə qeyri-qanuni və ya vergi ilə əlaqəli olduğundan, maliyyələşdirmənin monitorinqi və nəzarəti vacibdir.

Burada qüvvəyə minmiş qeyri-dövlət maliyyə nəzarəti ilə bağlı əsas problemlərdən biri dövlət ittihamının olmamasıdır. Qeyri-rəsmi maliyyə əməliyyatları geniş şəbəkə vasitəsilə həyata keçirilir və bu şəbəkənin əsas məqsədi vergi ödəməkdən yayınmaqdır. Bu, qeyri-rəsmi maliyyə əməliyyatlarına nəzarəti çətinləşdirir.

Qeyri-dövlət maliyyə nəzarətində şəffaflığın olmaması ilə bağlı əsas problemlərdən biri korrupsiya ehtimalıdır. Korrupsiya rüşvətxorluq, çirkli pulların yuyulması da daxil olmaqla bir çox formada ola bilər. Qeyri-şəffaf sistem yanlış hərəkətlərin müəyyən edilməsini çətinləşdirə bilər, beləliklə, fərdlərin qeyri-qanuni fəaliyyətlə məşğul olmasını asanlaşdırır.

Hökumət və digər ictimai qurumlarda şəffaflıq və hesabatlılıq üçün ictimai nəzarət vacibdir. Bu, vəzifəli şəxslər tərəfindən korrupsiya, vəzifə səlahiyyətlərindən sui-istifadə və digər sui-istifadə hallarının qarşısını alır. İctimai nəzarət həm də qərarların qəbulunda vətəndaşların iştirakını təşviq edir ki, bu da öz növbəsində daha yaxşı idarəetməyə və effektiv siyasətə gətirib çıxarır.

Bundan əlavə, ictimai nəzarət iqtisadi artımın və sosial inkişafın təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. O, dövlət resurslarından səmərəli istifadə edilməsinə, dövlət xidmətlərinin bütün vətəndaşlara vaxtında və operativ şəkildə çatdırılmasına öz töhfəsini verir. Dövlət sektoru həmçinin iqtisadiyyatın bütün oyunçuları üçün bərabər şərait yaratmaqla innovasiya və sahibkarlığı təşviq edir. Daxili auditın təşkilatların idarəedilməsi və maliyyə hesabatlarının doğruluğunun yoxlanılması üçün müvafiq audit prosedurları həmçinin, texnologiyaları təyin edilir [3, s.155].

Qeyri-dövlət maliyyə nəzarətinin digər təhlükəsi vəsaitlərin mənimsənilməsidir. Təşkilat vəsaitlərdən sui-istifadə etdikdə və ya qeyri-düzgün investisiya təcrübələri ilə məşğul olduqda, vəsaitlərin səhv idarə edilməsi baş verə bilər. Əgər nəzarət edilməzsə, vəsaitlərin düzgün idarə edilməməsi ciddi maliyyə itkisinə və iflasa səbəb ola bilər.

Qeyri-dövlət maliyyə nəzarətində şəffaflığın olmaması da daha geniş maliyyə problemlərinə səbəb ola bilər. Fiziki şəxslər və müəssisələr maliyyə sisteminə inamını itirdikdə, onlar sərmayə qoymaqdan və ya borc almaq riskləri ilə üzləşə bilərlər. Nəticədə iqtisadi artım ləngiyir, iqtisadiyyat üçün uzunmüddətli mənfi nəticələrə səbəb olur.

Hər hansı bir layihənin dəyişikliklərinin idarə edilməsi müzakirələrə əsaslanır və layihə dəyişikliklərinin idarə edilməsi, həmçinin nəzarəti üçün müxtəlif tədbirlərin tətbiq edilməsinin layihənin uğurlu nəticələrini təmin edəcəyinə dair müəyyənlik yaradır [4, s. 593].

Ardıcıl qeyri-dövlət maliyyə nəzarətinin olmaması iqtisadiyyat üçün əsas problemdir. Korrupsiya, resursların düzgün idarə edilməməsi və maliyyə sektorunda qeyri-müəyyənlik qeyri-şəffaf mühitin nəticələri ola bilər. Bu problemi həll etmək üçün təşkilatlar maliyyə əməliyyatlarını açıqlamalı, məlumatlar qorunmalı və hökumətlər şəffaflığı və yaxşı idarəçiliyi təşviq etməlidir. Bu tədbirlər vasitəsilə dövlət xarici sərmayə mühitini yaxşılaşdıra, iqtisadi artım və inkişafa kömək edə bilər.

Qeyri-dövlət maliyyə nəzarətinin qeyri-adekvat maliyyələşdirilməsi effektiv maliyyə idarəçiliyini saxlamaq üçün ciddi problem yaradır. Maliyyə nəzarəti dövlət vəsaitlərinin şəffaf, səmərəli və hesabatlı idarə olunmasında mühüm rol oynayır. Bununla belə, kifayət qədər resurs olmadan maliyyə institutlarının öz qaydalarını effektiv şəkildə tətbiq etməsi çətindir.

Qeyri-dövlət maliyyə nəzarətinin davamlı iqtisadi artımın və inkişafın təşviqinə verdiyi töhfə. Maliyyə nəzarətində qeyri-adekvat maliyyələşdirmənin əsas nəticələrindən biri hərtərəfli və tez-tez uçotun olmamasıdır. Audit fırıldaqçılıq və aldatma kimi maliyyə tullantılarının müəyyən edilməsində və dövlət vəsaitlərinin təyinatı üzrə istifadə olunmasının təmin edilməsində mühüm vasitədir.

Audit, bir şirkətin maliyyə və idarəetmə sistemlərinin təhlükəsizliyini və saxlanılmasını yoxlamaq üçün istifadə olunan bir prosesdir. Bu, şirkətin daxilindəki məsələlərin vəziyyətinə dair ətraflı bir şərhə imkan verir və proseslərdəki problemləri və riskləri aşkar edir [5,s.125].

Qeyri-dövlət maliyyə nəzarətində adekvat resursların olmaması səmərəli maliyyə idarəçiliyinin

təmin edilməsində ciddi problem yaradır. Maliyyə nəzarəti dövlət vəsaitlərinin şəffaf, səmərəli və hesabatlı idarə olunmasında mühüm rol oynayır. Bununla belə, adekvat resursların olmadığı şəraitdə maliyyə institutlarının öz nizamnamələrini effektiv şəkildə həyata keçirməsi çətinləşir.

Audit firmasının ölçüsü ilə audit keyfiyyəti arasında heç bir əlaqə müşahidə edilməmişdir. Bu nəticələr göstərir ki, audit firmalarının böyüklüyü auditin keyfiyyətinə ciddi təsir göstərmir [6, s. 215].

Auditorlar, maliyyə hesabatlarının və digər sənədlərin dəqiqliyini və doğruluğunu yoxlamaqla, korrupsiya ilə əlaqədar narahatlıq yaradan məsələləri aşkar edə bilərlər. Auditorların məsələləri açıqlığa çıxarmaq üçün istifadə edə biləcəkləri əsas faktor isə risk qiymətləndirməsi və daxili nəzarət sistemləridir [7, s. 221].

Maliyyə nəzarəti dövlət orqanları tərəfindən əvvəlcədən hazırlanmış xüsusi plana uyğun olaraq, xüsusi auditor nəzarəti isə daxil olan sərəncamlarla həyata keçirilir. Əvvəlki halda müfəttişin adına arayış verilir və o, bu arayışı pasportu və ya şəxsiyyətini təsdiq edən digər sənədlə birlikdə yoxlanılan müəssisənin rəhbərliyinə təqdim edir. Rəhbərlik müvafiq nəticəyə gəldikdən sonra yoxlama şirkətin baş mühasibinin və ya digər vəzifəli şəxsin cəlb edilməsi ilə başlayır.

Audit keyfiyyət nəzarəti ilə maliyyə performansı arasında pozitiv bir əlaqə olduğunu göstərir [8, s.1374].

Müştəri auditor yoxlaması üçün müvafiq müqavilə bağlayan, müvafiq vəsaiti icraçının hesabına köçürən və yoxlama aparan auditor və ya təşkilatdan şəxsən xahiş edir. Auditin gecikməsi auditorun dəyişdirilməsinə müsbət təsir göstərir və bu, daha uzun audit gecikmələri olan şirkətlərin auditorların dəyişdirilməsi ehtimalının daha yüksək olduğunu göstərir [9, s.185].

Auditorun əhatə etdiyi maliyyə-təsərrüfat münasibətləri sahəsində peşəkar vəzifələr kimi audit yoxlamalarının aparılması, ekspertiza, müqavilə baxışı, subyektlərin maliyyə və maliyyə əməliyyatları üzrə rəylərin yazılması, mühasibat uçotunun yoxlanılması, faktiki hesabat göstəricilərinin qiymətləndirilməsi və digər vəzifələrin yerinə yetirilməsi də daxildir. Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanununa əsasət auditorların vəzifələri aşağıdakılardır [10] :

– auditin aparılmasında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə hökmən riayət etmək;

– auditor yoxlamalarını və digər auditor xidmətlərini keyfiyyətli həyata keçirmək;

– sifarişçinin mühasibat uçotunun və hesabatının vəziyyətini, düzgünlüyünü, qüvvədə olan qanunlara və normativ aktlara uyğunluğunu yoxlamaq;

– auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, mühasibat uçotunun aparılması və hesabatların tərtibi ilə bağlı nöqsanlar haqqında sifarişçinin rəhbərliyinə məlumat vermək;

– sifarişçinin tələbi ilə aparılan audit zamanı əldə edilən məlumatı (məhkəmə orqanlarının tələb etdiyi hallar, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununa əsasən və maliyyə bazarlarını tənzimləyən digər qanunlara müvafiq olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim olunmalı məlumatlar istisna olmaqla) məxfi saxlamaq;

– yoxlama gedişində alınmış və ya tərtib edilmiş sənədlərin qorunub saxlanmasını təmin etmək;

– təsərrüfat subyektinin tələbi ilə ona auditin aparılmasına dair qanunvericiliyin tələbləri, tərəflərin hüquq və vəzifələri, habelə auditorun rəyində olan irad və nəticələr üçün əsas olan normativ aktlar barəsində ətraflı məlumatlar vermək;

– qanunvericiliklə nəzərdə tutulmuş hallarda vergi hesabatına dair auditor rəyi vermək;

– sığortaçı ilə mülki məsuliyyətinin icbari sığortası müqaviləsini bağlamaq;

– cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etmək, bu sahədə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər tədbirləri həyata keçirmək.

Audit nəticələrinin ümumiləşdirilməsinin qiymətləndirilməsində əsas meyar mürəkkəbliyin

nəzərə alınmasıdır. Başqa sözlə, şirkətin təsərrüfat-maliyyə fəaliyyətinin iqtisadi göstəriciləri məntiqi ardıcıllıqla ümumiləşdirilir və təhlil edilir.

Yekun olaraq qeyd edək ki, qeyri-dövlət maliyyə nəzarəti müasir iqtisadiyyatın mühüm tərkib hissəsidir. Maliyyə sistemlərində sabitliyi, şəffaflığı və hesabatlılığı təşviq etməklə qeyri-dövlət subyektləri bütövlükdə iqtisadiyyatın uzunmüddətli davamlılığının və rifahının təmin edilməsində mühüm rol oynayır.

Nəticə

Müasir iqtisadiyyatda qeyri-dövlət maliyyə nəzarəti iqtisadiyyatda şəffaflığın, hesabatlılığın və sabitliyin təmin edilməsində mühüm rol oynayır. Artan qloballaşma və maliyyə əməliyyatlarının mürəkkəbliyi hökumətlərin maliyyə bazarlarını effektiv idarə etməsini çətinləşdirir. Müstəqil auditorlar, kredit reytinq agentlikləri və maliyyə nəzarətçiləri kimi qeyri-dövlət maliyyə nəzarəti mexanizmləri əlavə nəzarət səviyyəsini və maliyyə fırıldaqlarının və qanun pozuntularının qarşısının alınmasını təmin edir. Bu mexanizmlər olmasaydı, maliyyə institutları iqtisadiyyata və istehlakçılara zərər verə biləcək təhlükəli təcrübələrlə məşğul ola bilərdilər. Bundan əlavə, maliyyə sisteminin bütövlüyünü təmin etmək və bütün maraqlı tərəflərin maraqlarını qorumaq üçün qeyri-dövlət maliyyə nəzarəti vacibdir.

ƏDƏBİYYAT

1. Riabchuk O., Panasiuk O., Tarashchenko V., Bilobrovenko T., Mikhieieva K.S. Problems and Prospects of State Financial Control and Analysis of Local Budget Execution // Scientific Horizons, 2022, 25(11), pp.103-110
2. Соян Ш.Ч., Морзекей А.О. Проблемы государственного финансового контроля // Journal of Economy and Business, 2019, 11(3), ctp.57-59
3. Маккаева Р.С., Ибрагимова П.А., Агавердиев Ф.Н. Роль и значение внутреннего аудита в системе управления организацией // Индустриальная Экономика, 2022, 3(2), ctp.157-164
4. Скорев Е.Н. Контроль или управление изменениями содержания проекта // Экономика и бизнес,2017, ctp.591-596
5. Султыгова Х.М. Аудит как фактор эффективности бизнеса // Вестник Науки, 2020, 6 (27), ctp.124-128
6. Citra A., Faisal F. Audit fees, audit tenure, auditor industry specialization, audit firm size, and audit quality: evidence from listed companies // Jurnal Dinamika Akuntansi dan Bisnis, 2023, 10 (2), pp 213 – 230
7. Полываная О.В., Жиркова Д.А.. Аудиторская деятельность как средство в борьбе с коррупцией // Экономика и бизнес, 2015, ctp.219-223
8. Apalowowa O.D., Toyin E.A. Audit Quality Control and Financial Performance of Deposit Money Banks in Ekiti State, Nigeria // International Journal of Innovative Science and Research Technology, 2023, 8(4), pp.1372-1378
9. Rizqi T.D., Sri R., Muhammad R. Effects of audit fee, audit delay, financial distress, audit opinion and audit tenure on auditor switching // Journal of Business Management and Economic Development, 2023, 1(2), pp. 182-196
10. Auditor xidməti haqqında Qanun https://e-qanun.az/framework/9236-

Рена Канбар кызы Тагиева
аспирант Азербайджанской Академии
Труда и Социальных Отношений,
rena.tagiyeva81@gmail.com

Научный руководитель: доц. С.Р. Гулиева
Азербайджанская Академия Труда и
Социальных Отношений
13sada@mail.ru

Значение негосударственного финансового контроля в современной экономике

Резюме

В статье анализируется роль негосударственного финансового контроля в обеспечении прозрачности и подотчетности в экономике. Также выявлены трудности и ограничения негосударственного финансового контроля в современной экономике. Кроме того, в статье рассматривается вклад негосударственного финансового контроля в содействие устойчивому экономическому росту и развитию.

Цель – объяснить важность негосударственного финансового контроля и его значение в предотвращении коррупции и других финансовых махинаций, а также выявить проблемы и ограничения.

Позиция - Попытки обсудить преимущества негосударственного финансового контроля, такие как снижение риска мошенничества и предотвращение финансовых нарушений.В статье анализируется роль негосударственного финансового контроля в обеспечении прозрачности и подотчетности в экономике. Также выявлены трудности и ограничения негосударственного финансового контроля в современной экономике. Кроме того, в статье рассматривается вклад негосударственного финансового контроля в содействие устойчивому экономическому росту и развитию.

Методология – в статье использован метод системного подхода.

Выводы. Негосударственные механизмы финансового контроля, такие как независимые аудиторы, рейтинговые агентства и органы финансового надзора, обеспечивают дополнительный уровень контроля и предотвращения финансового мошенничества, включая нарушения закона.

Вывод – Негосударственное финансовое регулирование необходимо для поддержания стабильной и устойчивой экономики и обеспечения благосостояния граждан.

Ключевые слова: негосударственный финансовый контроль, аудит, подотчетность, прозрачность, коррупция.

Rena Qanbar Tagıyeva
Azerbaijan Academy of Labor and
Social Relations graduate student,
rena.tagiyeva81@gmail.com

Scientific leader: associate professor, i.f.d. S.R. Guliyeva
Azerbaijan Academy of Labor and Social Relations
13sada@mail.ru

The importance of non-state financial control in the modern economy

Summary

The article analyzes the role of non-state financial control in promoting transparency and accountability in the economy. Also, the difficulties and limitations of non-state financial control

in the modern economy are identified. In addition, the article examines the contribution of non-state financial control to the promotion of sustainable economic growth and development.

Objective - To explain the importance of non-state financial control and its importance in preventing corruption and other financial frauds, as well as identifying challenges and limitations

Position - Attempts to discuss the benefits of non-state financial control such as reducing the risk of fraud and preventing financial mismanagement. The article analyzes the role of non-state financial control in promoting transparency and accountability in the economy. Also, the difficulties and limitations of non-state financial control in the modern economy are identified. In addition, the article examines the contribution of non-state financial control to the promotion of sustainable economic growth and development.

Methodology - a systematic approach method was used in the article.

Conclusions - Non-state financial control mechanisms such as independent auditors, credit rating agencies and financial supervisors provide an additional level of control and prevention of financial fraud, including violations of the law.

Conclusion - Non-state financial regulation is essential to maintain a stable and sustainable economy and ensure the welfare of citizens**.**

Key words: non-state financial control, audit, accountability, transparency, corruption.

UOT 336.7

Rəşad Arzuman oğlu MUSTAFAYEV
Doktorant, Azərbaycan Kooperasiya Universiteti
Email: resad_320_m@mail.ru
10.30546/4.71.73001.2024.09

İQTİSADİ İNKİŞAFIN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ METODLARINDAN İSTİFADƏNİN ZƏRURİLİYİ

Xülasə

Tədqiqatın məqsədi - yeni reallıqlar şəraitində iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında tarazlığın təmin edilməsi dövlətin iqtisadi siyasətinin prioritetlərindən hesab edilir. Bu məqsədin reallaşdırılmasında maliyyə tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqatın metodologiyası - Maliyyə tənzimlənməsi mexanizmləri büdcə, vergi, pul-kredit və s. tənzimlənməsinin üsulları, vasitələri və alətlərini nzərdə tutur. Dövlətin iqtisadiyyatın inkişafını tənzimləmək məqsədilə proseslərdə iştirakı, ilk növbədə iqtisadi stimulların formalaşmasına yönəlir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Məhz maliyyə tənzimləməsindən istifadə hesabına həm də istehsalın strukturunun təkmilləşdirilməsi üzrə imkanlar müəyyən edilir. Bazar iqtisadiyyatında iqtisadiyyatın dövlət tənzimlənməsi beynəlxalq təcrübəyə əsasən müxtəlif forma və metodlar vasitəsilə həyata keçirilir. Bir qayda olaraq, metod və formaların sayı, müxtəlifliyi ölkənin iqtisadi sosial vəziyyətinə, coğrafi iqlim şəraitinə, təbii ehtiyatlarına, adət və ənənəsinə uyğunlaşdırılaraq fərqli nisbətdə həyata keçirilir.

Tədqiqatın nəticələri – Bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi probleminin tədqiqi bu sahə ilə bağlı nəzəri və praktiki əhəmiyyətə malik olan mühüm nəticələr əldə etməyə imkan verir. Beləliklə, maliyyə üsullarından geniş istifadə ictimai istehsalın strukturunun dövlətin tələb etdiyi istiqamətdə dəyişdirilməsi üçün potensial imkanlar yaradır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - İqtisadiyyatın dövlət tənzimlənməsinin inzibati vasitə və alətləri əlavə maddi stimulla, maliyyə təminatı ilə əlaqədar deyildir. Onlar dövlət hakimiyyətinin gücünə əsaslanırlar - qabağagetmə, icazəvermə, məcburetmə səlahiyyətlərini əhatə edirlər. Bazar iqtisadiyyatında dövlət tənzimlənməsinin dolayı metodları bazarda oyun qaydalarını müəyyən etməklə təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektlərin maraqlarına təsir göstərir.

Açar sözlər: iqtisadi inkişaf, tənzimləmə, pul-kredit, büdcə, vergi, gömrük, maliyyə.

Giriş

Bazar iqtisadiyyatında iqtisadiyyatın dövlət tənzimlənməsi beynəlxalq təcrübəyə əsasən müxtəlif forma və metodlar vasitəsilə həyata keçirilir. Bir qayda olaraq, metod və formaların sayı, müxtəlifliyi ölkənin iqtisadi sosial vəziyyətinə, coğrafi iqlim şəraitinə, təbii ehtiyatlarına, adət və ənənəsinə uyğunlaşdırılaraq fərqli nisbətdə həyata keçirilir. İqtisadiyyatın tənzimlənməsində istifadə olunan metodların digər təsnifləşdirilməsi onların sosial-iqtisadi proseslərə təsir səviyyəsi və dərəcəsi ilə əlaqədar aparılır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq dövlət gələcəkdə sosial iqtisadi inkişafın vəziyyətini əks etdirən proqnozlar işləyib hazırlayır ki, onların çoxlu variantlarda hazırlanmasının müsbət cəhəti ondan ibarətdir ki, müəyyən vəziyyətdə optimal olunan seçilsin. Proqnozlar əsasında dövlət siyasəti yalnız inkişaf prespektivlərini deyil, həmçinin müəssisələrə, firmalara dövlətin gələcəkdə həyata keçirəcəyi tədbirləri göstərməyə imkan verir.Qloballaşma prosesi ilə əlaqədar olaraq dünya iqtisadiyyatının texnoloji strukturunun dəyişməsi, informasiya cəmiyyətinin formalaşması və yeni texnologiyaların tətbiqi, bazarların və ölkələrin iqtisadi inteqrasiya subyektlərinin transformasiyası nəticə etibarilə ölkənin maliyyə-iqtisadi inkişafını hədəfləyir. Qeyd edilənlər iqtisadi inkişafın yeni reallıqları kontekstində sahələrarası tarazlığın qorunması baxımından daha effektiv pul-kredit və maliyyə tənzimlənməsinin yeni mexanizmlərinin hazırlanmasını və tətbiqini tələb edir. Balanslaşdırılmış siyasət sayəsində müsbət struktur dəyişiklik-

lərinin həyata keçirilməsi üçün zəruri maliyyə şərtləri yaranır. İqtisadiyyatın maliyyə tənzimlənməsi istehsalın strukturuna əhəmiyyətli dərəcədə təsir göstərir. İqtisadiyyatın maliyyə tənzimlənməsi məqsədi ilə dövlətin müdaxiləsinə ehtiyac cəmiyyətin tələbatının ödənilməsi ilə bağlı problemlərin həllini - iqtisadi inkişafın prioritet sahələrinin dəstəklənməsini, struktur dəyişikliklərinin təmin edilməsini, istehsal və sosial infrastrukturun təkmilləşdirilməsini və genişləndirilməsini və s. nəzərdə tutur [Капканщиков, Сергей Геннадьевич., 2013].

Maliyyə və pul-kredit tənzimlənməsinin üsulları.

Maliyyə və pul-kredit tənzimlənməsinin üsulları, vasitələri və alətləri dövlətin iqtisadiyyata müdaxiləsi ilə bağlı bir çox problemlərin həllinə yönəlir. Ona görə iqtisadiyyatın maliyyə-pul tənzimlənməsinin mövcud növ və üsullarının ümumiləşdirilməsi və onların həyata keçirilməsi üçün yeni şərtlərin müəyyən edilməsi vacib məsələlərdən biri kimi özünü göstərir.

Maliyyə tənzimlənməsinin pul-kredit mexanizmi pul-kredit münasibətləri sistemində iqtisadiyyatın sabitliyini, o cümlədən məşğulluğun təmin edilməsini, inflyasiyanın aşağı salınmasını, qiymət sabitliyini, pul sisteminin səmərəliliyini təmin etməyə yönəldilir və dövlətin xüsusi üsul və vasitələrlə həyata keçirdiyi fəaliyyətləri əhatə edir [Н.В.Уколова, Л. Н. Алайкина, Н. А. Новикова, 2015.] Məqsədlərindən asılı olaraq pul siyasəti strateji və cari növə bölünür. Strateji növ dövlətin iqtisadi siyasətini nəzərə alaraq müəyyən dövr üçün əsas istiqamətləri müəyyən edir. Cari növ isə daha konkret və əlçatan məqsədlərə uyğun olaraq həyata keçirilir.

Fiskal siyasətin dövlətin maliyyə resurslarından istifadəsinin əsas istiqamətləri

Müasir fiskal siyasət dövlətin maliyyə resurslarından istifadəsinin əsas istiqamətlərini, maliyyələşdirmə üsullarını və dövlət büdcəsinin doldurulması mənbələrini əhatə edir. Bu baxımdan dövlət büdcəsinin təhlili göstərir ki, son 5 ildə, yəni 2018-ci ilə nisbətən 2022-ci ildə büdcə gəlirləri 29,7% artmışdır. O cümlədən fiziki şəxslərin gəlir vergisində 49,1%, hüquqi şəxslərin mənfəət (gəlir) vergisində 2,1 dəfə, əmlak vergisində 29,6%, əlavə dəyər vergisində 33,4%, aksizdə 75,2%, mədən vergisində 3,4%, sair daxilolmalarda 16,3 dəfə artım qeydə alınmışdır. Yalnız torpaq vergisi 9,1% azalmışdır. Dövlət büdcəsinin xərclərinin tərkibində 2018-ci illə müqayisədə 2022-ci ildə iqtisadiyyata yönələn xərclərdə azalma, digər istiqamətlər üzrə artım qeydə alnmışdır (cədvəl 1).

Yuxarıda qeyd edilənlər təbii olaraq nəticəsini iqtisadi inkişafı xarakterizə edən göstəricilərdə büruzə verir. Əsas makroiqtisadi göstəricilərin inkişaf indeksinin təhlili göstərir ki, əvvəlki ilə nisbətən ümumi daxili məhsul 2018-ci ildə 1,5%, 2019-cu ildə 2,5%, 2021-ci ildə 5,6%, 2022-ci ildə 4,6% artmış, 2020-ci ildə 4,2% azalma qeydə alınmışdır (cədvəl 2).

İqtisadiyyatın tənzimlənməsinin maliyyə metodları

İqtisadiyyatın tənzimlənməsinin maliyyə metodları birbaşa və dolayı üsullar olaraq fərqləndirilir. Birbaşa üsullara büdcənin tənzimlənməsi üsulları daxildir. “Büdcə sisteminin vahidliyi tənzimləyici mədaxil mənbələrindən istifadə etmək, məqsədli büdcə fondları yaratmaq, maliyyə ehtiyatlarını müxtəlif səviyyəli büdcələr arasında bölüşdürmək vasitəsi ilə büdcələrin qarşılıqlı əlaqəsinə əsaslanır” [1]. Dövlət büdcəsi hesabına geniş təkrar istehsal xərclərini, qeyri-məhsuldar dövlət xərclərini, infrastrukturun inkişafını, elmi tədqiqatları, struktur siyasətinin həyata keçirilməsini və s. maliyyələşdirir. Dövlət dolayı üsullardan istifadə etməklə əmtəə və xidmət istehsalçılarının maliyyə imkanlarına və istehlakçı tələbinin həcminə təsir göstərir. Bu baxımdan vergi sistemi mühüm rol oynayır. Vergi dərəcələrini dəyişdirərək - müxtəlif gəlir növləri, vergi güzəştlərinin təmin edilməsi, vergidən azad minimum gəlirin azaldılması və s. dövlət davamlı gəlir əldə etməyə çalışır.

Büdcə tənzimlənməsinin forma və üsulları, onun iqtisadiyyata təsiri baxımından aşağıdakı istiqamətlərdə qruplaşdırılır:

- maliyyə və pul-kredit tənzimlənməsinin dolayı üsulları - vergi dərəcələrinin müəyyən edilməsini və vergi güzəştlərinin verilməsini özündə əks etdirən vergi siyasəti, amortizasiya normalarının müəyyən edilməsi və amortizasiya ayırmalarının indeksləşdirilməsini əhatə edən amortizasiya siyasəti, kredit siyasəti, ixrac-idxal gömrük rüsumlarını müəyyən edən gömrük siyasəti;

Cədvəl 1

Dövlət büdcəsinin gəlir və xərcləri, milyon manat [6]

Göstəricilər	2018	2019	2020	2021	2022	2018-ci illə müqayisədə 2022-ci ildə, %-lə
Gəlirlər-cəmi	22508,9	24218,1	24124, 0	25 427,0	29197, 8	129,7
Fiziki şəxslərin gəlir vergisi	995,9	952,1	1 130,0	1 150,0	1 485,0	149,1
Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	2499,7	2546,0	2 267,7	2 144,0	5 290 ,0	2,1 dəfə
Torpaq vergisi	50,6	50,0	40,0	186,0	46 ,0	90,9
Əmlak vergisi	182,2	212,6	186,0	211,0	236 ,1	129,6
Əlavə dəyər vergisi	4287,6	5185,1	4 598,4	4710,0	5 718,7	133,4
Aksiz	728,6	854,7	936,4	1 059,0	1 276,8	175,2
Mədən vergisi	137,4	133,8	129,5	138,0	142, 02	103,4
Sair daxilolmalar	11,9	12,6	86,8	65, 4	193,7	16,3 dəfə
Xərclər-cəmi	22731,6	24425,9	27 492,2	28 543,0	32 303,8	142,1
İqtisadiyyata	7822,7	7961,5	5 832, 8	5 947,4	7 067,9	90,4
Təhsil	1966,6	2195,7	3 034,7	3 277,6	3 886,6	197,6
Səhiyyə	709,9	873,6	1 716,5	1 378,6	1 708,7	2,4 dəfə
Sosial müdafiə və sosial təminat	2150,7	2281,0	3 237,0	3 692,7	3 728,5	173,4
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	299,5	335,8	426,0	418,1	463,1	154,6
elm	117,8	122,3	187,3	151,8	204,9	173,9
Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq	1316,4	1505,1	1 936,7	2 092,8	2 482,2	188,6
qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanması	627,4	774,5	1 051,8	1 062,4	1 481,8	2,4 dəfə

Cədvəl 2

Əsas makroiqtisadi göstəricilərin indeksləri, əvvəlki ilə nisbətən, faizlə [6]

Göstəricilər	2018	2019	2020	2021	2022
Ümumi daxili məhsul	101,5	102,5	95,8	105,6	104,6
Əhalinin gəlirləri	108,0	106,9	98,2	102,6	120,5
Orta aylıq nominal əməkhaqqı	103,0	116,6	111,4	103,4	114,7
Dövlət büdcəsinin gəlirləri	136,3	107,6	101,9	107,0	116,2
Dövlət büdcəsinin xərcləri	129,2	107,5	108,1	103,8	116,9
Əhalinin banklardakı əmanətləri	110,8	103,1	94,7	113,0	127,1
İqtisadiyyata kredit qoyuluşları	110,7	117,5	95,0	117,8	117,9
İstehlak qiymətləri indeksi	102,3	102,6	102,8	106,7	113,9

- dövlətin birbaşa maliyyəsilə tənzimləmə üsulları - investisiyaların bölgüsü, subsidiyalar və s.;
- istehsal fəaliyyətinin tənzimlənməsi üsulları - dövlət ehtiyacları üçün məhsulların tədarükü, sifarişlər, kvota və lisenziyalar və s.;
- dövlət sahibkarlığı.

Araşdırmalar göstərir ki, iqtisadi tənzimləmə siyasətinin səmərəli həyata keçirilməsi üçün dövlətin iqtisadiyyata təsirinin bütün tədbirlərini və qarşılıqlı əlaqəsini təmin etmək vacibdir. Onlar dövlətin sosial-iqtisadi strategiyasını əks etdirən sənədlər paketində formalaşdırılmalı və ümumiləşdirilməlidir.

Büdcənin tənzimlənməsinin forma və üsulları

Büdcənin tənzimlənməsində müxtəlif forma və üsullardan istifadə olunur. Ümumiyyətlə, dövlətin maliyyə və tənzimləmə fəaliyyəti çoxsaylı üsullarla həyata keçirilir - pul-kredit siyasəti, vergi siyasəti, dövlət borcunun idarə edilməsi, xarici ticarət siyasəti, ixrac axınlarının lisenziyalaşdırılması, gömrük vergisi, idxalın məhdudlaşdırılmasının qeyri-tarif üsulları və s. Araşdırmalara əsaslanaraq dövlət tənzimlənməsinin inzibati təsir üsullarının kifayət qədər səmərəli olduğunu və onlardan istifadənin zərurətə çevrildiyini qeyd etmək olar. İnzibati-normativ, inzibati-nəzarət funksiyaları dövlət idarəşiliyinin tərkib hissəsini təşkil edir.

Hər bir ölkədə müdaxilə ölçülərinin spesifik xüsusiyyətləri mövcuddur. Büdcə tənzimlənməsi həm hüquqi, həm də qeyri-hüquqi formalarda həyata keçirilir. Hüquqi forma maddi resursların bölüşdürülməsi və səmərəli şəkildə istifadəsini nəzərdə tutur. Bu məqsədlə dövlət maliyyə hüquqi aktlarından istifadə edir: ayrı-ayrı büdcə növləri arasında xərclərin bölgüsü; büdcə sisteminin hər bir həlqəsi üçün gəlirinin müəyyən edilməsi; vergilərin müəyyən edilməsi; geri qaytarılmayan vəsait əsasında büdcənin balanslaşdırılması; büdcə krediti şəklində büdcələrarası kreditləşmə; büdcə xərclərinin azaldılması [Финансы, 2014].

Büdcə tənzimlənməsinin əsas məqsədi sabit və tənzimləyici gəlirlərin müəyyən edilməsidir. Sabit gəlir qanuna uyğun olaraq tam və ya sabit müəyyən olunmuş payla daimi və ya uzunmüddətli müvafiq büdcəyə daxil olan gəlirdir. Bunlar gəlir və xərclərin tarazlaşdırılması məqsədilə büdcədən faiz ayırmaları şəklində büdcəyə köçürülən gəlirlərdir. Göstərilən üsullar büdcənin balansına nail olmaq üçün kifayət etmədikdə, birbaşa maliyyə dəstəyinin göstərilməsi üsullarından – subsidiya və subvensiyalardan istifadə edilir. Subvensiya konkret bir sahəni maliyyələşdirmək üçün nəzərdə tutulur. Subvensiya müəyyən müddət ərzində fəaliyyət göstərdikdə və ondan vaxtında istifadə edilmədikdə və ya başqa məqsədlər üçün istifadə edildikdə, onu verən orqana qaytarılır. Subvensiyaların verilməsi və istifadəsi şərtləri pozulduqda, onların ayrılmasına xitam verilir.

Subsidiya büdcədən fiziki və ya hüquqi şəxslərə məqsədli xərclərin birgə maliyyələşdirilməsi şərtləri ilə verilir. Subsidiyanın subvensiya ilə ortaq cəhəti ondan ibarətdir ki, hər iki fond növü məqsədyönlü xarakter daşıyır, həmçinin onlar geri qaytarılmayan əsaslarla həyata keçirilir. Bununla belə, subsidiya müəyyən bir tədbirin və ya büdcə proqramının maliyyələşdirilməsində daha yüksək büdcənin iştirak payını ifadə edir.

Büdcə tənzimlənməsinin ənənəvi üsulları ilə yanaşı transfert ayrılır ki, bu da regional maliyyə dəstəyi fondundan aşağı ərazi büdcələrinə vəsaitlərin köçürülməsini əks etdirir. Bu fond yuxarı büdcəyə faktiki daxil olan gəlirdən faiz ayırmalarından formalaşır. Büdcə tənzimlənməsi prosesində büdcəyə vəsaitin verilməsi geri qaytarılmalı əsaslarla, yəni kreditləşmə yolu ilə həyata keçirilə bilər. Büdcə krediti büdcə xərclərinin maliyyələşdirilməsi formasıdır ki, bu da əvəzli əsaslarla vəsaitlərin verilməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, qanunvericiliklə kreditə əsaslanan büdcə tənzimlənməsi üsulları xüsusi əhəmiyyət kəsb edir.

Büdcə krediti fərqləndirici xüsusiyyətləri ilə seçilir. Belə ki, büdcə kreditləri tərəflərin qarşılıqlı razılığı ilə müqavilə əsasında verilir. Nəzərə almaq lazımdır ki, bu müqavilə mülki hüquq deyil. Büdcə ssudaları və büdcə kreditləri geri qaytarılma və kompensasiya şərtləri ilə verilir. Qrantlar, subvensiyalar və subsidiyalar geri alınmazlıq əsasında və pulsuz verilir. Büdcə ssudasından büdcənin tənzimlənməsi metodu kimi istifadəsi büdcənin icrası mərhələsində həyata keçirilir.

Nəticə

Ümumilikdə dövlətin həyata keçirdiyi tənzimləmə vasitələrinin əsası fiskal siyasət hesab olunur. Fiskal siyasət dövlət xərcləri və vergi ilə bağlı olan tənzimləmə sistemidir. Bu siyasət xeyli dərəcədə hökumət xərclərinin, yəni dövlət idarə və orqanlarının, institutlarının saxlanılması və s. dinamikasından asılıdır. Dövlət müəyyən dövrdə müvafiq vergiqoyma sistemini tətbiq etmək və ya onu təkmilləşdirmək, vergi dərəcəsini müəyyənləşdirmək, quruluş və formasını dəyişmək, vergi güzəştləri qoymaq, ləğv etmək və s. vasitələrdən istifadə edərək əsaslı vəsait qoyuluşunu stimullaşdırır və ya məhdudlaşdırır, həm də əhalinin həyat səviyyəsinin formalaşmasına təsir göstərir. Bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi probleminin tədqiqi bu sahə ilə bağlı nəzəri və praktiki əhəmiyyətə malik olan mühüm nəticələr əldə etməyə imkan verir. Beləliklə, dövlətin iqtisadiyyata müdaxiləsi, tənzimləmə prosesində iştirakı obyektiv olaraq müəyyən edilmiş hədlərə malikdir ki, bundan kənarda iqtisadi stimulların zəifləməsi və bütün təsərrüfat mexanizminin səmərəliliyinin azalması baş verə bilər. Beləliklə, maliyyə üsullarından geniş istifadə ictimai istehsalın strukturunun dövlətin tələb etdiyi istiqamətdə dəyişdirilməsi üçün potensial imkanlar yaradır.

ƏDƏBİYYAT

1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu. [2 iyul 2002-ci il]
2. Государственные и муниципальные финансы: учебное пособие для бакалавров / Н.В.Уколова, Л. Н. Алайкина, Н. А. Новикова; ред. Н.В.Уколова. - Саратов: Буква, [2015. – 176 с.]
3. Капканщиков, Сергей Геннадьевич. Государственное регулирование экономики: [Текст] учебное пособие по спец. "Государственное и муниципальное управление"; рек. УМО / С.Г. Капканщиков. - 5-е изд., стер. - М.: Кнорус, [2013. - 520 с].
4. Финансы: учебник для студ. вузов по напр. подг. [080100] "Экономика" - бакалавр; рек. ФГБОУ ВПО "Гос. ун-т управления" / ред. Е. В. Маркина. - М.: Кнорус, [2014. - 432 с.]
5. www.stat.gov.az

Рашад Арзуман оглу Мустафаев
Докторант Азербайджанского Университета Кооперации
Электронная почта: resad_320_m@mail.ru

Финансовые методы регулирования экономического развития необходимость использования

Резюме

Целью исследования - является обеспечение баланса в развитии различных отраслей экономики в условиях новых реалий, что считается одним из приоритетов экономической политики государства. Финансовое регулирование имеет особое значение в реализации этой цели.

Методика исследования - Механизмами финансового регулирования являются бюджетный, налоговый, денежно-кредитный и др. относится к методам, средствам и инструментам ее регулирования. Участие государства в процессах регулирования экономического развития направлено, прежде всего, на формирование экономических стимулов**.**

Прикладная значимость исследования - Именно за счет использования финансового регулирования определяются возможности совершенствования структуры производства. Государственное регулирование экономики в условиях рыночной экономики осуществляется различными формами и методами на основе международного опыта. Как правило, количество и разнообразие методов и форм адаптируются к экономическим и социальным

условиям страны, географическим климатическим условиям, природным ресурсам, обычаям и традициям.

Результаты исследования – изучение проблемы государственного регулирования экономики в условиях рыночных отношений позволяет получить важные результаты теоретического и практического значения в данной области. Таким образом, широкое использование финансовых методов создает потенциальные возможности для изменения структуры общественного производства в требуемом государством направлении.

Оригинальность и научная новизна исследования - административные средства и инструменты государственного регулирования экономики не связаны с дополнительными финансовыми стимулами и финансовой поддержкой. Они основаны на силе государственной власти и включают полномочия упреждения, санкционирования и принуждения. Косвенные методы государственного регулирования в рыночной экономике затрагивают интересы субъектов экономической деятельности путем определения правил игры на рынке.

Ключевые слова: экономическое развитие, регулирование, денежно-кредитный, бюджет, налог, таможня, финансы.

Rashad Arzuman Mustafayev
PhD student of Azerbaijan Cooperation University

Financial methods in regulating economic development necessity of use

Summary

The aim of the research - It is to ensure balance in the development of various sectors of the economy in the conditions of new realities, which is considered one of the priorities of the state's economic policy. Financial regulation is of particular importance in the realization of this goal.

Research methodology - Financial regulation mechanisms are budget, tax, money-credit, etc. refers to the methods, means and tools of its regulation. The state's participation in processes to regulate economic development is primarily aimed at the formation of economic incentives.

Application significance of the research - It is through the use of financial regulation that opportunities for improving the structure of production are determined. State regulation of the economy in the market economy is carried out through various forms and methods based on international experience. As a rule, the number and variety of methods and forms are adapted to the country's economic and social conditions, geographical climate conditions, natural resources, and customs and traditions.

Results of the study – the study of the problem of state regulation of the economy in the conditions of market relations allows obtaining important results of theoretical and practical importance in this area. Thus, the widespread use of financial methods creates potential opportunities for changing the structure of public production in the direction required by the state.

The originality and scientific novelty of the research - the administrative means and tools of the state regulation of the economy are not related to additional financial incentives and financial support. They are based on the power of state power - they include the powers of preemption, authorization, and coercion. Indirect methods of state regulation in the market economy affect the interests of subjects engaged in economic activity by determining the rules of the game in the market

Key words: economic development, regulation, money-credit, budget, tax, customs, finance.

III BÖLMƏ
BÖYÜK QAYIDIŞ: İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN REİNTEQRASİYASI

UOT: 332.336

Rəvan Malik oğlu PAŞAZADƏ
doktorant
revan_pashazade@mail.ru

İslam Hacı oğlu İBRAHİMOV
i.e.d., professor, Əməkdar kənd təsərrüfatı işçisi
Bakı Biznes Universiteti
10.30546/4.71.73001.2024.010

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ (İAEƏ) İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – İAEƏ-də kiçik və orta sahibkarlığın (KOS) inkişaf etdirilməsi davamlı inkişafın təmin edilməsində əhəmiyyətli rol oynayır. İAEƏ-nin, o cümlədən KOS-ın inkişaf etdirilməsində investisiya resursları mühüm rola malikdir. İnvestisiya resurslarının çatışmazlığı əksər hallarda kapital azlığı prosesinin yaşanması ilə şərtlənir. Bu baxımdan İAEƏ-də iqtisadiyyatın inkişafına investitsiyaların cəlb edilməsi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyətə malikdir və tədqiqatın məqsədi İAEƏ-yə investisiyaların cəlb edilməsinin stimullaşdırılması istiqamətində zəruri mexanizmlərin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın metodologiyası - Tədqiqat işində təhlil, ümumiləşdirilmə metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsində investisiya resursları əhəmiyyətli rol oynasa da, lakin bununla belə bir sıra hallarda regionların ixtisaslaşma istiqamətinin daha çox kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı olması, eləcə də kənd təsərrüfatının spesifik xüsusiyyətləri baxımından daxili və xarici investisiyaların cəlb edilməsində risk amili meydana çıxdığından investisiyaların qoyulması ilə bağlı müəyyən problemlər də yaranır. Bu baxımdan investisiyaların cəlb edilməsi ilə bağlı zəruri stimullaşdırıcı mexanizmlərə ehtiyac vardır.

Tədqiqatın nəticələri – İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı investisiya qoyuluşlarına mənfi təsir edən amillərin aradan qaldırılması və eləcə də investisiya cəlb edilməsi ilə bağlı stimullaşdırıcı mexanizmlərin işlənməsi sahəsində tövsiyələr və təkliflər işlənib hazırlanmışdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – İAEƏ-yə investisiyaların cəlb edilməsi ilə bağlı zəruri stimullaşdırıcı mexanizmlərdən istifadə edilməsi və o cümlədən vergi güzəştlərinin və azadolmaların verilməsi, kreditləşmə ilə bağlı faiz dərəcələrinin aşağı salınması və digər bu kimi amillərin və vasitələrin rolu müəyyənləşdirilmişdir.

Açar sözlər: İAEƏ, regionların sosial-iqtisadi inkişafı, İAEƏ-yə investisiyaların cəlb edilməsi, kiçik və orta biznes, investisiyaların stimullaşdırılması

Giriş

2020-ci ilin 27 sentyabrından etibarən 44 günlük Böyük Vətən müharibəsi nəticəsində Ali Baş Komandan İlham Əliyev cənablarının bilavasitə rəhbərliyi və silahlı qüvvələrimizin şücaəti nəticəsində 30 ilə yaxın bir müddət ərzində Azərbaycanın işğal edilmiş tarixi torpaqları geri qaytarıl-

mışdır. Hazırda həmin ərazilərdə dinc quruculuq işləri və eləcə də ərazilərin minadan təmizlənməsi prosesi uğurla davam etdirilməkdədir. Bununla belə, həmin ərazilərdə infrastruktur sisteminin yaradılmasına istiqamətlənmiş zəruri tədbirlər həyata keçirilir, dövlət tərəfindən infrastrukturun inkişaf etdirilməsi ilə bağlı investisiyalar yönəldilməkdədir. İAEƏ tarixən Azərbaycanın ərazisi olmaqla yanaşı, ixtisaslaşma baxımından kənd təsərrüfatı, sənaye, turizm sahəsində əhəmiyyətli rola malikdir. Fikrimizcə, qloballaşma şəraitində həmin ərazilərdə infrastruktur sisteminin inkişaf etdirilməsi və iqtisadiyyatın müxtəlif sahələrinə investisiyaların qoyuluşunun həyata keçirilməsi ölkənin davamlı inkişafına əlverişli şərait yaratmaqla yanaşı rəqabət qabiliyyətli iqtisadi artımın təmin edilməsində də əhəmiyyətli rol oynaya bilər.

İAEƏ-də KOS-ın inkişaf etdirilməsi iqtisadi inkişafın səmərəliliyinin, daxili iqtisadiyyata hesablanmış əhali məşğulluğunun təmin edilməsinə və gəlirlərin artırılmasına müsbət təsir göstərə bilər. Bu məqsədlə kiçik investisiya qoyuluşlarının həyata keçirilməsi, eləcə də sahibkarlığın bütün formaları üçün zəruri təməl prinsiplərin yaradılması mühüm əhəmiyyətə malikdir. Fikrimizcə, İAEƏ-də investisiya qoyuluşları üçün zəruri fundamental prinsiplər reallaşdırılmalıdır ki, bu prinsiplərə ilk növbədə ərazinin minalardan təmizlənməsi, infrastruktur sisteminin formalaşdırılması, əhalinin qayıdışının təmin edilməsi və iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsi şamil edilə bilər. Tarixi təcrübə sübut edir ki, İAEƏ-nin potensialı nəzərə alınmaqla sahibkarlığın inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlər iri sahibkarlığın inkişaf etdirilməsini və eləcə də KOS-ın yaradılmasını təmin etməlidir. İAEƏ-də iri sahibkarlıq subyektlərinin formalaşdırılması həmin ərazidə istehsal edilən məhsulların xarici bazarlara çıxış imkanlarını genişləndirməsinə və “Qarabağ” brendi altında istehsal edilən məhsullara geniş istehlakçı kütləsinin təmin edilməsinə əlverişli şərait yarada bilər. Fikrimizcə, bütün bunlar ölkədə davamlı rəqabət qabiliyyətli iqtisadi inkişafın ən mühüm parametrləri ola bilər.

İAEƏ-də iqtisadiyyatın ixtisaslaşma istiqamətlərinin təhlili. İAEƏ ixtisaslaşma baxımından çoxşaxəli xarakterə malikdir. Bu baxımdan İAEƏ-də iqtisadi inkişafın stimullaşdırılması iqtisadiyyatın şaxələndirilməsi baxımından böyük strateji əhəmiyyətə malikdir. İAEƏ-nin ixtisaslaşma istiqamətləri içərisində ənənəvi ixtisaslaşma sahəsi, o cümlədən kənd təsərrüfatı və emal sənayesinin inkişaf etdirilməsi ilə bağlı kifayət qədər geniş imkanlar mövcud olmuşdur. Bundan əlavə bərpa olunan enerji mənbələrindən istifadə edilməsi, turizmin inkişaf etdirilməsi sahəsində də həmin regionun kifayət qədər geniş potensialları mövcuddur. Qeyd etmək lazımdır ki, respublikamızda İAEƏ-nin iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 07 iyun 2021-ci il tarixli “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Fərmanına müvafiq olaraq İAEƏ-nin ərazisi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu kimi təsnifləşdirilmişdir. [1].

Nəzərə almaq lazımdır ki, İAEƏ-nin iqtisadiyyatının inkişaf etdirilməsi və həmin ərazilərin sosial-iqtisadi baxımdan Azərbaycanın milli iqtisadiyyatına reinteqrasiya prosesinin həyata keçirilməsi üçün ilk növbədə təhlükəsizlik tədbirlərinin genişləndirilməsi və əhalinin qayıdışının təmin edilməsi ilə bağlı məsələlər xüsusilə önəmlidir. Bu baxımdan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamında qeyd edilir ki, Azərbaycan Respublikasında həyata keçirilən məqsədyönlü və geniş miqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edilir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. [2].

Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair milli prioritetlər” qəbul edilmişdir ki, həmin prioritetlərdə də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair 5 milli prioritet müəyyənləşdirilmişdir. Bu prioritetlərdə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması, dinamik inkliziv və sosial ədalətə əsaslanan cəmiyyətin yaradılması, rəqabətli insan kapitalı və

müasir innovasiyalar məkanının yaradılması, İAEƏ-yə böyük qayıdış, təmiz ətraf mühit və yaşıl artım ölkəsinin formalaşdırılması öz əksini tapmışdır. [3].

İAEƏ-nin ixtisaslaşma istiqaməti təbii iqlim şəraitinin özünəməxsus xüsusiyyətlərindən doğur. Bu ərazi tarixən ixtisaslaşmış kənd təsərrüfatı ərazisi olmuşdur. Kənd təsərrüfatının xüsusi ilə taxılçılıq, meyvəçilik, tərəvəzçilik, üzümçülük sahələri, eləcə də heyvandarlığın demək olar ki, bütün sahələri ərazidə geniş inkişaf imkanlarına malikdir. Taxılçılıq xüsusilə Ağdam-Füzuli rayonlarında daha yüksək məhsuldarlığa malikdir. Şərqi Zəngəzur iqtisadi rayonunda isə heyvandarlığın inkişafı ilə bağlı böyük perspektivlər mövcuddur. Bundan əlavə, həmin ərazilərdə xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonunda qeyri-ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, o cümlədən arıçılığın və balçılığın inkişaf etdirilməsi ilə bağlı böyük potensiallar mövcuddur. Bu potensiallar Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam və Füzuli rayonlarının dağlıq hissələrində də mövcuddur. Bütün bunlar İAEƏ-nin ixtisaslaşdırma istiqaməti baxımından rəqabət qabiliyyətli məhsul istehsal etməsinə əlverişli şərait yarada bilər. Fikrimizcə, zəruri infrastruktur sistemlərinin yaradılması və adı çəkilən sahələrə investisiya qoyuluşlarının həyata keçirilməsi nəticəsində yüksək məhsuldarlığa malik təsərrüfat subyektlərinin formalaşdırılması mümkündür ki, bu da nəinki daxili bazarın kənd təsərrüfatı və ərzaq məhsulları ilə doldurulmasına və eləcə də xarici bazarlara rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixracına əlverişli şərait yarada bilər. Bütün bunlar kənd təsərrüfatı ilə yanaşı, emal sənayesi müəssisələrinin də inkişaf etdirilməsini təmin etməlidir. Emal sənayesi müəssisələrinin, xüsusi ilə şərabçılıq sənayesinin inkişaf etdirilməsini, ət-süd sənayesi komplekslərinin yaradılmasını özündə ehtiva edir.

İAEƏ-nin iqtisadi potensialı içərisində bərpa olunan enerji mənbələrinin rolu əhəmiyyətli dərəcədə yüksəkdir. Akademik Z.Səmədzadənin fikrincə, enerji amili yüz illərdir insanların mövcudluğunun davam etdirilməsində ən önəmli və təməl qaynaqlar arasında öz yerini qorumuşdur. Günümüzdə də bu amil öz əhəmiyyətini qorumağa davam edərək ölkələrin inkişafında əsas strateji rol oynamaqdadır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun isə çox böyük enerji potensialı var. Bu potensialın hərəkətə gətirilməsi həm bütövlükdə Azərbaycanın generasiya gücünü artıraraq hər bir enerji vahidinə daha keyfiyyətli xidmətin göstərilməsinə imkan verəcək və həm də respublikamızın energetika bazasında bu regionların yerini və rolunu təmin edəcək. [4, s.584]

1980-ci illərdə regionda bitkiçilik məhsullarından əsasən taxıl məhsulları və üzüm istehsalı üstünlük təşkil etmişdir. Həmin dövrlərdə Qarabağ və ətraf rayonlar ölkə üzrə taxıl istehsalının 13,9%-nə, üzüm istehsalının isə 25,5%-nə malik idi. Tədarük və logistika infrastrukturları ilə bərabər bölgədə istehsal strukturuna müvafiq aqroemal müəssələrinin yaradılması da mühüm tədbirlərdəndir. Azad olunmuş ərazilərdə südçülüyün, üzümçülüyün və meyvəçiliyin inkişaf perspektivlərini nəzərə alınmaqla məhz bu sahələr üzrə emal müəssisələrinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Həmçinin taxılçılığın inkişafına uyğun olaraq un dəyirmanlarının, heyvandarlığın inkişafı əsasında isə sənaye üsulu ilə yem istehsalı və ilkin dəri xammalı emalı müəssisələrinin qurulması da nəzərə alına bilər [5, s. 31-33].

Müəllifin fikirləri əsasında hesab etmək olar ki, xüsusilə aqrar iqtisadiyyatın modernləşdirilməsi hesabına kənd təsərrüfatında rəqabət qabiliyyətli məhsul istehsalını artırmaq və həmin məhsulların xarici bazarlara çıxışı istiqamətində zəruri tədbirləri gerçəkləşdirmək mümkündür. Təbii ki, bütün bunlar aqrar bazar infrastrukturunun inkişaf etdirilməsi və eləcə də kənd təsərrüatı məhsulları istehsalının keyfiyyətinin yüksəldilməsi hesabına mümkün ola bilər. Fikrimizcə, İAEƏ-də ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarının istehsal imkanları kifayət qədər genişdir və bu imkanlar hesabına ölkədə aqrar məhsulların ixracını artırmaq mümkündür və bütün bunlar eyni zamanda respublikamızda qeyri-neft məhsullarının ixracının genişləndirilməsinə də əlverişli şərait yarada bilər.

İAEƏ-də investisiyaların cəlb edilməsinin stimullaşdırılmasının xarakterik xüsusiyyətləri

İAEƏ-nin özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur ki, bu spesifik xüsusiyyətlər investisiyaların cəlb edilməsinə də təsir göstərir. Belə ki,respublikamızın digər ərazilərinə investisiyaların cəlb edilməsi əsas etibarı ilə bazar konyunkturunun spesifik xüsusiyyətləri nəzərə alınmaqla

həyata keçirilir. Məsələn, respublikamızda neft sektoruna investisiyaların qoyuluşu sahənin cəlbediciliyi və beynəlxalq bazar konyunkturunda rolu nəzərə alınmaqla gerçəkləşdirilir. Bu baxımdan iqtisadiyyatın sahə və ərazi strukturları içərisində Bakı şəhərinin rolu yüksəkdir. Daha doğrusu, Bakı şəhəri Xəzər dənizinin sahillərində yerləşdiyindən ölkənin neft sektoruna investisiya qoyuluşu məhz bu şəhərdə reallaşdırılır və bu zaman təhlükəsizlik tədbirlərinə önəm verilir. Lakin bununla belə İAEƏ-nin spesifik xüsusiyyətləri, o cümlədən sərhəd ərazilərdə yerləşməsi hazırkı dövrdə bərpa prosesinin davam etdiyi və minalardan təmizlənmə prosesinin gerçəkləşdiyi şəraitdə həmin əraziyə investisiya qoyulması müəyyən risklər tələb edir. Respublikamızın bu ərazilərinə investisiya qoyuluşlarının həyata keçirilməsi, ərazilərin minalardan təmizlənməsi və infrastrukturun yaradılması prosesi bilavasitə dövlət dəstəyi və daha doğrusu dövlət tərəfindən vəsait qoyuluşu hesabına həyata keçirilir. İqtisadçı alimlər Nazim Müzəffərli və Eldar İsmayılovun 2010-cu ildə dərc etdirdiyi “Azərbaycanın postkonflikt ərazilərinin bərpası: konseptual əsaslar” adlı monoqrafiyasında qeyd edilir ki, konfliktsonrası bərpa üzrə layihələrdə iştirakı müşayiət edən siyasi risklər bir sıra xarici investorlar üçün onların yol verə biləcəyindən daha yüksək ola bilər. Belə postkonflikt regionlara adətən 2 tip xarici investorlar gəlir. Birincilər, qarışıqlıqdan istifadə edib dövlət resursları və donor vəsaitləri hesabına tez və asanlıqla varlanmaq ehtirası ilə hərəkət edən və niyyətləri o qədər də düz olmayanlardır, ikincilər isə hər kəsin tanıyıb qəbul etdiyi beynəlxalq səviyyədə hörmət qazanmış iri şirkətlərdir. Belə şirkətlərin sadəcə adı (brendi) siyasi risklərə və başqa (biznesə nəzərən) risklərə qarşı bir növ “qalxan” rolu oynayır. Azərbaycan təbii ki, yalnız ikincilərlə əməkdaşlıq etməyə can atacaqdır, lakin bu halda göz önünə almaq lazımdır ki, belə iri şirkətlər üçün ancaq irimiqyaslı, milyonlarla dəyəri olan layihələr kommersiya marağı doğura bilər. Sonuncu mülahizə zəminində belə nəticəyə gəlmək mümkündür ki, xarici şirkətlərin iştirak edəcəyi layihələr əsas etibarı ilə aşağıdakı sahələrə aid olacaqdır:

- bəzi həyat təminatlı sistemlərin (yaşayış fondunun, su təchizatının və enerji sisteminin) bərpası;
- nəqliyyat infrastrukturunun (dəmir və avtomobil yollarının, hava limanlarının) dirçəldilməsi;
- istehsal infrastrukturu quruculuğu;
- yeni telekommunikasiya sistemlərinin yaradılması. [6. səh. 228, 229]

Müəlliflərin qeyd etdikləri fikirlərlə bağlı razılaşdığımız və razılaşmadığımız məqamlar da mövcuddur. Razılaşdığımız məqamlar ondan ibarətdir ki, investorların cəlb edilməsi ilə bağlı ikili istiqamətlə tamamilə razıyıq. Belə ki, adətən elə investorlar vardır ki, onlar doğrudan da qarışıqlıqdan istifadə edərək donor təşkilatların və dövlət vəsaitlərinin talanmasına daha çox meyilli olurlar və bu da ölkəmiz üçün təbi ki, strateji maraqlar baxımından əhəmiyyətli deyildir və ölkənin iqtisadi təhlükəsizliyinə mənfi təsir göstərə bilər. İkinci istiqamət isə, daha doğrusu, brend təşkilatların, o cümlədən ölkəmizlə sırf iqtisadi əməkdaşlıq həyata keçirən və ölkəmizin siyasi müstəqilliyini dəstəkləyən ölkələrin qoyduğu investisiyalar daha önəmlidir və bu baxımdan qardaş Türkiyənin və digər ölkələrin investisiyalarına önəm verilməsi xüsusilə mühüm əhəmiyyət kəsb edir. Razılaşmadığımız məqamlar ondan ibarətdir ki, artıq respublikamızda hava nəqliyyatı, dəmiryol nəqliyyatı ilə bağlı infrastrukturların inkişaf etdirilməsi, daha doğrusu istehsal infrastrukturunun inkişaf etdirilməsi istiqamətində bilavasitə dövlət investisiyalarına xüsusi önəm verilmişdir və bu baxımdan Füzuli rayonunda, Zəngilan rayonunda hava limanlarının tikintisini xüsusilə qeyd etmək olar. Adı çəkilən hava limanları İAEƏ-yə müxtəlif tikinti obyektlərinin gerçəkləşdirilməsində və eləcə də əhalinin çatdırılmasında önəmli infrastruktur sistemi kimi xarakterizə oluna bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, İAEƏ-nin ixtisaslaşma istiqamətini kənd təsərrüfatı və emal sənayesi, eləcə də turizm, qeyri-ənənəvi kənd təsərrüfatı sahələri, o cümlədən arıçılıq və balıqçılıq və ən nəhayət mineral suların istehsalı ilə bağlı sahələr təşkil etdiyindən bu sahəyə investisiya qoyuluşlarının da özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur. Əməkdar kənd təsərrüfatı işçisi i.e.d., professor İ.İbrahimovun fikrincə, aqrar sahədə istehsalın iqtisadi səmərəliliyi sahəyə investisiya qoyuluşunun zəruriliyi və spesifik xüsusiyyətləri ilə əlaqədardır. Çox halda investisiyanın maliyyələşdirilməsinə cəlb edilən bank kreditləri də mühüm rol oynayır, lakin sahibkarlıq fəaliyyətinin gəlirləri bank kreditlərinə görə müəyyənləşdirilən faiz dərəcəsindən asılı olaraq

investisiya qoyuluşlarında maraqlı olmurlar. Kənd təsərrüfatı kifayət qədər riskli sahə olduğu üçün investisiyanın həcminin artırılmasına stimul az olur. Aqrar sahənin spesifik xüsusiyyətləri ilə əlaqədar sahəyə investisiya qoyuluşlarına maraq aşağıdır. Buna baxmayaraq hazırda İAEƏ-də investisiya ayrılması daha vacibdir. Regionlarda aqrar sahənin investisiya qoyuluşlarına əsasən aşağıdakı amillər təsir göstərir:

- sahibkarların fəaliyyətinin maliyyə nəticələrinin müxtəlifliyi;
- bankların kreditlərə görə müəyyən etdikləri faiz dərəcələri;
- aqrar istehsalda amortizasiya ayırmalarının vəziyyəti;
- aqrar sahədə sahibkarların istehsal və xidmətlər üzrə layihələrinin maliyyələşdirilməsinin kifayət qədər dəstəklənməməsi;
- aqrar sahədə yeni bağların salınması, meliorasiya və irriqasiya işlərinin həyata keçirilməsi;
- obyektlərin yaradılması və qurulması miqyasının çoxluğu və s. [7, s. 102].

Fikrimizcə, müəllifin investisiya qoyuluşlarına təsir edən amillər kimi sistemləşdirdiyi amillər İAEƏ üçün də keçərlidir. Belə ki, adı çəkilən ərazilərin kənd təsərrüfatı üzrə ixtisaslaşması və emal sənayesinin inkişafı ilə bağlı proseslərin mümkünlüyü sahəyə özünəməxsus spesifik yanaşmanı zəruri edir. Bu spesifik yanaşma ilk növbədə İAEƏ-yə investisiya qoyuluşlarına dövlət dəstəyinin göstərilməsini özündə əks etdirir. Məsələ burasındadır ki, İAEƏ-yə investisiya qoyuluşlarının həyata keçirilməsi zamanı dövlət dəstəyinin göstərilməsi xüsusilə xarici investisiyaların cəlb edilməsi üçün zəruri mexanizmlərin hərəkətə gətirilməsini tələb edir. Bu baxımdan, fikrimizcə, vergi güzəştlərinin verilməsi, vergi tətillərinin həyata keçirilməsi və digər bu kimi amillər vacib cəhətlərdəndir.

İ.e.d., professor E.Quliyev yazır ki, Qarabağın davamlı inkişafı baxımından qarşıya konkret vəzifələr qoyulub. İlk olaraq 2021-ci ilin dövlət büdcəsindən Qarabağın bərpası üçün 2,2 milyard vəsait ayrılmışdır. Qeyd olunan ərazilərin bərpası üçün gələcək dövrlərdə ayrılacaq vəsaitin həcminin artırılması gözlənilməndir. Bu proseslərə yerli və xarici investisiyaların cəlb edilməsi bərpa prosesini daha da gücləndirə bilər. Artıq Azərbaycanda dostluq və qardaşlıq şəraitində fəaliyyət göstərən bir sıra ölkələr, o cümlədən Türkiyə, Pakistan, İtaliya, İsrail kimi ölkələrin şirkətləri dirçəliş proqramlarında iştirak etməkdədir. Türkiyənin tikinti şirkətləri Qarabağın dirçəlişi layihələrinə Əhmədbəyli-Füzuli-Şuşa yolunun çəkilişi ilə başlayıb. Fikrimizcə, yaxın perspektivdə bir çox digər ölkələrin şirkətləri də təbii sərvətlərlə zəngin olan Qarabağ və onun ətraf ərazilərinə investisiya qoymaqda maraqlı olacaqlarını bildirəcəklər. [8, s. 91]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı, eyni zamanda əlavə etmək istərdik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının istər beynəlxalq nəqliyyat dəhlizləri baxımından əhəmiyyətini, eləcə də təbii resurslarla zənginliyini, ixtisaslaşma baxımından özünəməxsus üstünlüklərini, rəqabətə davamlı iqtisadi artım perspektivlərini nəzərə alaraq investisiyaların cəlb edilməsi üçün zəruri stimullaşdırılma tədbirlərinin həyata keçirilməsi də vacibdir.

İAEƏ-yə investisiyaların stimullaşdırılmasının prioritet istiqamətləri

İAEƏ-yə investisiya qoyuluşlarının həyata keçirilməsi ərazinin iqtisadi inkişafının sürətləndirilməsində və ölkə iqtisadiyyatına inteqrasiyanın gerçəkləşdirilməsində əhəmiyyətli rol oynaya bilər. Ölkənin iqtisadi inkişafının sürətləndirilməsi və həmin ərazidə infrastruktur sistemlərinin inkişafı və eləcə də daxili və xarici bazara sürətli inteqrasiyasının gerçəkləşdirilməsi məhz investisiya qoyuluşlarının həyata keçirilməsindən bilavasitə asılıdır. Bu baxımdan İAEƏ-yə investisiya qoyuluşlarının stimullaşdırılması üçün zəruri tədbirlər həyata keçirilməlidir və bu tədbirlər dövlət tərəfindən gerçəkləşdirilən zəruri tənzimlənmə tədbirləri və eləcə də stimullaşdırılma mexanizmləri ilə müşayiət olunmalıdır. İAEƏ-də investisiyaların stimullaşdırılmasının prioritetlərinə aşağıdakıları şamil etmək olar:

- İAEƏ-yə cəlb edilən daxili və xarici investisiyaları stimullaşdırmaq məqsədi ilə vergi güzəştlərinin tətbiq edilməsi;
- xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonunda mineral su ehtiyatlarının mövcudluğunu nəzərə alaraq bu regionda mineral suların istehsalının qablaşdırılmasının və xarici bazarları çıxışının

təmin edilməsi məqsədi ilə dövlət və özəl tərəfdaşlığının inkişaf etdirilməsi;

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında balıqçılıq, xüsusilə də forel balıqçılığının inkişaf etdirilməsi məqsədilə özəl investisiyaların cəlb edilməsi imkanlarının təmin edilməsi;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı və emal sənayesinin inkişafında mütərəqqi investisiya layihələrinin dəstəklənməsi, o cümlədən innovativ vasitələr hesabına kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinə istiqamətlənmiş layihələrin stimullaşdırılması;
- İAEƏ-də bərpa olunan enerji mənbələrindən istifadə edilməsi ilə bağlı innovativ texnologiyaların cəb edilməsini həyata keçirən xarici şirkətlərin fəaliyyətinin stimullaşdırılması;
- xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonunda, o cümlədən Qarabağın mərkəzi sayılan Şuşa şəhərində turizm komplekslərinin yaradılmasına istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi, Şuşa şəhərinin Azərbaycanın turizm paytaxtı elan edilməsi baxımından zəruri investisiya qoyuluşlarının həyata keçirilməsi, bu sahədə azad rəqabətin dəstəklənməsi;
- Şərqi Zəngəzur iqtisadi rayonunun ixtisaslaşma istiqamətini nəzərə almaqla həmin ərazilərdə ətlik maldarlığın inkişafı və yemçilik sahələrinin inkişaf etdirilməsi ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsi və bu sahəyə xarici investisiya qoyuluşlarının stimullaşdırılması;
- İAEƏ-də bazar infrastrukturlarının və eləcə də logistik mərkəzlərin yaradılması ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsi ilə bağlı bu sahəyə xarici investorların cəlb edilməsi;
- İAEƏ-yə turizm cəlbediciliyinin stimullaşdırılması məqsəsi ilə cəlb edilən xarici investorlara ilk on il müddətinə vergidən azad olunma prosedurlarının qoyulması və eləcə də həmin ərazilərdə turizm cəlbediciliyinin stimullaşdırılması məqsədilə cəlbedici qiymətlər sisteminin tətbiq edilməsi;
- İAEƏ-yə turizm cəlbediciliyinin stimullaşdırılması məqsədi ilə xaricdən gələn və eləcə də daxili turistlərin gəlişini stimullaşdırmaq məqsədi ilə aşağı gəliş qiymətlərinin tətbiq edilməsi.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 07 iyun 2021-ci il tarixli Fərmanı
2. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı
3. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair milli prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir
4. Z.Ə.Səmədzadə, Qarabağ iqtisadiyyatı 100 ildə, Bakı 2022, 856 səh.
5. F.F.Fikrətzadə. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması, Kənd təsərrüfatının iqtisadiyyatı - 2020, №4 (34) 23-38 səh.,
6. Nazim Müzəffərli, Eldar İsmayılov, Azərbaycanın postkonflikt ərizələrinin bərpası: konseptual əsaslar, Bakı 2010, 270 s.
7. İ.H.İbrahimov. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri, monoqrafiya, Bakı-2022, 240 s.
8. E.A.Quliyev. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu, monoqrafiya, Bakı 2023, 320 səh.

Раван Малик оглы Пашазаде
Докторант
Бакинский Университет Бизнеса
revan_pashazade@mail.ru
Ислам Гаджи оглы Ибрагимов,
доктор экономических наук, профессор,
Заслуженный работник сельского хозяйства

Направления стимулирования привлечения инвестиций на освобожденные территории (ЕАЭС)

Резюме

Цель исследования – Развитие малого и среднего предпринимательства (МСП) в ИАЭ играет важную роль в обеспечении устойчивого развития. Инвестиционные ресурсы играют важную роль в развитии ЕАЭС, в том числе малого и среднего бизнеса. Дефицит инвестиционных ресурсов зачастую обусловлен тем, что переживается процесс ожесточения капитала. С этой точки зрения реализация необходимых мер по привлечению инвестиций в развитие экономики имеет большое значение в МАГАТЭ, а целью исследования является разработка необходимых механизмов стимулирования привлечения инвестиций в МАЭС.

Методология исследования - в исследовательской работе использовались методы обобщения анализа.

Значимость внедрения исследования: – Хотя инвестиционные ресурсы играют важную роль в развитии предпринимательства в ЕАЭС, в ряде случаев возникают определенные проблемы, связанные со специализацией регионов, в основном за счет производства сельскохозяйственной продукции, а также фактором риска при привлечении отечественные и иностранные инвестиции с учетом особенностей сельского хозяйства. В связи с этим возникает необходимость в необходимых механизмах стимулирования привлечения инвестиций.

Результаты исследования: – Разработаны рекомендации и предложения в области устранения факторов, негативно влияющих на инвестиции в развитие предпринимательства в ЕАЭС, а также разработки стимулирующих механизмов, связанных с привлечением инвестиций.

Оригинальность и научная новизна исследования – Определена роль таких факторов и средств, как использование необходимых стимулирующих механизмов привлечения инвестиций в ЕАЭС, а также предоставление налоговых льгот и освобождений, снижение процентных ставок, связанных с кредитованием и других подобных факторов.

Ключевые слова: ЕАЭС, социально-экономическое развитие регионов, привлечение инвестиций в ЕАЭС, малый и средний бизнес, стимулирование инвестиций

Ravan Malik Pashazade
PhD student
Baku Business University
revan_pashazade@mail.ru
Islam Haci Ibrahimov,
doctor of economic sciences, professor,
Honored agricultural worker

Directions of stimulatıon of attraction of investments in the liberated territories (EAEU)

Summary

The purpose of the study – the development of small and medium-sized enterprises (SMEs) in the IAE plays an important role in ensuring sustainable development. Investment resources play an important role in the development of the EAEU, including SMEs. The shortage of investment resources is often due to the fact that the process of capital bitterness is experienced. From this point of view, the implementation of the necessary measures to attract investments to the development of the economy is of great importance in the IAEU, and the purpose of the study is to develop the necessary mechanisms to stimulate the attraction of investments to the IAEU.

Methodology of the research -in the research work, methods of generalization of analysis were used.

Importance of integration of research -although investment resources play an important role in the development of entrepreneurship in the EAEU, in a number of cases there are certain problems associated with the specialization of the regions, mainly due to the production of agricultural products, as well as the risk factor in attracting domestic and foreign investments in terms of specific features of Agriculture. In this regard, there is a need for the necessary stimulating mechanisms for attracting investments.

Results of the research – recommendations and proposals in the field of elimination of factors negatively affecting investment in the development of entrepreneurship in the EAEU, as well as the development of stimulating mechanisms related to attracting investments have been developed.

Originality and scientific innovation of the research – The role of such factors and means as the use of the necessary stimulating mechanisms for attracting investments to the EAEU, as well as the provision of tax benefits and exemptions, lowering interest rates related to lending and other similar factors has been determined.

Keywords: EAEU, socio-economic development of Regions, attraction of investments to EAEU, small and medium-sized businesses, stimulation of investments

UOT: 332

Hüseyn Rəyasət oğlu İSMAYILOV
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
e-poçt: ismayilov199351@gmail.com
10.30546/4.71.73001.2024.011

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İNKİŞAF PRİORİTETLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – İşğaldan azad edilmiş ərazilərin inkişaf prioritetləri ilə bağlı araşdırmanın məqsədi davamlı bərpa və artımı asanlaşdırmaq üçün diqqət və investisiya tələb edən əsas sahələri müəyyən etməkdir. Bu, hərtərəfli inkişaf strategiyalarının formalaşdırılması üçün infrastruktur ehtiyaclarının, iqtisadi imkanların, sosial xidmətlərin və ətraf mühitin reabilitasiyasının qiymətləndirilməsini əhatə edir.

Tədqiqat metodologiyası – Tədqiqat metodologiyası məlumatların təhlili və iştiraklı planlaşdırma prosesləri daxil olmaqla multidissiplinar yanaşmanı əhatə edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Resursların effektiv şəkildə bölüşdürülməsi, beynəlxalq tərəfdaşların dəstəyinin səfərbər edilməsi və inklüziv və dayanıqlı inkişafı təşviq etmək üçün məqsədyönlü müdaxilələrin həyata keçirilməsi üçün təsirli anlayışlar və təlimatlar təqdim edir.

Araşdırma nəticələri – Tədqiqat işğaldan azad edilmiş ərazilərin infrastruktur ehtiyacları, iqtisadi potensialı, sosial dinamikası və ekoloji problemləri ilə bağlı hərtərəfli nəticələr verir. Araşdırmamız investisiya üçün prioritet sektorları müəyyən edir, iş yerlərinin yaradılması və digər məsələlərə diqqət yetirir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Tədqiqatın orijinallığı və elmi yeniliyi onun xüsusi coğrafi kontekstlərdə münaqişədən sonrakı bərpa və inkişafa diqqət yetirməsindədir. Cəmiyyətlərin yenidən qurulması və münaqişələrdən təsirlənən ərazilərdə ekosistemlərin bərpası kimi mürəkkəb problemlərin həlli üçün yeni bilik və metodologiyalara töhfə verir.

Açar sözlər: azad edilmiş ərazilər, iqtisadi istiqamət, inkişaf prioritetləri, yenidən quruculuq.

Giriş

İqtisadiyyatı modernləşdirmək üçün texnoloji innovasiyalardan istifadə, süni intellekt, robototexnika, informasiya və kommunikasiya və kosmos kimi yüksək texnologiyalı sahələrə diqqət yetirmək bugünkü dünyada müvafiq iqtisadi sektorların canlandırılması və artımının sürətləndirilməsi üçün əsas tendensiyalar hesab olunur. Sənaye 4.0 İnqilab Platformasının yaratdığı çətinliklərə cavab olaraq elmtutumlu, rəqabətqabiliyyətli yüksək texnologiyalı məhsulların istehsalı qlobal iqtisadiyyatın əsas sektoru kimi meydana çıxdı.

Azərbaycan cəmiyyətinin və iqtisadiyyatının Sosial-İqtisadi İnkişafının Milli Prioritetlərində 30 illik Ermənistan işğalından sonra işğaldan azad edilmiş ərazilərin iqtisadiyyata reinteqrasiyası, yeni nəqliyyat dəhlizlərinin yaradılması və bu imkanlardan maksimum yararlanaraq Azərbaycanın inkişafına təkan verilməsi vurğulanır. Sənaye 4.0 İnqilab Platformasının tələblərinə uyğun olaraq, Dünya İqtisadi Forumunda müzakirə edildiyi kimi qlobal iqtisadiyyatın artımının əsas istiqamətləridir. Azərbaycanda baş verən son iqtisadi dəyişikliklərin davamlılığını və səmərəliliyini təmin etmək üçün dövlət proqramları və inkişaf planları yaradılır. Bu yaxınlarda təsdiq edilmiş sosial-iqtisadi inkişafın Milli Prioritetlərində vurğulanır ki, yeni azad edilmiş torpaqların erməni hökmranlığından reinteqrasiyası və yeni nəqliyyat-logistika dəhlizlərinin yaradılması Azərbaycanın inkişafına əhəmiyyətli dərəcədə təkan verəcəkdir.

İşğaldan azad edilmiş ərazilərin inkişaf prioritetlərinin seçilməsi

Azərbaycan müstəqil dövlət kimi iqtisadi, sosial, siyasi və mədəni tərəqqi yolunda mühüm mərhələdədir. Bütün bu keçid mərhələsində ölkədə həyata keçirilən düşünülmüş sosial-iqtisadi dəyişikliklər milli iqtisadiyyatın yüksəldilməsinə və müasirləşməsinə səbəb olmuşdur. Ölkəmizin

iqtisadiyyatı son 17 ildə dinamik inkişaf sayəsində üç dəfədən çox artmışdır. İqtisadi artımı ilə yoxsulluğun əhəmiyyətli dərəcədə azalmasına səbəb olan güclü sosial-iqtisadi infrastruktur yaradılmışdır.

Azərbaycanın artan iqtisadi təsirləri ölkəyə Cənubi Qafqaz və qonşu regionların iqtisadiyyatını transformasiya etmək potensialına malik mühüm təşəbbüslər irəli sürməyə imkan verib. Ölkəmiz regional iqtisadiyyatın əsas sürücüsüdür və özünü qlobal enerji təhlükəsizliyində yüksək etibarlı tərəfdaş kimi təsdiq etmişdir. Bu hadisələr Azərbaycanın regionda iqtisadi əhəmiyyətini artırmış, onun kənar təzyiqlərə tab gətirmək və suveren dövlət kimi müstəqilliyini bərpa etmək qabiliyyətinə güclü zəmin yaratmışdır.

Uzun müddət ərzində ictimai-siyasi və sosial-iqtisadi strukturların qurulması ilə yanaşı, mühüm iqtisadi səmərələr əldə edilib, nəticədə ölkənin hərbi potensialı yüksəlib. Əldə olunan nailiyyətlər mühüm qələbəyə gətirib çıxarıb, nəticədə ərazilərimiz işğaldan azad edilib, ərazi bütövlüyümüz bərpa olunub. 2020-ci il noyabrın 10-da qəbul edilmiş tarixi Bəyannamə çərçivəsində Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmin edilməsi işğaldan azad edilmiş torpaqların mövcud iqtisadi potensialından ölkəmizin mənafeyi naminə optimal şəkildə istifadə olunmasına mühüm imkanlar verir. Bu zəfər metodik və davamlı dəyişikliklərlə birlikdə növbəti illərdə yeni perspektivlər açacaqdır.

Koronavirus epidemiyasının dünya miqyasında törətdiyi fəlakətlə eyni vaxtda mübarizə aparmaq, ümumi rifah naminə birlik nümayiş etdirmək və ərazi bütövlüyünü bərpa etmək mühüm, genişmiqyaslı dəyişikliklər üçün əsas zəminləri gücləndirir. Əvvəlki islahatlar nəticəsində ölkəmizin sosial-iqtisadi potensialı yüksəlmiş, iqtisadiyyatımızın xarici təsirlərə tab gətirmə qabiliyyəti yaxşılaşmışdır. Azərbaycan sosial-iqtisadi tədbirlər həyata keçirməklə, ərazi bütövlüyümüzü qorumaqla daha mütərəqqi inkişaf mərhələsinə keçid üçün möhkəm zəmin yaratmış, nəticə etibarilə sürətlə yüksələn, yüksək rifahlı və görkəmli qlobal dövlətə çevrilməyi qarşısına məqsəd qoymuşdur.

Ölkənin öz ərazi bütövlüyünü bərpa etdiyi indiki dövrdə Azərbaycan dövlətinin iqtisadi nüfuzunun artırılması üçün mühüm struktur və institusional dəyişikliklərə ehtiyac var. Bura əsaslı iqtisadi artım mənbələrinin müəyyən edilməsi, daha varlı cəmiyyətin yaradılması və azad edilmiş rayonların daimi köçürülməsinə köməklik daxildir.

Qlobal iqtisadi şərait və inkişaf məqsədlərimiz üçün ölkənin uzunmüddətli inkişaf istiqamətləri, sosial-iqtisadi tərəqqiyə aparan əsas yollar və milli prioritetlərə uyğunlaşdırılmalıdır [4].

Azərbaycan 20-ci əsrin sonlarında üzləşdiyi çətinliklərə baxmayaraq, sabit, təhlükəsiz və müasir həyat keyfiyyəti təklif etdiyinə görə dünya miqyasında tanınıb. Sosial-iqtisadi və mədəni aspektlərimizdə uzun təkamül yolu ilə uğurla irəliləməkdəyik. Ölkəmizin dünya miqyasında nüfuzu xeyli yüksəlmiş, dövlətçiliyimizin ictimai əsasları möhkəmlənmiş, müasir sosial-iqtisadi baza səmərəli şəkildə yaradılmışdır. İqtisadi tərəqqidən irəli gələn möhkəm maliyyə perspektivləri makroiqtisadi sabitliyin qorunub saxlanılmasında və artımın təşviqində, təhlükəsizliyin möhkəm əsaslarının yaradılmasında mühüm rol oynamışdır.

İşğalçılar üzərində qələbə qazandıqdan sonra işğaldan azad edilmiş torpaqlarımızın iqtisadi cəhətdən inteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat və logistika marşrutlarından istifadə Azərbaycanın iqtisadi-sosial cəhətdən inkişafına əhəmiyyətli dərəcədə təkan verəcəkdir. Qarabağın iqtisadi strukturunu regional təhlükəsizlik, sabitlik, firavanlıq və əməkdaşlıq, ticarət və iqtisadi əlaqələrin artması ilə formalaşdıracaq ki, bu da Azərbaycanın Cənubi Qafqazda aparıcı dövlət kimi mövqelərini gücləndirəcək.

Azərbaycanın uğurlu sosial-iqtisadi və siyasi nailiyyətləri, milli və multikultural dəyərləri ilə birlikdə Şərqlə Qərbin kəsişmə nöqtəsi kimi artan nüfuzuna inam yaradır. Bu şanslar Azərbaycanın iqtisadi müstəqilliyinin yüksəldilməsini və onun 2030-cu ilə qədər yüksək sosial rifah və müasir həyat keyfiyyəti ilə xarakterizə olunan cəmiyyəti olan nəhəng dövlətə çevrilməsini təmin edir. Azərbaycan əhalisinin rifahını yüksəltmək üçün sosial yönümlü bazar iqtisadiyyatı qurmağa üstünlük verib.

Azərbaycanın yeni inkişaf strategiyası milli sosial rifahın yüksəldilməsi və bu yaxınlarda işğal-

dan azad edilmiş ərazilərin yenidən məskunlaşdırılması məqsədi ilə dayanıqlı və inklüziv təşəbbüslər vasitəsilə iqtisadi artıma nail olmağa yönəlib.

Ölkəmizin davamlı və sürətli böyüməsini təmin etmək üçün cəmiyyət, biznes və dövlət arasında səmərəli əlaqələrin gücləndirilməsi vacibdir. İqtisadi dirçəlişimizin əsas amillərinə bazar yönümlü islahatlar vasitəsilə səmərəli dövlət idarəçiliyi, özəl institutların gücləndirilməsi, biznes üçün əlverişli hökumət siyasəti və ixracı artırmaq üçün ticarət təcrübələrinin liberallaşdırılması daxildir. Ölkədə yaradıcı və innovativ özəl müəssisələrin təşviqi iqtisadi resurslarımızı daha çox əlavə dəyər təmin edən sektorlara yönəltməyə kömək edərdi.

Bu məqsədlərə nail olmaq üçün davamlı sabitliyi təmin etmək və insan kapitalının modernləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi və iqtisadi suverenlik kimi uzunmüddətli iqtisadi artımın aparıcı amillərini gücləndirmək üçün effektiv makroiqtisadi siyasət çərçivəsi yaradılmalıdır.

İqtisadi inkişaf sakinlərimizin rifahına əhəmiyyətli dərəcədə təsir göstərir. Ölkədə adambaşına milli gəlirin yüksək səviyyəsinə çatmaq üçün davamlı iqtisadi artım və sürətli inkişaf templəri vacibdir. Yüksək gəlirli məşğulluğun yaradılması əhalinin həyat səviyyəsinin ildən-ilə yüksəlməsinə səbəb olmalı, iqtisadi inkişafa təkan verməlidir.

Davamlı iqtisadi inkişafa, milli iqtisadiyyatın geniş şaxələndirilməsinə, məhsul və xidmətlərin ixrac potensialından tam istifadəyə kömək edən yeni amilləri müəyyən etməliyik. Neft sənayesi bizim sosial-iqtisadi tərəqqimiz üçün həlledici olsa da, inkişafın diqqəti qeyri-neft iqtisadiyyatına yönəldilməlidir. İqtisadi inkişaf ixtiraçı və səmərəli şəxsi səylərə əsaslanmalıdır. Dövlət və özəl sektorlar arasında əməkdaşlığı gücləndirmək, inkişaf edən özəl sektoru gücləndirmək və onun qeyri-neft iqtisadiyyatının maliyyələşdirilməsinə töhfəsini artırmaq lazımdır.

Kiçik və orta müəssisələri iqtisadi inkişafın və məşğulluğun əsas hərəkətverici qüvvəsinə çevirmək üçün biznes şəraitinin yaxşılaşdırılması, məhkəmə sisteminin şəffaflığının artırılması və haqsız rəqabətin qarşısının alınması vacibdir. Biznesin həvəsləndirilməsi üsulları daha sərfəli olmalıdır. Vergi və gömrük siyasəti sahibkarlıq fəaliyyətini stimullaşdırmağa və dövlət büdcəsinin xərclərini ödəmək üçün kifayət qədər gəlir əldə etməyə yönəlməlidir.

Ölkə iqtisadiyyatını yüksəltmək üçün birbaşa xarici investisiyaları, xüsusən də infrastruktur sənayesinə investisiyalar cəlb etməliyik. Əsas diqqət ölkənin milli maraqlarının qorunmasına və beynəlxalq investorlar üçün rəqabət mühitinin qorunması üçün investisiyaların effektiv şəkildə tənzimlənməsinə yönəldilməlidir.

Dövlət investisiyalarının və dövlət şirkətlərinin iqtisadi səmərəliliyini artırmalıyıq, eyni zamanda bu sektorlarda açıqlığı gücləndirməliyik. Mənfəətliliyi artırmaq üçün dövlət firmalarının kommersiya fəaliyyəti ilə məşğul olması və ən yaxşı dünya təcrübələrinə əsaslanan korporativ idarəetmə normalarına riayət etmək üçün zəmin yaratmaq vacibdir.

Biz kölgə iqtisadiyyatını azaltmalı və həm kommersiya, həm də dövlət sektorunda açıqlığı ən yüksək standartlara çatdırmalıyıq. Müasir korporativ mədəniyyəti təşviq etmək və inkişaf etdirmək, korrupsiya ilə mübarizə səylərini artırmaq və iqtisadiyyatın idarə edilməsində cari problemləri həll etmək üçün etik standartları özündə birləşdirən müasir dövlət qulluğu strukturunu saxlamaq vacibdir [4].

Başlıca istiqamətlərin təyin edilməsi

Azərbaycan müstəqil dövlət kimi iqtisadi, sosial, siyasi və mədəni tərəqqi yolunda mühüm mərhələdədir. Bütün bu keçid mərhələsində ölkədə həyata keçirilən düşünülmüş sosial-iqtisadi dəyişikliklər milli iqtisadiyyatın yüksəldilməsinə və müasirləşməsinə səbəb olmuşdur. Ölkəmizin iqtisadiyyatı son 17 ildə dinamik inkişaf sayəsində üç dəfədən çox artmışdır. Əhalinin yaxşı artımı ilə yoxsulluğun əhəmiyyətli dərəcədə azalmasına səbəb olan güclü sosial-iqtisadi infrastruktur yaradılmışdır [6, s. 2 , 365-371].

Azərbaycanın artan iqtisadi təsirləri ölkəyə Cənubi Qafqaz və qonşu regionların iqtisadiyyatını transformasiya etmək potensialına malik mühüm təşəbbüslər irəli sürməyə imkan verib. Ölkəmiz regional iqtisadiyyatın əsas iştirakçısıdır və özünü qlobal enerji təhlükəsizliyində yüksək etibarlı

tərəfdaş kimi təsdiq etmişdir. Bu hadisələr Azərbaycanın regionda iqtisadi əhəmiyyətini artırmış, onun kənar təzyiqlərə tab gətirmək və suveren dövlət kimi müstəqilliyini bərpa etmək qabiliyyətinə güclü zəmin yaratmışdır.

Azərbaycanın erməni nəzarətindən azad edilmiş ərazilərində tarixi iqtisadi sahələrin dirçəldilməsi çox vacibdir. Qarabağ ərazisində qarşıdakı 10-15 il ərzində tikinti, istehsal, kənd təsərrüfatı və hərbi sənayenin inkişafı müasir dövrün ən mühüm və əsas istiqamətlərindən biridir.

Onların ölkənin ÜDM-də payının artırılması Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün əsaslı üstünlüklər verəcək. Müasir iqtisadiyyat informasiya, tədqiqat, qabaqcıl texnologiya və digər vasitələrlə inkişaf edir. Texnoloji innovasiyalar adi iqtisadiyyatdan informasiya əsaslı iqtisadiyyata keçidi şərtləndirərək, iqtisadiyyatın modernləşdirilməsinə gətirib çıxarır. Yeni texnologiyalar həm formalaşmış, həm də formalaşmaqda olan iqtisadi sektorların inkişafına müsbət təsir göstərir. İqtisadiyyatın gücləndirilməsində rəqəmsal texnologiyadan geniş istifadə iqtisadi inkişafın artmasına səbəb olacaqdır. Yeni iqtisadi sektor inkişaf etdikcə və yeni iş yerləri yarandıqca əhalinin rifahı yaxşılaşacaqdır.


Adambaşına düşən ÜDM artımının davam edəcəyi gözlənilir. Bu, respublikanın iqtisadi yüksəlişi və Qarabağda və ona yaxın ərazilərdə ənənəvi iqtisadiyyat sahələri ilə yanaşı, qeyri-neft sektorunun da şaxələndirilməsi ilə nəticələnəcək, Azərbaycanın qlobal iqtisadi tərəqqisinə töhfə verəcək və məhsullarının dünya bazarında rəqabət qabiliyyətini artıracaqdır. Azərbaycan iqtisadiyyatın köhnə sahələrini modernləşdirməklə yanaşı, İKT-yə əsaslanan yeni innovasiya iqtisadiyyatı sektorlarını inkişaf etdirir. İqtisadiyyatda qabaqcıl texnoloji sektorların, o cümlədən mobil sistemlər, kosmik texnologiya, Big Data, bulud hesablamaları, Əşyaların interneti, kiberfiziki sistemlər, süni intellekt və s.-nin inkişafı və İKT-nin bu sektorlara inteqrasiyası hazırda əhəmiyyətli mövzular çərçivəsindədir.

Təqdim olunan məlumatlara əsasən hesab edirik ki, “Elektron Qarabağ” kompleksi fəaliyyət proqramının memarlıq-texniki bazasının konseptual modeli Şəkil 1-də göstərildiyi kimidir. Konseptual modelin bu şəkildə təqdim edilməsi ölkənin yeni tipli regional idarəetməyə keçməsi ilə əsaslandırılır. 13 regional iqtisadi zona yaradılmışdır ki, bunlardan ən çox diqqət çəkənlərdən biri Qarabağ iqtisadi zonasıdır. Bu bölgələrdə iqtisadiyyatın tam yenidən qurulması lazımdır. Əslində məsələ daha ciddidir. İqtisadiyyatı dirçəltmək üçün bu yerlərdən minaları çıxarmaq, onların təhlükəsizliyini təmin etmək, infrastrukturu bərpa etmək üçün yerdə qalan problemləri təmizləmək lazımdır. Beləliklə, mövcud ixtiraçılıq nailiyyətlərini və texnologiyanı daxil etməklə köhnə iqtisadi sektorları cavanlaşdırmaq lazımdır.

Texniki nailiyyətlərdən istifadə edərək yeni iqtisadiyyatı inkişaf etdirmək üçün həm beynəlxalq, həm də yerli hökumətlərlə güclü əlaqələr yaratmaq çox vacibdir. Bundan əlavə, konseptual modeldə qeyd olunan Sənaye 4.0 İnqilabının tələblərinə uyğun gələn yaradıcı istehsal və xidmət strukturlarının, eləcə də informasiya, bilik resurslarının və sistemlərinin yaradılması vacibdir.

İKT əsaslı ekoloji cəhətdən təmiz texnologiyanın istifadəsinə üstünlük vermək çox vacibdir. Təmiz enerji mənbələrindən istifadə edilməsi, tullantıların təkrar emal edilməsi və çirklənmiş yerlərin bərpası mühüm məsələlərdəndir. İKT-ni, eləcə də ölkənin gələcək iqtisadi tərəqqisini nəzərə alaraq, su ehtiyatlarından və enerji mənbələrindən düzgün istifadə etməklə ətraf mühitdə yaşıllıqların sürətlə bərpası və genişləndirilməsini təmin etmək vacibdir. Yüksək keyfiyyətli ekoloji mühit və yaşıl enerji məkanı kimi məqsədlərə çatmaq üçün müvafiq innovasiya və məlumat çərçivəsinin yaradılması vacibdir. Hazırda Qarabağın dayanıqlı enerji mərkəzinə çevrilməsi istiqamətində səylər davam etdirilir. Bərpa olunan enerji mənbələrinə, ekoloji cəhətdən təmiz texnologiyaya və əlaqəli məsələlərə diqqət yetirən ərazidə yaşıl zona və ya yaşıl sahə təşəbbüsünün həyata keçirilməsi Vətən Müharibəsində qələbə çaldıqdan dərhal sonra başladı [2].

Azad edilən ərazilərdə “yaşıl enerji” zonasının yaradılması üçün mühüm tapşırıqlar verilib. Bu məsələ “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri” adlı sənəddə öz əksini tapıb. Bundan başqa, Azərbaycan Respublikasının bu yaxınlarda azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması haqqında sərəncam verilib [5].



Şəkil 1. Elektron Qarabağ kompleksi fəaliyyət proqramının memarlıq-texnoloji strukturunun konseptual modeli

Mənbə: [1, s. 27-34]

Strateji dövrdə İKT sistemlərinin köməyi ilə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə inkişaf etmiş ölkələrdə xüsusilə artacaqdır.

Enerjidən səmərəli istifadə vacibdir və alternativ enerji mənbələrinin inkişafına üstünlük verilməlidir. Gələcək nəsillərin tələblərini ödəmək üçün İKT-yə əsaslanan ekoloji cəhətdən səmərəli yaşıl texnologiyalardan istifadənin genişləndirilməsi vacibdir. Alternativ enerji mənbələri iqlim dəyişikliyinə təsirini azaltmaq üçün iqtisadiyyatın bütün sektorlarında ilkin istehlakın daha böyük hissəsini təşkil etməlidir. Ekoloji cəhətdən təmiz avtomobillərin ətraf havanın keyfiyyətinə müsbət təsir etdiyi düşünülür. Ölkə yeni dayanıqlı enerji mənbələrinə üstünlük verməlidir [2, s.1,94-110].

Ölkənin regionlarında əhalinin rifahının yüksəldilməsi üçün sosial yönümlü bazar iqtisadiyyatı qurulur. İnsanların rifahının yüksəldilməsi üçün inklüziv strategiyalar vasitəsilə iqtisadi inkişafı sürətləndirmək çox vacibdir. Qaçqınların azad edilmiş rayonlara yenidən köçü ölkənin yeni inkişaf strategiyasının əsasını təşkil edir. Davamlı və sürətli böyüməyə nail olmaq üçün cəmiyyət, biznes və hökumət arasında səmərəli əməkdaşlığı gücləndirmək çox vacibdir. Yerli malların beynəlxalq bazarlara çıxışını artırmaq üçün ticarət rejimləri liberallaşdırılmalıdır. Biz iqtisadi artımın yeni fundamental prinsiplərini qurmalıyıq. Səmərəli makroiqtisadi siyasətlər qurulmalıdır. İqtisadi artıma təkan verən orta və uzunmüddətli amillər gücləndirilməlidir. İnsan resursları təkmilləşdirilməli və yenilənməlidir.

Regional iqtisadi inklüzivliyi artırmaq üçün əhalinin sosial müdafiəsini təmin etmək üçün inqilabi tədbirlər həyata keçirilir. Müxtəlif yerlərdə sosial inklüzivliyi artırmaq üçün müvafiq sahələrə müraciət edən və inklüziv qaydaları tətbiq edən inklüziv strateji ideyaları, təşəbbüsləri və proqramları icra etmək vacibdir. Elektron elm, e-təhsil, e-hökumət, e-parlament, e-biznes, e-bankçılıq və e-ticarət daxil olmaqla İKT platformaları cəmiyyət üzvlərinin üstünlüklərinə uyğun olaraq inkişaf etdirilməlidir. Onlar informasiya və bilik cəmiyyətinin vacib elementləri kimi qlobal sistemlərə daxil edilməlidir. Kommunikasiya və kommunikativ mühit inklüzivliyi təkmilləşdirmək üçün əhəmiyyətli potensial təmin etməklə İKT-nin effektivliyini artırır. Mobil telefonlar, noutbuklar və vebsaytlar zaman və məsafə məhdudiyyəti olmayan yeni məhsuldar qüvvə kimi fəaliyyət göstərən müasir iş aləti kimi xidmət edir. Bu problemi ancaq İKT və yeni texnologiyaya arxalanan informasiya və bilik cəmiyyəti çərçivəsində səmərəli şəkildə həll etmək olar.

Nəticə

Azad edilmiş ərazilərin inkişaf prioritetlərinə infrastrukturun yenidən qurulması, əsas xidmətlərin bərpası, iqtisadi canlanmanın təşviqi, sosial birliyin təmin edilməsi və ekoloji davamlılığın təşviqi daxildir. Bu prioritetlər təsirə məruz qalmış əhalinin təcili ehtiyaclarını həll etmək, məşğulluq imkanları yaratmaq, idarəetmə strukturlarını gücləndirmək və köçkün insanların geri qayıtmasını və iqtisadiyyatın reinteqrasiyasını asanlaşdırmaq məqsədi daşıyır. Bundan əlavə, təhsil, səhiyyə və mədəniyyətin qorunmasına investisiyalar uzunmüddətli sabitlik və rifah üçün çox vacibdir. Bu ərazilərə üstünlük verməklə, azad edilmiş ərazilər münaqişənin təsirlərindən xilas ola, öz əsaslarını bərpa edə, davamlı inkişaf və sülhün qurulması üçün zəmin yarada bilər.

Ənənəvi və inkişaf etməkdə olan sənayelərin inkişafı Qarabağ iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir, ölkənin iqtisadi və sosial-siyasi aspektlərdə əsas inkişaf məqsədlərinə uyğundur. Mövcud texnologiyadan istifadə rəqəmsal texnologiyalardan irəli gələn iqtisadi artım modellərinin təhlili, həyat səviyyəsinin yüksəldilməsi və Qarabağda inklüzivliyin təşviq edilməsi üçün çox vacibdir. Qarabağ iqtisadi zonasında innovasiya infrastrukturunun inkişafı və rəqəmsal texnologiyalardan istifadə ölkə üçün mühüm problemlərdir.

ƏDƏBİYYAT

1. Aliyev, A. G. (2022). Problems of application of digital technologies in the territories of Azerbaijan liberated from the Armenian occupation. *Problems of Information Society*, 27-34.
2. Aliyev, A.G, & Shahverdiyeva, R.O. (2021). Formation of ICT-based technological innovation

economy sectors, and their impact aspects on socio-economic processes. Problems of Information Society (in Azerbaijani), 1, 94-110.
3. Aliyev, AG, & Shahverdiyeva, R.O. (2018). Exploring the impact of the Fourth Industrial Revolution on the development of information economy sectors and innovative structures. Problems of Information Society (in Azerbaijani), 2, 52–64
4. Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" and the Order of the President of the Republic of Azerbaijan on its approval. Baku, February 2, 2021 (in Azerbaijani). https://president.az/articles/50474
5. Order of the President of the Republic of Azerbaijan on measures to establish a "green energy" zone in the liberated territories of the Republic of Azerbaijan. Baku, May 3, 2021 (in Azerbaijani).https://president.az/articles/51355.
6. Pomerantseva, P., Yaschenko, S.D. (2020). Big data technology as the basis for the digital economy formation. Intellectual resources for regional development (in Russian), 2, 365-371.

Гусейн Раясат оглы Исмаилов
Азербайджанский Государственный
Экономический Университет, докторант

Приоритеты развития освобожденных территорий

Резюме

Цель исследования: Целью исследования приоритетов развития освобожденных территорий является определение ключевых областей, которые требуют внимания и инвестиций для содействия устойчивому восстановлению и росту. Это включает в себя оценку инфраструктурных потребностей, экономических возможностей, социальных услуг и восстановления окружающей среды для разработки комплексных стратегий развития.

Методология исследования: Методология исследования предполагает междисциплинарный подход, включая анализ данных и процессы совместного планирования.

- İstehsal məqsədilə idxal olunan texnoloji avadanlıqların ƏDV-dən 7 il müddətinə azad edilmə;
- 7 il müddətində idxal rüsumundan azad olunma.

Balaxanı Sənaye Parkının fəaliyyəti dövründə rezidentlər tərəfindən buraya 44,7 milyon manat investisiya qoyulub və 81,9 milyon manat dəyərində məhsul istehsal edilib ki, bunun 10,8 milyon dəyərində olan hissəsi Niderland, İsveçrə, Rusiya, ABŞ, Qazaxıstan, Gürcüstan, Belarus daxil olmaqla bir çox xarici ölkələrə ixrac olunub.

Balaxanı Sənaye Parkının rezidenti “Exol Azerbaijan” QSC 3 milyon manata yaxın mənfəət əldə etmişdir.

Həmin şirkət 2022-ci ili 2 milyon 655 min manat xalis mənfəət ilə başa vurub. 2021-ci ildə şirkətin mənfəəti 1 milyon 761 min manat olub ki, bu da illik müqayisədə 1.5 dəfə böyükdür **[9]**.

Balaxanı Sənaye Parkında müasir texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli məhsul istehsal edən və yaşıl iqtisadiyyatın inkişafına dəstək verən rezidentlər aşağıdakı bir sıra üstünlüklərə malikdir:

1. “Vahid pəncərə” prinsipi ilə asanlaşdırılmış qeydiyyat;
2. Bir məkanda vahid struktur;
3. Əldə edilən xammal və istehsal olunmuş məhsullar üzrə bazarın genişləndirilməsi;
4. Qanunvericiliyə uyğun olaraq əlverişli vergi güzəştləri;
5. Yaşıl biznesin hesabına ətraf mühitə təsirin azaldılması;
6. Tullantıların təkrar emalı ilə məşğul müəssisələrə və bu sahəyə dəstək.

Onu da qeyd etmək lazımdır ki, bir istehsal müəssisəsinin məhsulunun digər müəssisədə istifadə olunması Balaxanı Sənaye Parkını fərqləndirən üstün cəhətlərindən biridir. Misal olaraq göstərmək olar ki: “Bioropean” MMC-nin emal etdiyi texniki yağlar “Ekokat” MMC-nin istehsal fəaliyyətində xammal kimi istifadə edilir və s.

Balaxanı Sənaye Parkında bir sıra önəmli layihələr həyata keçirilir. Həmin layihələrin icrası ilk növbədə bərk məişət tullantılarının çeşidlənməsi və yandırılması zavodlarında icra edilir. Bunlarla yanaşı parkda bərk məişət tullantılarının vahid idarəçilik layihəsinin icrası da təmin edilir. Həmin layihələrin qısa xülasəsini aşağıdakı kimi təsvir etmək yerinə düşərdi.

Bərk məişət tullantılarının çeşidlənməsi zavodu

İllik gücü 200 min ton olan bərk məişət tullantılarının çeşidlənməsi zavodu qabaqcıl alman texnologiyaları əsasında qurularaq, ölkədə təkrar emal sahəsini inkişaf etdirmək məqsədilə inşa edilmişdir. Təkrar emal üçün yararlı olan şüşə, kağız, plastik, əlvan metal, dəmir və digər bu kimi xammalların çeşidlənməsi aparılır ki, ilk növbədə tullantıların ətraf mühitə mənfi təsiri azalır, digər tərəfdən tullantıların ümumi həcmi azalır, ucuz xammal bazarı formalaşır. Eyni zamanda ölkəmizdə bərk məişət tullantılarının təkrar emalı və bu sahənin biznes fəaliyyətinə çevrilməsinə zəmin yaradır, enerjiyə qənaət olunur. Müəssisədə tullantıların çeşidlənməsi aşağıdakı bir sıra üstünlükləri özündə ehtiva edir:

- Təbii ehtiyatlara və enerjiyə qənaət;
- Ətraf mühitə və insan sağlamlığına mənfi təsirlərin azaldılması;
- Yeni iş yerlərinin yaradılması;
- Təkrar emal sənayesinin stimullaşdırılması;
- Təkrar emala yararlı və ucuz xammal bazası.

Bərk məişət tullantılarının yandırılması zavodu

“Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı” əsasında Bakı bərk məişət tullantılarının yandırılması zavodu inşa edilmişdir. Keçirilmiş tenderin qalibi olan Fransanın **CNİM** şirkəti tərəfindən layihələndirmə və “açar-təhvili” prinsipi əsasında zavodun inşası və tikinti işlərinə başlanılmışdır. Hazırda zavodun

idarəetməsi Fransanın **PAPREC** Enerji Azərbaycan şirkəti tərəfindən həyata keçirilir. Zavod Balaxanı qəsəbəsində ayrılmış 20 hektar ərazidə inşa olunub və illik gücü 500 min ton məişət tullantısı, o cümlədən, 10 min ton tibbi tullantı təşkil edir. Zavod il ərzində 200 mln kvt/saata qədər elektrik enerjisi hasil etmək gücünə malikdir. Bərk məişət tullantılarının yandırılması zavodu Avropa Birliyinin ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verir və IV nəsil (4G) texnologiyalarının tətbiqi ilə istehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu modeldə ən iri zavod hesab olunur. Yanma prosesindən sonra daha ağır və zərərsiz olan dib külü yol inşaatında tikinti materialı kimi istifadə oluna bilər. Mütləq şəkildə gündəlik olaraq zavodun tullantı hədlərinin monitorinqi həyata keçirilir və nəzarətdə saxlanılır.

Zavod fəaliyyətə başladığı gündən 2022-ci ilin əvvəlinə kimi 4 milyon tondan çox tullantı zərərsizləşdirilib və nəticədə 1,586,394 meqavat/saat elektrik enerjisi istehsal edilib. Termik üsulla emal edilən tullantıların həcmi 10 dəfə azaldılıb və yandırılmadan sonra yaranan dib külü yol tikintisində istifadə olunub. Beləliklə, poliqonun tez dolmasının qarşısı alınaraq ömrü 20 ilə qədər uzadılıb. Demək ki, bu üsulla 2013-2021-ci illər ərzində basdırılma üsulu ilə zərərsizləşdirməyə təxminən 20 il qənaət edilib.

Bərk məişət tullantılarının vahid idarəçiliyi layihəsi

“Bərk məişət tullantılarının vahid idarəçiliyi” layihəsi Dünya Bankı ilə Azərbaycan Hökumətinin birgə həyata keçirdiyi “Abşeronun Ekoloji Bərpası Proqramı” çərçivəsində reallaşdırılıb və layihənin məqsədi bərk məişət tullantılarının yığılmasının, utilizasiyasının davamlı və sistemli təşkili üçün aparılan islahatlara dəstək vermək idi. Layihə üzrə 2009-cu ildə Azərbaycan Hökuməti və Dünya Bankı arasında kredit sazişi imzalanmışdır. Layihə çərçivəsində Balaxanı poliqonunun təkmilləşdirilməsi, mövcud poliqonun səmərəliliyinin artırılması, idarə edilməsi, bərk məişət tullantılarının ətraf mühitə göstərdiyi təsirə nəzarət, tikinti işləri (hasarlama, tullantıların basdırılması, daxili yolların çəkilməsi və s.), müasir standartlara uyğun avadanlıq və texnikanın alınması (körpü tərəziləri, buldozerlər və s.) maliyyələşdirilmiş, yeni və müasir standartlara cavab verən poliqonun tikintisi həyata keçirilmişdir. Eyni zamanda Bakı şəhərinin rayonlarında, o cümlədən, tullantıların effektiv şəkildə toplanmadığı ərazilərdə xidmətin keyfiyyətinin artırılması məqsədi ilə yük maşınları və tullantı qutularının alınması maliyyələşdirilmişdir.

Balaxanı poliqonu “Təmiz Şəhər” ASC-nin balansına verildikdən sonra illərlə qalaqlanaraq yandırılan tullantıların söndürülməsi prosesinə başlanılıb. 120 ha sahəni əhatə edən ərazidə yeni və ən son standartlara cavab verən sanitar poliqon tikilib, 14 mindən çox müxtəlif ağac əkilərək yaşıllıq zolaqları salınıb.

Bakı şəhərində il ərzində 750-800 min tona yaxın tullantı “Təmiz Şəhər” ASC tərəfindən qəbul edilərək çeşidlənir və təkrar emala yararlı kütlə ayrılaraq Balaxanı Sənaye Parkına və digər istehsal müəssisələrinə göndərilir. İstehsala yararsız lakin yanmağa yararlı qalan hissə isə Bakı bərk məişət tullantılarının yandırılması zavoduna göndərilir. İllik yandırma gücü 500min ton olan zavodda 231,5 milyon kilovat/saat elektrik enerjisi istehsal olunaraq yüksək gərginlikli xətlərlə Bakı şəhərinin ümumi şəbəkəsinə ötürülür.

Hazırda burada 27 istiqamət üzrə məhsul istehsal edilir ki, bunlar daxili bazarda satışa çıxarılmaqla yanaşı xarici öllkələrə də ixrac edilir. Sənaye Parkında 1000 nəfərdən çox işçi çalışır. Əldə edilən nailiyyətlərə baxmayaraq ölkəmizdə tullantıların idarə edilməsi sahəsində həllini gözləyən problemlər az deyil. Bunu rəsmi məlumatların təhlili də təsdiq edir.

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yeni pilot araşdırmaların bir hissəsi kimi Monitorinq Mərkəzi yaradılıb. Tullantı araşdırmaları keçirmək zəruri məsələdir, elə bu məqsədlə yaradılan Mərkəz bu sahədə gördüyüm ən mükəmməl müəssisələrdən biridir və bizə işimizi daha yaxşı yerinə yetirməyə kömək edir. Burada işçi heyəti üçün tam müasir şərait yaradılıb.

İlkin araşdırmalar üçün Nərimanov rayonu seçilib. Bu rayon şəhərin mərkəzində yerləşməsi ilə yanaşı, həm də şəhərkənarı əraziləri əhatə edir. Bu səbəbdəndir ki, Nərimanov rayonu sınaqlar üçün Bakı şəhərini təmsil edən ərazi kimi seçilib.

Azərbaycanda bərk tullantılardan istifadənin mövcud vəziyyətinin təhlili

AR DSK-nın məlumatlarına görə, təkcə 2010-2022-ci illərdə ölkə iqtisadiyyatında yaranmış istehsal və istehlak tullantılarının miqdarı 1,75 dəfə, onun hər nəfərinə düşən miqdarı isə - 1,6 dəfə artmışdır. Həmin dövrdə istifadə edilmiş və zərərsizləşdirilmiş eyni təyinatlı tullantıların miqdarı da 1,7 dəfə çoxalmışdır **(cədvəl 2)**.

Cədvəl 2

Tullantıların yaranması, istifadə edilməsi və zərərsizləşdirilməsi (min ton)

Göstəricilər	İLLƏR						2010-2022-ci illərdə artım tempi (%)
	2010	2015	2019	2020	2021	2022	
Yaranmış istehsal və istehlak tullantılarının miqdarı	2281,5	2350,4	3256,0	3452,3	3778,2	3985,1	174
bir nəfərə düşən (kq.)	255	247	329	346	377	395	154
İstifadə edilmiş, zərərsizləş-dirilmiş istehsal və istehlak tullantılarının miqdarı	476,1	771,7	713,4	792,1	1563,1	801,9	168,4
bir nəfərə düşən (kq.)	53	81	72	79	156	79	149

Mənbə: “Azərbaycanda ətraf mühit”, Statistik məcmuə, Bakı, DSK, 2023, s.79

Hesablamalar göstərir ki, 2022-ci ildə yaranan həmin kateqoriyadan olan 3985 min ton tullantının 66,7%-ni bərk məişət tullantıları, 21%-ni isə emal sənayesi müəssisələri tərəfindən atılan tullantılar təşkil etmişdir **(cədvəl 3)**.

Cədvəl 3

İqtisadi fəaliyyət növləri üzrə tullantıların yaranması (min ton)

Göstəricilər	İLLƏR						2010-2022-ci illərdə mütləq kənarlaşma (+/-)
	2010	2015	2019	2020	2021	2022	
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	2,7	20,0	33,2	31,5	29,8	36,4	33,7
Mədənçıxarma sənayesi	247,0	196,7	207,8	206,3	176,2	262,0	15
Emal sənayesi	414,6	526,9	764,8	692,5	791,8	836,2	4,21
Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi	1,6	4,6	5,7	7,6	2,3	4,8	3,2
Tikinti	0,6	3,3	2,9	3,1	2,1	43,8	43,2
Digər iqtisadi fəaliyyət növləri	5,7	64,2	220,0	161,3	194,8	143,6	137,9
Bərk məişət tullantıları	1609,3	1534,7	2021,6	2350,0	2581,2	2658,3	1049

Mənbə: “Azərbaycanda ətraf mühit”, Statistik məcmuə, Bakı, DSK, 2023, s.79

Qeyd edilən illər ərzində yaranmış təhlükəli tullantıların miqdarı 2,4 dəfə, istifadə edilənlərin miqdarı 6,8 dəfə artsa da, zərərsizləşdirilən tullantıların miqdarında 5,5% azalma olmuşdur **(cədvəl 4)**.

Cədvəl 4

Təhlükəli istehsalat tullantılarının yaranması, istifadə edilməsi və zərərsizləşdirilməsi (min ton)

Göstəricilər	İLLƏR						2010-2022-ci illərdə artım tempi (faizlə)
	2010	2015	2019	2020	2021	2022	
Yaranmış təhlükəli tullantıların miqdarı	140,0	191,7	296,9	283,5	245,2	337,1	2,4 dəfə
İstifadə edilmiş təhlükəli tullantıların miqdarı	5,5	5,2	13,4	15,9	5,8	37,2	6,8 dəfə
Zərərsizləşdirilmiş təhlükəli tullantıların miqdarı	58,4	210,9	66,2	61,4	102,5	55,0	94

Mənbə: “Azərbaycanda ətraf mühit”, Statistik məcmuə, Bakı, DSK, 2023, s.80

Hesablamalar göstərir ki, təkcə 2022-ci ildə yaranan istehsalat tullantılarının 81,8 %-i emal, 18,2%-i isə digər iqtisadi fəaliyyət sahələrinin payına düşür **(cədvəl 5)**.

Cədvəl 5

İqtisadi fəaliyyət növləri üzrə istehsal tullantılarının istifadə edilməsi və zərərsizləşdirilməsi (min ton)

Göstəricilər	İLLƏR						2010-2022-ci illərdə artım tempi (faizlə)
	2010	2015	2019	2020	2021	2022	
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	0,8	8,9	1,2	1,0	0,8	0,7	87,5
Mədənçıxarma sənayesi	80,9	10,9	35,6	124,0	706,9	13,6	16,8
Emal sənayesi	387,5	684,5	615,3	596,7	669,8	654,5	169,0
Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi	1,0	3,9	4,0	0,3	3,3	1,9	19 dəfə
Tikinti	-	0,6	1,3	1,3	0,8	1,2	X
Digər iqtisadi fəaliyyət növləri	5,9	62,4	55,4	95,2	180,9	129,4	22 dəfə
Bərk məişət tullantıları	-	0,5	0,5	0,6	0,6	0,6	X

Mənbə: “Azərbaycanda ətraf mühit”, Statistik məcmuə, Bakı, DSK, 2023, s.80

Azərbaycanda əsas kapitala yönəldilən vəsait və ətraf mühitin istehsal və istehlak tullantılarının mühafizəsinə çəkilən xərcləri nəzərə alaraq tullantıların hər bir manatına çəkilən xərc hesablanaraq **6** saylı cədvəldə göstərilmişdir.

Cədvəldən göründüyü kimi, Balaxanı Sənaye Parkının yaradılması ilə respublikamızda bütün növ tullantıların hər manatına çəkilən xərc 2005-2010-cu ildə 2,47 man. təşkil etdiyi halda, 2011-2015-ci ildə onun həddi 23,63 manatadək yüksəlmiş, lakin 2016-2022-ci illərdə - 15,13 man. enərək, orta həddi göstəricisi 17,33 manat təşkil etmişdir.

Cədvəl 6

Azərbaycanda tullantıların bir manatına çəkilən xərc

İLLƏR	Ətraf mühitin istehsal və istehlak tullantılarının mühafizəsinə çəkilən xərclər	Hər iki növ tullantılar	Bütün növ tullantıların hər man.a yönəldilən investisiya
2005	11474	206,3	55,62
2010	4054,2	172,1	23,55
2015	7456,0	159	46,90
2020	11892,0	201	59,16
2021	20937,1	195,7	107
2022	13175,4	4322,1	3,04
2005-2010	1823,4	739,4	2,47
2011-2015	26705	1129,8	23,63
2016-2022	85517,3	5650,9	15,13
∑ 2005-2022	**130345,7**	**7520,1**	**17,33**

Hesablamalar müəlliflər tərəfindən aparılmışdır.

Nəticə və təkliflər

Fikrimizcə, aparılan araşdırmalar və hesablamalardan alınan nəticəyə əsasən aşağıdakı tövsiyələri irəli sürmək olar:

❖ Ekoloji təhlükəsizliyin milli və beynəlxalq təhlükəsizliyin tərkib hissəsi kimi düzgün qiymətləndirilməsi, ekoloji təhlükəsizlik meyarının təhlükəsizliyin digər növləri ilə tam şəkildə əlaqələndirilməsi;

❖ Atmosfer havasına atılan zərərli maddələrin azaldılması, Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, çay sularının çirklənməsinin qarşısının alınması, ozon qatının, biomüxtəlifliyin qorunub saxlanması kimi son dərəcə mühüm əhəmiyyətli ekoloji problemlərin uğurlu həlli üçün zəruri regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

❖ Ölkə ərazisində fəaliyyət göstərən Sənaye Məhəllələrinin və Texnoparkların nəzdində bərk tullantıların qəbulu, təkrar emalı və istifadəsinə rezidentləri cəlb etmək üçün daha əlverişli şərait yaradılması;

❖ Tullantıların həm ekoloji cəhətdən daha düzgün emalı, həm də biznes fəaliyyəti sahəsi kimi inkişafının genişləndirilməsi üçün müvafiq Dövlət Proqramının qəbul edilməsi;

❖ Naxçıvan MR ərazisində, Gəncə, Şirvan şəhərlərində, Quba rayonunda və əhalisi sıx olan regionlarda tullantıların idarə edilməsi üzrə mobil parkların yaradılması;

❖ İşğaldan azad edilmiş daha sıx əhali məskunlaşan iri şəhərlərdə müasir kanalizasiya sistemlərinin, tullantıların emalı və zərərsizləşdirilməsi məqsədilə modul tipli kompleksin yaradılması, bu sahəyə yerli və xarici investorlar cəlb edilməsi;

❖ Sahibkarlıq subyektlərinin öz istehsal-təsərrüfat fəaliyyətində tullantıların emalı, istifadəsi və biznes fəaliyyətinə təsir prosesinin idarə edilməsinin iqtisadi mexanizmində aşağıdakı bəndlərin icrasının diqqət mərkəzində saxlanılması:

- Emal və istifadə edilən tullantıların dövlət uçotunun aparılması;
- Tullantıların idarə edilməsi üzrə tədbirlərin yerinə yetirilməsi üçün müxtəlif maliyyə mənbələrini cəlb etmək;
- Tullantıların azaldılması, istifadəsi, təkrar emalı, tullantısız texnologiyaların tətbiqinin iqtisadi stimullaşdırılması;
- Tullantıların emalı və istifadəsinin idarə edilməsi ilə əlaqədar fəaliyyətin lisenziyalaşdırılması;

❖ Tullantıların idarə edilməsində daha geniş əhatəli əməli əhəmiyyət kəsb edən startap layihələrinin işlənilməsi;

❖ Bərk məişət tullantılarının təkrar emalı sahəsində beynəlxalq standartların və keyfiyyət menecmenti sisteminin tətbiqi;

❖ Ekoloji təhlükəsizlik meyarlarının təhlükəsizliyin digər aspektlərinin meyarları ilə uzlaşdırılması;

❖ Azərbaycan elektrotexnika, elektron və plastik tullantılarının idarə edilməsinin vahid qanunvericilik bazasının, Milli Sisteminin və emal infrastrukturunun yaradılmasının hüquqi bazasının formalaşdırılması;

❖ Qeyri-hökumət və ictimai təşkilatların elektron və elektrotexnika, eləcə də plastik tullantıların toplanması, emalı və zərərsizləşdirilməsi prosesinin maarifləndirilməsinə fəal cəlb edilməsi;

❖ Bərk tullantıların təkrar emalında biznes fəaliyyətinin genişləndirilməsi üzrə məqsədli investisiya-innovasiya layihələrindən geniş istifadəyə üstünlük verilməsi.

ƏDƏBİYYAT

1. Azərbaycan 2030: sosial-itisadi inkişafa dair Milli Prioritetlər. Bakı, 02 fevral 2021-ci il. (https://president/az/articles/50474)
2. "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018–2022-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında 1 noyabr 2018-ci il № 637 Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (https://e-qanun.az/framework/40445)
3. "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə 22 iyun 2021-ci ildəki Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (https://president.az/az/articles/ view/52215)
4. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2023-cü il tarixli Fərmanı (https://president.az/az/articles/view/60618)
5. "Tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi" haqqında 6 avqust 2008-ci il № 2983 Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (https://e-qanun.az/framework/15230)
6. T.Əliyev. "Ekoloji menecment", Bakı, 2006, "Çinar-Çap"nəşriyyatı, 453s.
7. T.Əliyev və B.İsmayılov. "Azərbaycanda tullantılardan istifadənin sinerji effekti", "Dayanıqlı inkişafın yeni keyfiyyət mərhələsi". Beynəlxalq elmi-praktik konfransdan material. Bakı, 2022, s.275-280
8. https://banker.az/balaxani-s%C9%99naye-parkinin-rezidenti-3-milyon-manata-yaxin-m%C9%99nf%C9%99%C9%99t-aciqladi/
9. https://businessmens.ru/article/utilizaciya-i-pererabotka-tverdyh-bytovyh-othodov-biznes-ideya
10. https://ecology.aonb.ru/musor-yaponskiy-opit.html
11. https://expertcentr.com.ua/pererabotka-othodov-kak-biznes/
12. https://e-qanun.az/framework/47707
13. https://geridonusumekonomisi.com.tr/japonlarin-teknolojik-atiklar-icin-ilginc-ozumleri.html
14. https://optolov.ru/tr/otdelka-sten-v-vannojj/literatura-obrashchenie-s-tbo-v-yaponii-kak-sortiruyut-i-pererabatyvayut-musor-v.html
15. https://www.quickwasters.co.uk/blog/effects-of-solid-waste-on-business-environments

Тарбиз Насиб оглы АЛИЕВ
АР Министерство Науки и Образования
Институт Экономики, д.э.н., проф.
электронная почта: tarbiz.aliyev47@bk.ru

Сидига Ислам кызы БАЛАМИЕВА
АР Министерство Науки и Образования
Институт Экономики, ученый
электронная почта: s.balamiyeva@bk.ru

Айтен Фарис кызы АБДУРРАХМАНОВА
АР Министерство Науки и Образования
Институт Экономики, диссертант
электронная почта: ayten.abdullayeva1995@mail.ru

РАСШИРЕНИЕ БИЗНЕС-ДЕЯТЕЛЬНОСТИ В ОБЛАСТИ ПЕРЕРАБОТКИ ТВЕРДЫХ ОТХОДОВ

Резюме

Цель исследования – Он заключается в исследовании правильного сбора, сортировки и переработки твердых отходов в Азербайджане, а также в одновременной разработке рекомендаций по практическому, организационному и экономическому продвижению направлений расширения предпринимательской деятельности по их переработке.

Методика исследования - на основе существующей законодательной базы был учтен международный опыт, отдано предпочтение использованию системного подхода, сравнительного анализа, методов группировки.

Прикладное значение исследования заключается в расширении направлений переработки ТБО и превращении этих направлений в высокорентабельную бизнес-деятельность с учетом современной ситуации в мире и в нашей стране.

Результаты исследования - исследование показывает, что для отвода большого количества отходов со свалки необходимо иметь систему управления отходами высокого уровня. Для этого приоритет должен быть отдан широкому использованию инвестиционно-инновационных проектов, направленных на расширение предпринимательской деятельности по переработке ТБО, лицензированию этой деятельности, организации новой инфраструктуры и фонда утилизации, развитию стартап-проектов, имеющих более широкое практическое значение в управление отходами и ряд стимулов в этой области.

Оригинальность и научная новизна исследования - изучен и обобщен международный опыт переработки ТБО, он заключается в разработке научно обоснованных методических и практических рекомендаций о возможности их использования в реалиях Азербайджана и расширении предпринимательской деятельности в Азербайджане. эту сферу деятельности.

Ключевые слова: Твердые отходы, обращение с отходами, международный опыт, экосистема, индустриальные парки.

Tarbiz Nasib Aliyev
AR Ministry of Science and Education
Institute of Economics, d.e.s., prof.
e-mail: tarbiz.aliyev47@bk.ru

Sidiga Islam Balamiyeva
AR Ministry of Science and Education
Institute of Economics, scientist
e-mail: s.balamiyeva@bk.ru

Ayten Faris Abdurrakhmanova
AR Ministry of Science and Education
Institute of Economics, doctoral student
email: ayten.abdullayeva1995@mail.ru

Expansion of business activities in the field of solid waste processing

Summary

The purpose of the study - It consists of researching the correct collection, sorting and recycling of solid waste in Azerbaijan, and at the same time developing recommendations on practical, organizational and economic promotion for the directions of expanding business activities in their recycling.

The methodology of the research - based on the existing legislative framework, the international experience was considered, the use of systematic approach, comparative analysis, and grouping methods was preferred.

The applied importance of the research is to expand solid waste recycling areas and turn these areas into a highly profitable business activity, taking into account the current situation in the world and in our country.

Findings of the study – the study show that in order to divert large amounts of waste from landfill, it is imperative to have a high-level waste management system. For this, priority should be given to the wide use of investment-innovation projects aimed at expanding business activities in solid waste recycling, licensing of these activities, organization of new infrastructure and disposal fund, development of start-up projects of wider practical significance in waste management, and a number of incentives in this field. Implementation of mechanisms is appropriate.

The originality and scientific novelty of the research - international experience in solid waste recycling is studied and summarized, it consists in the development of scientifically based methodological and practical recommendations on the possibility of using them in the reality of Azerbaijan and the expansion of business activities in that field of activity.

Key words: Solid waste, waste management, international experience, ecosystem, industrial parks.

UOT: 338.2

Nigar Lətif qızı HÜSEYNOVA
Azərbaycan Dövlət İqtisad Universiteti, i.f.d.
e-mail: nigar777@hotmail.com
ORCİD 0000-0002-7940-8628
10.30546/4.71.73001.2024.020

MÜASİR ŞƏRAİTDƏ İNNOVASİYAYA ELMİ YANAŞMALARIN TƏKAMÜLÜ

Xülasə

Sosial inkişafı xarakterizə edərkən qloballaşma, interaktivlik və davamlı artım kimi anlayışlardan geniş istifadə olunur. Müasir inkişaf proseslərinin qiymətləndirilməsi üçün bu konsepsiyaların əhəmiyyətini nəzərə alaraq qeyd etmək lazımdır ki, onlar iqtisadi, sosial, siyasi və maliyyə meyillərinin yeni vəziyyətlərini tam xarakterizə edə bilmirlər. Sosial inkişafın yeni vəziyyətinin daha dəqiq təsviri “innovativ inkişaf” kimi iqtisadi kateqoriya ilə ifadə olunur. Bu kateqoriya akademik iqtisadçıların tədqiqatlarında geniş yer tapmışdır. Məqalədə innovasiyaya elmi yanaşmaların təkamül prosesi tədqiq edilir.

Məqsəd – mövcud şəraitdə innovasiya fəaliyyətinə yanaşmaların təhlil edilməsi və müəllifin mövqeyinin əsaslandırılmasıdır.

Metodologiya – tədqiqat işində iqtisadçı alimlərin innovasiya prosesinə yanaşmaları sistemli təhlil əsasında həyata keçirilmişdir.

Tədqiqatın nəticələri - Effektiv innovasiya sistemi dövlətə beynəlxalq münasibətlər sistemində öz statusunu müəyyən etməyə, habelə beynəlxalq əmək bölgüsündə öz yerini tutmağa imkan verəcək.

Elmi yenilik və tədqiqatın orijinallığı - İnnovasiya ayrı-ayrı innovasiya subyektlərinin təşəbbüsü ilə sərvət yaradılmasını təmin edən və intellektual aktivlər bazarını inkişaf etdirən, milli və xarici investorların bilik iqtisadiyyatına sərmayə axınını təmin edən alətdir.

Açar sözlər: innovasiya fəaliyyəti, təkamül, proses innovasiyası, effektiv innovasiya

Giriş

“İnnovasiya fəaliyyəti” terminin məzmununu başa düşmək, onun əsas xüsusiyyətlərini müəyyən etmək üçün əsas komponenti - innovasiyanı müəyyən etmək lazımdır. İnnovasiya – rasional təşkil olunmuş fəaliyyətin ənənəvi, arxaik, sənətkarlıq formasının yerdəyişməsi kimi başa düşülən yenilikdir [12, s. 265]. İnnovativ inkişaf ilk dəfə Qərbi Avropa mədəniyyətində yaranır. Başlanğıcda yenilik ənənəvi əsasların və qadağaların məhv edilməsi ilə bağlı idi və eyni zamanda insanın təbiətin yaratdığının əvəzinə daha yaxşı bir dünya qurmaq istəyini əks etdirirdi.

İnnovativ inkişafın əsası süni, rasional yaradılmışın təbii və irsi olanı üstələyə biləcəyi fərziyyəsidir.

O dövrün innovativ prosesi dünyanın müqəddəssizləşməsi və dünyanın yaradılış sirlərinə hörmətin aradan qalxması ilə ifadə olunur. İlkin olaraq innovasiyalar siyasi və sosial-mədəni inkişafa dolayı təsir göstərən texniki və iqtisadi sahələri əhatə edir. 20-ci əsrin əvvəllərinə qədər “texnologiya” anlayışı yalnız istehsal fəaliyyəti ilə əlaqəli idi. Buna görə də, amerikalı publisist D.Bell və fransız sosioloqu A.Turen öz əsərlərində istehsal sferası innovativ, qeyri-istehsal sferası isə ənənəvi xarakter daşıdığından, keçmiş cəmiyyətdən ikili mədəniyyət kimi çıxış etmişlər. Yeniliyin insan fəaliyyətinin bütün sahələrini əhatə etdiyi müasir cəmiyyətdə ikililiyin yoxa çıxmasını müşahidə etmək olar.

İnnovasiya fəaliyyətinin təkamülü

Orta əsrlərdə innovasiyanın təşəbbüskarları arasında idarəetmə və ticarətlə məşğul olan fərqli şəxslər, qruplar və qeyri-trivial icmaların nümayəndələri var idi. Onların yeniliyə hazır olmasının əsasını formalaşmış ənənələrə və normalara ayrı münasibət təşkil edirdi. O dövrdə innovativ fəaliyyət sosial-mədəni cinayətə bərabər tutulurdu. Qanuni innovativ fəaliyyət dövrü 17-19-cu

əsrlərdəki burjua inqilabları zamanı innovativ qrupların cəmiyyətdə aparıcı mövqelər qazanmasından sonra başladı.

Cəmiyyətin texniki, təşkilati, maliyyə və mədəni sahələrini əhatə edən 17-19-cu əsrlərdəki yeniliklər axını Avropanı dünya sivilizasiyasının mərkəzinə çevirdi. 17-19-cu əsrlərdə Avropada sənaye və nəqliyyatda baş verən inqilabi dəyişikliklərin əksəriyyətini təşkilati-texniki sahədəki yeniliklərə ixtisar etmək olar. Sənətkarlıq emalatxanaları sistemindən fabrik istehsalına keçid baş verdi.

Fabrik istehsalı və nəqliyyatında su və buxar gücündən istifadə (toxuculuq və metallurgiya istehsalında tətbiq olunan parovozlar, paroxodlar, buxar maşınları) və əsas konstruksiya materialları kimi polad və dəmirin inkişafı geniş vüsət aldı. Buxar maşınlarının istifadəsi fabriklərin yerləşdiyi yerə, onların planına və bir mühərriklə işləyən maşınların sayına təsir etdi. Beləliklə, elm mücərrəd və ülvi maraq xarakterini itirmiş və məqsədyönlü innovativ inkişaf alətinə çevrilmişdir. İnnovasiya nəzəriyyəsinin baniləri arasında ixtira və innovasiya dalğalarının yeni inkişaf dövrünə keçidi əvvəlcədən müəyyənləşdirdiyini irəli sürən N.D.Kondratyevin də xüsusi yeri var. N.D.Kondratyev müəyyən etdi ki, böyük bir dövrün yuxarı dalğası cəmiyyətin istehsal sektorunun fəaliyyəti üçün əsas şərtlərdə əhəmiyyətli dəyişikliklərlə başlayır. Mübadilə və istehsal texnologiyasındakı dərin dəyişikliklər əvvəlki ixtiraların və kəşflərin nəticəsidir [3, s. 320-321].

N.D.Kondratyev zəruri şərtləri də aydınlaşdırdı: elmi ixtiraların və kəşflərin mövcudluğu və istifadəsinin mümkünlüyü.

İnnovasiya nəzəriyyəsi Şumpeterin əsərlərində, 1939-cu ildə ikicildlik “Biznes dövrələri” monoqrafiyasında daha da inkişaf etdirilmişdir. Şumpeter innovasiyaya iqtisadi böhrandan çıxmaq vasitəsi kimi baxırdı. Onun fikrincə, innovasiya yeni məhsulların, istehsal üsullarının, bazarların, xammal mənbələrinin və təşkilati proseslərin tətbiqinə səbəb olan, artıq məlum olan amillərin yeni birləşmələri nəticəsində iqtisadi prosesdə baş verən dəyişikliklər nəticəsində böhrandan çıxmaq imkanıdır. Şumpeter innovasiyanın əsas qazanc mənbəyinə çevrilməli olduğunu deyərək, inkişaf olmadan mənfəətin, mənfəət olmadan isə inkişafın olmadığını diqqətə çatdırıb [13, s. 224].

Almaniyada 1975-ci ildə Q.Menşin “Texnoloji dalana dirəniş: İnnovasiya depressiyaya qalib gəlir” monoqrafiyası nəşr olundu və burada Kondratyev-Şumpeterin innovasiya nəzəriyyələri daha da inkişaf etdirildi.

Beləliklə, 20-ci əsrin ikinci yarısını innovasiya təcrübəsinin inkişafı kimi xarakterizə etmək olar. Yeni texnologiyaların və yeni bazarların kəşfində ixtisaslaşan vençur kapitalı təşkilatları yaranmağa başlayır. İstehsal sektoru ilə yanaşı, elmi-tədqiqat və təkmilləşdirmə sistemi sosial mühəndislik, texniki və istehsalat komplekslərini, gündəlik həyat, asudə vaxt və ünsiyyət sahələrini əhatə etməyə başlayır.

Hal-hazırda bu termin iqtisad elmində möhkəm şəkildə yerləşmişdir, lakin buna baxmayaraq, iqtisadçılar “innovasiya” anlayışını şərh etmək üçün müxtəlif variantlar təklif etdikləri üçün heç bir tərif almamışdır.

İnnovasiyanın ilk tərifləri texniki diqqətə əsaslanmış və bazarın tələblərinə cavab verən texnoloji ideya və ixtiraların yeniliyinə malik olan texnologiyada innovasiyalar kimi şərh edilmişdir. İnnovasiyanın obyektləri məhsullar, cihazlar, texnologiyalar, ixtiralar, elmi və sənaye sirləri idi [14, s.197].

Bir qədər sonra amerikalı iqtisadçı və sosioloq P.Drukerin sayəsində innovasiya yeni məhsul, xidmət, istehsal üsulu, təşkilati, maliyyə, tədqiqat, sosial, hüquqi və digər proseslərdə innovasiya kimi başa düşülməyə başlandı [1, s.17; 16, s.73].

Bu tərif elmi-texniki tərəqqinin mərhələləri üzrə innovasiyanı daha düzgün təsnif etməyə imkan verir. Texniki yeniliklərə xüsusiyyətləri yaxşılaşdırılmış məhsulların istehsalına aid olanlar daxil edilməyə başlandı. Texnoloji innovasiyaların yaranması malların istehsalının təkmilləşdirilmiş üsullarının istifadəsi ilə bağlıdır. Təchizat, istehsal, nəqliyyat və satışın optimal təşkili prosesində təşkilati və idarəetmə yenilikləri meydana çıxdı.

İnformasiya innovasiyasının vəzifələrinin dairəsi elmi, texniki və istehsalat fəaliyyəti sahələ-

rində informasiya axınlarının rasionallığı, etibarlılığı və səmərəliliyi ilə məhdudlaşır. Sosial innovasiyalar iş şəraitini yaxşılaşdırır, sığorta və səhiyyə, təhsil və mədəniyyət problemlərini həll edir [5, s. 52; 10, s.11].

Bütün innovasiya növləri bir-biri ilə sıx bağlıdır. İstehsal prosesinin məzmununa təsir edən texniki və texnoloji yeniliklər istehsalın təşkilində dəyişiklikləri tətbiq etməklə idarəetmə innovasiyalarının meydana çıxmasını təmin edir. Beləliklə, əksər alimlər innovasiyaların təkcə texniki və texnoloji deyil, həm də iqtisadi və sosial xarakter daşıması fikrini dəstəkləyirlər.

İqtisadiyyat elmi inkişaf etdikcə “innovasiya” anlayışının yeni şərhləri meydana çıxır. Macarıstanlı iqtisadçı B.Santo belə tərif verir: innovasiya ixtira və ideyaların praktiki istifadəsinə əsaslanaraq, məhsulların və texnologiyaların xassələrini təkmilləşdirən, həmçinin əlavə gəlir gətirən sosial, iqtisadi və texniki prosesdir [9, s.17]. Yu.P. Morozovun sözlərinə görə, innovasiya onun əsasını təşkil edən sosial, istehsal və iqtisadi potensialın inkişafı, istismarı və tükənməsini əhatə edən bir prosesdir [8, s. 25]. V.G. Medynsky və S.V. İldemenov innovasiyanı elmi tədqiqatlar və ya əvvəlki analoqlardan keyfiyyətcə fərqlənən kəşflər nəticəsində istehsal prosesinə daxil edilmiş obyekt hesab edirlər.

V.M. Konovalov innovasiyanı insanların praktik fəaliyyətində ictimai tanınmağa çalışan ideyaların, inkişafların, tədqiqatların və həllərin çevrilməsinin nəticəsi kimi görür [8, s.23]. V.V.Petrov “innovasiya” termininin mahiyyətini yeni məhsulların, texnologiyaların, xidmətlərin ilk tətbiqində, yəni yeni ideyaların, kəşflərin, ixtiraların və elmi nəticələrin kommersiya inkişafı kimi başa düşür [7, s.5].Elmi Tədqiqat və Statistika Mərkəzinin İnnovasiyalar üzrə komandasının rəyi belədir: innovasiya təşkilati, maliyyə, elmi tədqiqat və digər sferalara tətbiq edilən yeni məhsul (xidmət), istehsal üsulu, innovasiyadır ki, bu da öz fəaliyyətini təmin edə biləcək xərclərə qənaət etmək və ya belə qənaətə şərait yaratmaqdır” [4, s.4].

D.Messi, P. Quintas və D.Wild “innovasiya” termininin iki mənada işlənməsinə diqqət yetirirlər.

Birincisi, yeni məhsulların, proseslərin və ya sistemlərin istifadəsini təsvir edir. İkincisi, fəaliyyəti təsvir edir (tədqiqat, layihələndirmə, inkişaf və yeni məhsulların, proseslərin və ya sistemlərin istehsalı). Sonuncunun şərhi çox vaxt “innovasiya prosesi” termini ilə üst-üstə düşür [6, s.154].

İnnovasiyanın geniş başa düşülməsi həm nəzəri, həm də praktiki tətbiqdə narahatlıq yaradır, çünki tədqiqat obyektlərinin və aktiv innovativ fəaliyyət göstərən təsərrüfat subyektlərinin sərhədlərini aradan qaldırır. Buna görə də müəllif “innovasiya” terminə aydınlıq gətirməyi və onu “intellektual mülkiyyət” anlayışı ilə əlaqələndirməyi təklif edir. Bəzi alimlərin fikrincə, innovasiya əqli mülkiyyət obyekti olan elmi və elmi-texniki fəaliyyətin nəticəsidir. Alimlərin fikirlərinin müxtəlifliyi ona gətirib çıxarmışdır ki, tədqiqatın məqsədlərindən və təhlil obyektlərindən asılı olaraq “innovasiya” anlayışı ilə bağlı dörd əsas yanaşma müəyyən edilmişdir. Əsas yanaşmalar bunlardır:

1. obyekt - yenilik obyekt (məhsul, texnologiya, mexanizm, avadanlıq) kimi çıxış edir.

Bu yanaşmanın tərəfdarları aşağıdakı alimlərdir: V.G. Medınski, B.A. Reisberg, L.A. Skamay, R. Taker.

2. proses - innovasiya işlənib hazırlanması, həyata keçirilməsi, tətbiqi və kommersiyalaşdırılmasından ibarət proses kimi müəyyən edilir. Yeniliyin oxşar təriflərinə M. Porter, R. Foster, E. Mansfield, Br. Twiss, B. Santo, F. Valenta, F. Nixon, K. Freeman, S.V. Valdaytsev, V.N. Lapin, S.Yu. Qlazyev və başqalarının əsərlərində rast gəlinir.

3. effektiv - innovasiya bazarlara təqdim edilən yeni və ya təkmil məhsullarda, praktik fəaliyyətdə istifadə olunan yeni və ya təkmilləşdirilmiş texnoloji proseslərdə və ya sosial xidmətlərə yeni yanaşmalarda ifadə olunan innovativ fəaliyyətin nəticəsidir. Bu yanaşma S. Mendell, F. Jansen, D. Ennis, R. A. kimi iqtisadçıların əsərlərində müşahidə oluna bilər.

4. sistemli - innovasiya innovativ fəaliyyətin obyekti, prosesi və nəticəsi kimi şərh olunur.

Dördüncü yanaşmanın tərəfdarları arasında J. Şumpeter, V.A. Sarycheva, E.L. Barsukov, M.S. Oçkovskaya, İ.G. Səlimyanov, V.Yu. Tyurin və başqalarını vurğulamaq olar.

Beləliklə, hazırda alimlər innovasiya termininin təfsirinə dörd yanaşma müəyyən ediblər: birin-

cisi obyekt əsaslıdır, burada innovasiyalar obyektlərdir (məhsul, texnologiya, avadanlıq, mexanizm), ikincisi - prosesə əsaslanan innovasiyadır. innovasiyaların tətbiqinin dinamik prosesi hesab olunur, üçüncüdə - effektiv, innovasiya yaradıcı fəaliyyətin statik nəticəsidir, dördüncü yanaşma isə öz tərifində yuxarıda qeyd olunan üç yanaşmanı birləşdirən obyekt-prosesdir.

“Yenilik” termininin müxtəlif təfsirləri innovasiyanın mürəkkəb təbiətindən, onların tətbiqi üsullarının çoxşaxəliliyindən və müxtəlifliyindən danışır. Ümumiyyətlə, innovasiya əqli mülkiyyət obyekti olan intellektual məhsuldur. [11, s.42]

Yuxarıda təsvir edilən akademik iqtisadçıların bütün fikirlərinə əsaslanaraq, biz innovasiyanın əsas xüsusiyyətlərini qeyd edəcəyik.

Birincisi, innovasiya ətraf mühitin təsirlərinə cavabdır.

İkincisi, innovasiya dəyişikliklə eyniləşdirilir, ona görə də innovasiya fəaliyyətinin əsas funksiyası dəyişiklik funksiyası hesab edilməlidir.

Üçüncüsü, bir çox müəlliflər innovasiyaların yaradılması zamanı faydalı təsirin olduğunu qeyd etmişlər.

“İnnovasiya” anlayışının verilmiş müxtəlif şərhlərindən belə nəticəyə gələ bilərik ki, innovasiya mürəkkəb iqtisadi kateqoriyadır, onun məzmununu aydınlaşdırmaq üçün müəllif onun əsas xüsusiyyətlərini müəyyən etmişdir:

1) toplanmış biliklərdən onun bütün növ və formalarında istifadə etmək imkanı: gündəlik, elmi, praktiki, bədii, rasional, irrasional, şəxsi.

2) hər hansı istehsal, elmi, sosial, mədəni, siyasi, maliyyə və ya digər fəaliyyət obyektinin əvvəlki vəziyyətinin məqsədyönlü şəkildə dəyişdirilməsi

3) cəmiyyətin istənilən sahələrində, yəni sənaye, elmi, sosial, mədəni, siyasi, maliyyə və s. tətbiqi imkanları.

4) sahibkarlıq fəaliyyətinin effektini yaradan mənbə. Həm iqtisadi, həm də qeyri-iqtisadi baxımdan müsbət nəticə əldə etmək məqsədi ilə innovativ fəaliyyət həmişə həyata keçirilir.

5) bazar münasibətlərinin obyekti. İnnovasiya innovasiya bazarını formalaşdıraraq alqı-satqı obyekti kimi çıxış edə bilər.

6) mülkiyyət və sərəncam obyekti.

7) risklilik. İnnovativ fəaliyyətlər həyata keçirərkən həmişə gözlənilən gəlirin miqdarının çatışmazlığı və (və ya) qoyulmuş kapitalın itirilməsi ilə bağlı iqtisadi risk mövcuddur.

8) müvəqqəti müddət. İnnovasiyaların yaradılması ilə onların həyata keçirilməsindən gözlənilən effektin əldə edilməsi arasında müəyyən intervalla səciyyələnən vaxt fasiləsi mövcuddur.

9) likvidlik. Bütün yeniliklər, lazım gələrsə, real bazar dəyəri ilə həyata keçirilmək imkanına malikdir.

Yuxarıda göstərilən xüsusiyyətlərə əsaslanaraq, dissertasiya müəllifi innovasiyanı müsbət nəticə əldə etməyə səbəb olmaqla, onların əvvəlki vəziyyətini dəyişdirmək üçün cəmiyyətin bütün sahələrində müxtəlif növ və formalarda toplanmış biliklərin obyekt və proseslərə sərmayə edilməsi kimi başa düşür (iqtisadi və qeyri-iqtisadi), risk faktorları, vaxt və likvidlik ilə əlaqələndirilir. “İnnovasiya” termininin təfsir nəzəriyyələrinin təkamülü müxtəlif dövrlərdə alimlərin fikrincə innovasiya fəaliyyətinin komponentlərinin konseptual aparatında baş verən dəyişiklikləri təsvir edə bilər.

Müəllifin fikrincə, “innovasiya” anlayışının inkişafının sonrakı tendensiyası ondan ibarətdir ki, termin sadələşdiriləcək və ətraflı dəqiqləşdiriləcək, bununla əlaqədar konseptual aparatın terminoloji genişləndirilməsi mümkündür.

Konsepsiyanın qeyri-müəyyənliyi və onun özbaşına təfsiri innovativ layihələrin həyata keçirilməsi mərhələlərində maliyyələşdirmə və fayda təmin etmə proseslərini çətinləşdirir. Ona görə də innovasiya müəyyən fəaliyyət sahəsində qanunvericilik səviyyəsində təsbit edilmiş əqli mülkiyyətin nəticələri kimi başa düşüləcəkdir. İqtisad elminin innovasiya sahəsində inkişafı ona gətirib çıxarmışdır ki, tədqiqat praktikasında “innovasiya” sözündən törəmə terminlər, yəni “innovasiya prosesi” və “innovasiya fəaliyyəti” terminlərindən istifadə olunur.

İnnovasiya prosesi innovasiyaların inkişafı və yaradılması prosesinə aiddir[14, s.197].

İnnovasiya fəaliyyəti sosial həyatda və insan fəaliyyətində tədqiqat və elmi-texniki fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması prosesidir. Bu tərifdə innovativ fəaliyyətin bazar xarakteri aydın görünür, çünki o, innovativ məhsulun satışından gəlir əldə etməyi nəzərdə tutur [2, s.8].

Həmçinin innovasiya fəaliyyəti başa çatmış elmi tədqiqatların və elmi-texniki nailiyyətlərin işlənib hazırlanması və həyata keçirilməsinə yönəldilmiş, əvvəllər praktikada istifadə olunmamış bir prosesdir [15, s.7].

Beləliklə, V.Yu. Tyurina innovasiya fəaliyyətinin aşağıdakı tərifini təklif edir: əsas məqsədi fundamental və tətbiqi tədqiqatlar prosesində yaradılmış innovasiyaların ictimai praktikada tətbiqi olan fəaliyyətdir. Hüquqi və fiziki şəxslər əqli mülkiyyətə aid olan və mühafizə sənədləri (patent, lisenziya, müəlliflik hüququ şəhadətnaməsi, təhvil və ya təhvil müqaviləsi) ilə təmin edilmiş obyektlərdən istifadə etdikdə öz fəaliyyətlərini innovativ hesab edə bilərlər[14, s. 47].

İnnovasiya proseslərinin təkamül yolu ilə inkişafı innovasiya fəaliyyətinin ixtisaslaşdırılmış subyektlərinin (innovasiya və texnologiya mərkəzi, texnopark, kiçik innovasiya təşkilatı və s.) və innovasiya infrastrukturunun yaradılmasına və fəaliyyət göstərməsinə səbəb olmuşdur.

İnnovasiyaların yaradılmasına marketinq tədqiqatları, elmi-texniki xidmətlər, biznes planın hazırlanması, innovasiyaların səmərəliliyinin qiymətləndirilməsi, elmi kadrların yenidən hazırlanması, maliyyə resursları ilə təmin edilməsi, istehsalata daxil edilməsi, sonradan bazarda satışı və utilizasiyası ilə bağlı tədbirlər daxildir. Yuxarıda göstərilən bütün tədbirlər ardıcıl innovasiya prosesinin elementləridir. Beləliklə, innovasiya prosesi dedikdə, innovasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hadisələrin ardıcıl zəncirini başa düşürük.

Elm və texnika sahəsində dövlət orqanlarının məqsədləri, istiqamətləri, fəaliyyət formaları baxımından elmi-texniki fəaliyyətə dövlətin münasibəti dövlətin elmi-texniki siyasətində öz əksini tapır.

Nəticə

Beləliklə, qeyd edək ki, innovasiya həm statikada - yaradıcı fəaliyyətin obyekti və nəticəsi, həm də dinamikada innovasiyaların tətbiqi prosesi şəklində hərtərəfli nəzərdən keçirilir. İnnovasiyaların yaradılması və həyata keçirilməsi ilə bağlı hadisələrin ardıcıl silsiləsi vahid innovasiya prosesini təşkil edir.

Hazırda innovasiya fəaliyyəti dünya iqtisadiyyatının hərəkətverici qüvvəsidir, ona görə də dövlətin milli rifahı effektiv milli innovasiya sisteminə əsaslanan həyata keçirilən innovasiya strategiyasından asılıdır. Effektiv innovasiya sistemi dövlətə beynəlxalq münasibətlər sistemində öz statusunu müəyyən etməyə, habelə beynəlxalq əmək bölgüsündə öz yerini tutmağa imkan verəcək. İnnovasiya ayrı-ayrı innovasiya subyektlərinin təşəbbüsü ilə sərvət yaradılmasını təmin edən və intellektual aktivlər bazarını inkişaf etdirən, milli və xarici investorların bilik iqtisadiyyatına sərmayə axınını təmin edən alətdir.

ƏDƏBİYYAT:

1. Drucker, P. Effektiv idarəetmə. İqtisadi problemlər və optimal həll yolları: trans. ingilis dilindən / red. M. Kotelnikova. - M.:, 1988. - 288 s.
2. Jurin, V.K. İnnovasiyaların idarə edilməsində əqli mülkiyyət obyektlərinin qiymətləndirilməsi: referat. dis..cand. ekon. Elmlər: 08.00.05 / V.K. Jurin. - Saratov, 2003. - 19 s.
3. Kondratyev, N.D. Konyunkturanın böyük dövrləri və uzaqgörənlik nəzəriyyəsi / N.D. Kondratyev. - M.: İqtisadiyyat, 2002. - 321 s.
4. Kateshova, M., Kvashnin, A. Texnologiyanın kommersiyalaşdırılması layihələrini necə təşviq etmək olar: bir sıra üsullar. “Texnologiyaların kommersiyalaşdırılması mərkəzləri üçün praktiki bələdçi”. 2014. http://www.sci-innov.ru/comtech/materials/?page=3. 7.
5. Lynnik, N.V. İnnovasiyaların hüquqi tənzimlənməsi sisteminin yaradılmasına doğru / N.V. Lynnik //Rusiya İqtisadiyyat Jurnalı. - 1993.- No 2.- S.48-58.

6. Messi, D., Quintas, P., Wild, D. İnnovasiyanın xətti modeli: müsbət və mənfi cəhətləri. Texnologiya transferi və innovasiyaların effektiv tətbiqi / D. Messi, P. Quintas, D. Wild. - M.: ANKh, 1999. - 296 s.
7. Petrov, V.V. İnnovativ idarəetmə: modul 5. / V.V. Petrov. - Saratov: Saratov Dövlət Texniki Universiteti, 2004. - 224 s.
8. Plotnikov, A.P. Maşınqayırma müəssisələrinin innovativ inkişafının idarə edilməsi (nəzəriyyə, metodologiya): dis. ... İqtisad elmləri doktoru Elmlər: 08.00.05. / A.P. Plotnikov. - Samara, 2009. - 299 s.
9. Santo, B. İnnovasiya iqtisadi inkişafın vasitəsi kimi: trans. macar dilindən / B.Santo. - M.: Tərəqqi, 1990. - 321 s.
10. Twiss, B. Elmi-texniki innovasiyaların idarə edilməsi / B. Twiss. - M.: İqtisadiyyat, 1989. - 193 s.
11. Tyurina, V.Yu. Universitet komplekslərinin innovasiya proseslərinin və əqli mülkiyyətin idarə edilməsi: dis. ... İqtisad elmləri doktoru: 08.00.05. / V.Yu. Tyurin. - Saratov, 2005. -365 s.
12. Fəlsəfə: ensiklopedik lüğət / red. A.A. İvina. - M.: Qardariki, 2004. – 1072 s.
13. Şumpeter, J. İqtisadi inkişaf nəzəriyyəsi / J. Şumpeter. - M.: Tərəqqi, 1982. - 524 s.
14. İnformasiya iqtisadiyyatı: dərslik / red. V.V. Qluxova, S.B. Korobko, T.V.Marinina. - Sankt-Peterburq: Peter, 2003.- 197 s.
15. Yankovski, K.P. İnnovativ sahibkarlığa giriş / K.P. Yankovski. - Sankt-Peterburq: Peter, 2004. - 188 s.
16. 16.194. Lemerl, P. İnnovasiya siyasəti. Trendlər və perspektivlər (OECD) / P. Lemerl 1982. P.II.

Нигяр Лятиф кызы Гусейнова
Азербайджанский Государственный
Экономический Университет

Эволюция научных подходов к инновации в современных условиях

Резюме

При характеристике развития общества широко используются понятия устойчивый рост, глобализация. Учитывая важность оценки этих концепций нужно отметить, что они не смогут характеризовать ситуации, связанные с экономическими, социальными, а также финансовыми тенденциями. Более подробную характеристику развития общества дает категория “инновационное развитие”. В статье эта категория нашла широкое место.Здесь анализируя подход ученых-экономистов, исследован эволюционный процесс научных подходов к инновациям.

Цель – проанализировать подходы к инновационной деятельности в современных условиях и обосновать позицию автора.

Методология – подход экономистов к инновационному процессу в исследовательской работе осуществлялся на основе системного анализа.

Результаты исследования - Эффективная инновационная система позволит государству определить свой статус в системе международных отношений, а также занять свое место в международном разделении труда.

Научная инновация и оригинальность исследований. Инновации – это инструмент, обеспечивающий создание богатства по инициативе отдельных инновационных субъектов и развивающий рынок интеллектуальных активов, обеспечивающий приток инвестиций национальных и иностранных инвесторов в экономику знаний.

Ключевые слова: инновационная деятельность, эволюция, процессные инновации, эффективные инновации.

Nigar Latif Huseynova
Azerbaijan State University of Economics, PhD in economics

Evolution of scientific approaches to innovation in modern conditions

Summary

When characterizing social development, concepts such as globalization, interactivity and sustainable growth are widely used. Considering the importance of these concepts for the assessment of modern development processes, it should be noted that they cannot fully characterize the new situations of economic, social, political and financial trends. A more accurate description of the new state of social development is expressed by the economic category “innovative development”. This category has found a wide place in the researches of academic economists. The evolutionary process of scientific approaches to innovation is studied in the article.

The goal is to analyze the approaches to innovation activity in the current conditions and justify the author's position.

Methodology - the approach of economists to the innovation process in the research work was carried out on the basis of systematic analysis.

Research results - An effective innovation system will allow the state to determine its status in the system of international relations, as well as take its place in the international division of labor.

Scientific innovation and originality of research - Innovation is a tool that ensures the creation of wealth by the initiative of individual innovation subjects and develops the market of intellectual assets, ensuring the flow of investments from national and foreign investors to the knowledge economy.

Key words: innovation activity, evolution, process innovation, effective innovation.

VI BÖLMƏ
İNSAN KAPİTALI VƏ LAYİHƏLƏRİN İDARƏ EDİLMƏSİ

UOT: 331

Ramil Teyyub oğlu ƏLİYEV
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent

Sevda Faiq qızı MAHMUDOVA
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutunun böyük elmi işçisi
10.30546/4.71.73001.2024.021

BİZNESİN KADR TƏMİNATININ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - kadr təminatının biznes fəaliyyətində rolunun qiymətləndirilməsi və biznesin kadr təminatının yaxşılaşdırılması üçün təkliflərin hazırlanmasıdır.

